# Advent † Milad oxunuşları

*(Müqəddəs Messa üçün)*

## Rəbb günləri və adi günləri



*Katolik Kilsəsi, Azərbaycan*

*ver. 15 dek 2023*

## ADVENT

| 1ci həftə \| 1ciRəbb günü A B C | 2ci həftə \| 3cü Rəbb günü A B C |
|---|---|
| 1ci həftə \| 1ci gün | 2ci həftə \| 1ci gün |
| 1ci həftə \| 2ci gün | 2ci həftə \| 2ci gün |
| 1ci həftə \| 3cü gün | 2ci həftə \| 3cü gün |
| 1ci həftə \| 4cü gün | 2ci həftə \| 4cü gün |
| 1ci həftə \| 5ci gün | 2ci həftə \| 5ci gün |
| 1ci həftə \| 6cı gün | 2ci həftə \| 6cı gün |

| 3cü həftə \| 2ci Rəbb günü A B C | 4cü həftə \| 4cü Rəbb günü A B C | |
|---|---|---|
| 3cü həftə \| 1ci gün | 17.12. | 18.12. |
| 3cü həftə \| 2ci gün | 19.12. | 20.12. |
| 3cü həftə \| 3cü gün | 21.12. | 22.12. |
| 3cü həftə \| 4cü gün | 23.12. | 24.12. |
| 3cü həftə \| 5ci gün | | |

## Milad Bayramının Ərəfəsi – 24.12.

## Milad Bayramı - İsanın dünyaya gəlməsi 25.12

**A ili, B ili, C ili**

Milad dövrü – 26.12. - Mqd. Stefan
Milad dövrü – 27.12. - Mqd. Yəhya
Milad dövrü – 28.12. - Mqd. Bet-Lexemdəki şəhidlər
Milad dövrü – 29.12. *(Oktava "5")*
Milad dövrü – 30.12. *(Oktava "6")*
Milad dövrü – 31.12. *(Oktava "7")*
Müqəddəs Ailənin Bayramı A B C
Milad bayramından sonra 2-ci Rəbb günü
**Milad dövrü - 1.1. Allah Anası Olan Məryəm**
Milad dövrü – 2.1.
Milad dövrü – 3.1.
Milad dövrü – 4.1.
Milad dövrü – 5.1.

## Epifaniya Bayramı

**(Rəbbin zühuru) – 6.1.** ABC

*əgər Epifaniya Rəbb günündədir*
Milad dövrü – 6.1
Milad dövrü – 7.1

*...ya Epifaniyadan sonra*
Milad dövrü - 7.1. *ya 1-ci gün*
Milad dövrü - 8.1. *ya 2-ci gün*
Milad dövrü - 9.1. *ya 3-cü gün*
Milad dövrü - 10.1. *ya 4-cü gün*
Milad dövrü - 11.1. *ya 5-ci gün*
Milad dövrü - 12.1. *ya 6-cı gün*

## İsa Məsihin Vəftiz Bayramı

(Epifaniyadan sonra Rəbb günü) A ili, B ili, C ili

# Advent dövrü

# 1-ci həftə

# ADVENT | 1ci həftə | Rəbb günü

## A ili

### Peyğəmbər Yeşayanın kitabından sözlər *Yeş 2:1-5*

Amots oğlu Yeşayanın Yəhuda və Yerusəlim barəsində gördükləri: Axır zamanda Rəbbin evi olan dağ dağların zirvəsində möhkəm duracaq, təpələrdən yuxarı ucalacaq. Bütün millətlər ona sarı gələcək. Çox xalqlar gəlib deyəcək: «Gəlin Rəbbin dağına, Yaqubun Allahının evinə qalxaq, qoy Rəbb bizə Öz yollarını öyrətsin, biz Onun rizləri ilə gedək».
Siondan Rəbbin təlimi, Yerusəlimdən Onun kəlamı yayılacaq. Millətlər arasında Rəbb hakim olacaq, çox xalqlar haqqında qərar çıxaracaq. Onlar qılınclarından kotan, nizələrindən isə dəryaz düzəldəcək. Millət millətə qarşı qılınc qaldırmayacaq, artıq dava etməyi öyrənməyəcək. Ey Yaqub nəsli, gəlin Rəbbin nurunda gəzək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

### Zəbur 122(121), 1-9.

**N: Rəbbin evinə sevinclə gedək!**

Mənə «Rəbbin evinə gedək» deyilərkən sevindim.
Ey Yerusəlim, sənin darvazalarından keçdim,
torpağına qədəm qoydum.

İsrail üçün verilən şəhadət naminə qəbilələr, Rəbbin qəbilələri
Rəbbin isminə şükür etmək üçün buranı ziyarət etməyə gəlirlər.
Hökm üçün burada taxtlar qurulub,
bu taxtlarda Davud sülaləsi oturub.

Hamı Yerusəlim üçün sülh diləsin:
«Qoy səni sevənlər dinc həyat sürsün!
Qoy qala divarlarının içində sülh olsun!
Qoy saraylarındakılar dinc yaşasın!»

Yoldaşlarıma, dostlarıma görə
«Səndə sülh olsun!» deyirəm.
Allahımız Rəbbin evinə görə
Sənə bəxtiyarlıq diləyirəm.

## Müqəddəs Paulun Romalılara məktubundan sözlər *Rom 13:11-14*

Qardaşlar! Zəmanəni, yuxudan ayılmaq vaxtınızın gəldiyini anlayaraq belə rəftar edin. Çünki indi xilasımız iman etdiyimiz vaxtda olduğundan daha yaxındır. Gecə keçdi, gündüz isə yaxınlaşdı; buna görə də qaranlığın əməllərini üzərimizdən ataq və nurun silahlarına bürünək. Gün işığında olduğu kimi ləyaqətlə həyat sürək; eyş-işrətə və sərxoşluğa, əxlaqsızlığa və pozğunluğa, münaqişəyə və qısqanclığa qapılmayaq. Əksinə, Rəbb İsa Məsihə bürünün və cismani təbiətinizin ehtiraslarına uymaq fikrində olmayın.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Ya Rəbb, bizə məhəbbətini göstər, bizi xilas et.

**Alleluya!**

## † İncil †

*Mt 24:37-44*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O vaxt İsa şagirdlərinə dedi: Nuhun günləri necə idisə, Bəşər Oğlunun zühuru da elə olacaq. Daşqından əvvəlki həmin günlərdə, Nuhun gəmiyə girdiyi günə qədər insanlar yeyib-içir, evlənir, ərə gedirdi. Daşqın gəlib hamısını aparana qədər bixəbər idilər. Bəşər Oğlunun zühuru da belə olacaq. O zaman tarladakı iki nəfərdən biri götürüləcək, o biri isə qalacaq. Dəyirmanda dən üyüdən iki qadından biri götürüləcək, o biri isə qalacaq. Ona görə də oyaq olun. Çünki Rəbbinizin hansı gün gələcəyini bilmirsiniz. Amma bunu bilin ki, əgər evin yiyəsi oğrunun gecə hansı saatda gələcəyini bilsəydi, oyaq qalıb evinin yarılmasına imkan verməzdi. Buna görə siz də hazır olun, çünki Bəşər Oğlu gözləmədiyiniz vaxt gələcək.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

Advent, Milad

# ADVENT | 1ci həftə | Rəbb günü

**B ili**

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 63:16-17. 64:1.3-8*

Ya Rəbb, Sənsən Atamız. İbrahim bizi tanımasa da, İsrail bizim kim olduğumuzu bilməsə də, Atamız Sənsən, ya Rəbb, əzəldən bəri adın «Bizi Satınalan»dır. Nə üçün, ya Rəbb, bizi yolundan azdırırsan, Səndən qorxmayaq deyə qəlblərimizi inadkar edirsən? Qullarının xatirinə, irsin olan qəbilələrinin xatirinə geri dön.
Ya Rəbb, kaş göyləri yarıb enəydin, dağlar hüzurunda sarsılardı! Sən gözləmədiyimiz əzəmətli işlər edəndə endin yer üzünə, dağlar önündə sarsıldı. Ona etibar edənlər üçün belə işlər edən Allahı, əzəldən bəri Səndən başqasını nə göz görüb, nə də qulaq eşidib. Sevinə-sevinə salehlik edəni, yollarında Səni xatırlayanları qarşılayırsan. Amma biz günaha batdıq, Sən qəzəbləndin. Beləcə xeyli vaxt yaşadıq, bəs biz necə xilas ola bilərik? Hamımız elə bil ki murdarlandıq, bütün saleh əməllərimiz murdar əskiyə bənzəyir. Hamımız yarpaq kimi soluruq, şər əməllərimiz bizi külək tək sovurub-aparır. Sənin adını çəkən yoxdur, Sənə bağlanmaq üçün can atan yoxdur. Çünki bizdən üz döndərdin, şər əməllərimizə görə bizi yox etdin. Yenə də, ya Rəbb, Sənsən Atamız: biz gilik, Sən isə dulusçu, biz hamımız Sənin əlinin işiyik.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 80(79):1-2. 14-15 . 17-18**

**N: Ey Allah, Üzündən nur saçıb bizi qurtar!**

Ey İsrailin Çobanı, qulaq as!
Ey keruvlar üstündə Oturan, nurunu saç!
Qoy qüvvətin oyansın, gəl, bizi qurtar!

Ey Ordular Allahı, dön, göydən bax,
bu tənəyi gör, qayğısına qal.
Axı bu fidanı sağ əlinlə əkmisən,
kökünə qüvvət vermisən.

Sənin əlin, sağ əlin Öz seçdiyin adamı –
qüvvət verdiyin bəşər oğlunu qorusun.
Qoy Səndən dönüb ayrılmayaq,
bizi elə yaşat ki, ismini çağıraq.

## Müqəddəs Paulun Korinflilərə 1-ci məktubundan sözlər 1 Kor 1:3-9

Qardaşlar! Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun! Allahın Məsih İsada sizə bəxş etdiyi lütfə görə sizin üçün həmişə Allahıma şükür edirəm. Çünki siz Məsihdə hər cəhətdən – hər cür sözdə və bilikdə zənginləşmisiniz. Buna görə Məsih haqqındakı şəhadətimiz sizdə təsdiqləndi. Bu səbəbdən siz Rəbbimiz İsa Məsihin zühurunu gözləyərək ruhani ənamdan heç bir korluq çəkmirsiniz. Rəbbimiz İsa Məsih Öz günündə nöqsansız olmanız üçün sizi sonadək qüvvətləndirəcək. Sizi Oğlu Rəbbimiz İsa Məsihlə şərik olmağa çağıran Allah sadiqdir.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Ya Rəbb, bizə məhəbbətini göstər, bizi xilas et.

**Alleluya!**

## † İncil †

*Mk 13:33-37*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Ehtiyatlı olun, oyaq olun. Çünki bilmirsiniz ki, o an nə vaxt gələcək. Bu, səyahətə çıxan bir adama bənzəyir. Evindən ayrılarkən qullarına səlahiyyət verir və hərəsinə bir iş tapşırır. Qapı nəzarətçisinə də əmr edir ki, oyaq olsun. Ona görə də oyaq olun. Çünki ev sahibinin nə vaxt – axşammı, gecə yarısımı, xoruz banlayandamı yaxud sübh tezdənmi gələcəyini bilmirsiniz. Qoy o qəfil gəlib sizi yatan görməsin. Sizə söylədiklərimi hamıya deyirəm, oyaq olun!»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 1ci həftə | Rəbb günü

## C ili

**Peyğəmbər Yeremyanın kitabından sözlər** *Yer 33:14-16*

Rəbb bəyan edir: "İsrail və Yəhuda nəslinə verdiyim xoş vədi yerinə yetirəcəyim günlər gəlir. O zaman, o günlər Davud üçün saleh bir pöhrə yetişdirəcəyəm. O, ölkədə ədalət və salehliklə davranacaq. O günlər Yəhuda xilas olacaq, Yerusəlim əmin-amanlıqda yaşayacaq. O, ‹Rəbb salehliyimizdir› deyə çağırılacaq".

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 25(24), 4-5. 8-9. 10+14**

**N: Rəbbin yolunda xeyirxahlıq və sədaqət var.**

Ya Rəbb, yollarını mənə göstər,
Öz yollarını mənə öyrət.
Məni haqq yolu ilə apar, həqiqətini mənə öyrət.
Məni qurtaran Allah Sənsən.

Rəbb xeyirxah və haqdır,
ona görə günahkara düz yol göstərir,
itaətkarları ədalət yolu ilə aparır,
Öz yolunu onlara öyrədir.

Kim Rəbbin əhdinə və göstərişlərinə bağlıdırsa,
Rəbb yolunda onun üçün xeyirxahlıq və sədaqət var.
Rəbb, Ondan qorxanlara sirrini açar,
onlara Öz əhdini öyrədər.

**Müqəddəs Paulun Saloniklilərə 1-ci məktubundan sözlər** *1 Sal 3:12- 4, 2*

Qardaşlar! Rəbb bir-birinizə və bütün insanlara olan məhəbbətinizi sizə olan məhəbbətimiz tək artırıb-çoxaltsın. Belə ki Rəbbimiz İsa bütün müqəddəsləri ilə birgə zühur edəcəyi vaxt Atamız Allahın önündə müqəddəslikdə nöqsansız olmağınız üçün ürəklərinizə qüvvə versin. Amin.
Qardaşlar, necə həyat sürmək və Allahı razı salmaq barədə bizdən təlimat aldınız. Nəhayət, Rəbb İsa naminə sizdən xahiş edir və yalvarırıq ki, belə həyat sürməkdə daha çox inkişaf edin. Rəbb İsanın səlahiyyəti ilə sizə hansı əmrləri verdiyimizi bilirsiniz.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Ya Rəbb, bizə məhəbbətini göstər, bizi xilas et.

**Alleluya!**

## † İncil †

*Lk 21:25-28. 34-36*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa Öz şagirdlərinə dedi: Günəşdə, ayda və ulduzlarda əlamətlər görünəcək. Yer üzündə dənizin və dalğaların gurultusundan millətlər çaşqınlıq içində qalıb əzab çəkəcək. İnsanlar qorxudan və dünya üzərinə gələn fəlakətləri gözləməkdən huşunu itirəcək, çünki səma cisimləri lərzəyə gələcək. O zaman onlar Bəşər Oğlunun bulud içində qüdrət və böyük izzətlə gəldiyini görəcək. Bu hadisələr yerinə yetməyə başladıqda başınızı qaldırın və yuxarı baxın, çünki satınalınmanız yaxınlaşır». Özünüzə fikir verin! Qoy ürəkləriniz eyş-işrət və sərxoşluqla, bu həyatın qayğıları ilə yüklənməsin. Qoy qiyamət günü bir tələ kimi üzərinizə qəflətən gəlməsin. Çünki o gün yer üzündə yaşayanların hamısının üstünə gələcək. Ona görə də baş verəcək bütün bu fəlakətlərdən qaçıb Bəşər Oğlunun önündə dura bilmək üçün hər an dua edərək ayıq olun».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 1ci həftə | 1ci gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 2:1-5*

Amots oğlu Yeşayanın Yəhuda və Yerusəlim barəsində gördükləri: Axır zamanda Rəbbin evi olan dağ dağların zirvəsində möhkəm duracaq, təpələrdən yuxarı ucalacaq. Bütün millətlər ona sarı gələcək. Çox xalqlar gəlib deyəcək: «Gəlin Rəbbin dağına, Yaqubun Allahının evinə qalxaq, qoy Rəbb bizə Öz yollarını öyrətsin, biz Onun rizləri ilə gedək».
Siondan Rəbbin təlimi, Yerusəlimdən Onun kəlamı yayılacaq. Millətlər arasında Rəbb hakim olacaq, çox xalqlar haqqında qərar çıxaracaq. Onlar qılınclarından kotan, nizələrindən isə dəryaz düzəldəcək. Millət millətə qarşı qılınc qaldırmayacaq, artıq dava etməyi öyrənməyəcək. Ey Yaqub nəsli, gəlin Rəbbin nurunda gəzək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

*A ilində isə, bu oxunur:*

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 4:2-6*

O gün Rəbbin pöhrəsi gözəl və əzəmətli olacaq, İsrail xalqından xilas olub sağ qalanlar torpağın verdiyi bəhrə ilə fəxr edib şərəflənəcəklər. Sionda, yəni Yerusəlimdə sağ qalanlara, orada qeyd olunub yaşayanlara «müqəddəs» deyiləcək. Xudavənd Sion qızlarının murdarlığını yuyan zaman ədalət və alov ruhu ilə Yerusəlimi günahlı qandan təmizləyəcək. Sonra Rəbb Sion dağının hər yanını, orada toplananların üzərini gündüz bulud və tüstü, gecə isə parlaq alovla örtəcək. Həqiqətən, əzəmətli şəhərin üzərinə örtük olacaq. Bu bir çardaq olub gündüz qızmar istidə kölgə olacaq, fırtına ilə yağışa qarşı sığınacaq və daldalanma yeri olacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 122(121), 1-9.**

**N: Rəbbin evinə sevinclə gedək!**

Mənə «Rəbbin evinə gedək» deyilərkən sevindim.
Ey Yerusəlim, sənin darvazalarından keçdim,
torpağına qədəm qoydum.

İsrail üçün verilən şəhadət naminə qəbilələr, Rəbbin qəbilələri
Rəbbin isminə şükür etmək üçün buranı ziyarət etməyə gəlirlər.
Hökm üçün burada taxtlar qurulub,
bu taxtlarda Davud sülaləsi oturub.

Hamı Yerusəlim üçün sülh diləsin:
«Qoy səni sevənlər dinc həyat sürsün!
Qoy qala divarlarının içində sülh olsun!
Qoy saraylarındakılar dinc yaşasın!»

**N: Rəbbin evinə sevinclə gedək!**

Yoldaşlarıma, dostlarıma görə
«Səndə sülh olsun!» deyirəm.
Allahımız Rəbbin evinə görə
Sənə bəxtiyarlıq diləyirəm.

**Alleluya!**

Ey Allah, Üzündən nur saçıb bizi qurtar!

**Alleluya!**

## † İncil †

*Mt 8:5-11*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa Kefernahuma girərkən bir yüzbaşı Ona yaxınlaşıb yalvardı: «Ya Rəbb, xidmətçim iflic olub evdə yatır, çox iztirab çəkir». İsa ona dedi: «Mən gəlib ona şəfa verəcəyəm». Yüzbaşı cavab verərək dedi: «Ya Rəbb, mən layiq deyiləm ki, Sən mənim evimə girəsən. Ancaq bir söz söylə, onda xidmətçim sağalacaq. Çünki mən də tabeçilik altında olan bir adamam, mənim də tabeçiliyimdə əsgərlər var. Birinə "Get!" deyirəm, o gedir, digərinə isə "Gəl!" deyirəm, o da gəlir. Quluma "Bunu et!" deyirəm, o da edir». Bunu eşidən İsa heyrət etdi. O ardınca gələn xalqa dedi: «Sizə doğrusunu deyirəm: İsraildə heç kimdə belə böyük iman görmədim. Sizə deyirəm ki, şərqdən və qərbdən bir çoxu gələcək və Səmavi Padşahlıqda İbrahimlə, İshaqla və Yaqubla bir süfrəyə oturacaq.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 1ci həftə | 2ci gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 11:1-10*

Yesseyin kötüyündən yeni bir fidan çıxacaq, kökündən çıxan bir budaq bar verəcək. Rəbbin Ruhu, Hikmət və anlayış ruhu, Öyüd-nəsihət və qüdrət ruhu, Bilik və Rəbb qorxusu ruhu Onun üzərində olacaq.
O, Rəbb qorxusunda sevinc tapacaq. Gözlərinin gördüyü ilə hökm etməyəcək, qulağı ilə eşitdiyinə görə qərar çıxarmayacaq. Lakin o, yoxsullara haqq ilə hökm edəcək, Yer üzündəki fəqirlərin işinə ədalətlə qərar çıxaracaq.
Dünyanı ağzının dəyənəyi ilə vuracaq.
Pis adamları ağzının nəfəsi ilə öldürəcək. O, belini salehliklə qurşayacaq, sədaqəti kəmər kimi taxacaq. O gün qurdla quzu bir yerdə yaşayacaq, bəbirlə çəpiş birgə yatacaq, dana, gənc aslan və bəslənmiş mal-qara yan-yana duracaq, onları balaca uşaq gəzdirəcək. İnəklə ayı bir yerdə otlayacaq, onların balaları bir yerdə yatacaq, şir də buğa tək saman yeyəcək. Südəmər körpə əfi ilanın yuvası üstündə oynayacaq, süddən kəsilmiş uşaq əlini gürzənin yuvasına salacaq. Müqəddəs dağımın heç bir yerində heç kimə zərər dəyməyəcək, heç bir kəs o birisini məhv etməyəcək. Çünki sular dənizi bürüdüyü kimi dünya Rəbbin biliyi ilə dolacaq. O gün Yesseyin kökü xalqlara bayraq olacaq, millətlər ona tərəf yönələcək məskunlaşdığı yer izzətlə dolacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 72(71), 1-2. 7-8. 12-13.17**

N: **Bu padşahın ömrü boyu salehlər çiçəklər.**

Ey Allah, padşaha ədalət ver,
şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə,
məzlumlara ədalətlə hakimlik etsin.

Bu padşahın ömrü boyu qoy salehlər çiçək açsın,
göydə ay durduqca qoy firavanlıq artsın.
Dənizdən-dənizə qədər,
fəratdan yer üzünün qurtaracağınadək hər yerdə hökmranlıq etsin.

Çünki o imdad deyib çağıran fəqirləri,
məzlumları, köməksizləri qurtarır.
Yoxsula, fəqirə rəhm edir,
fəqirlərin canlarını azad edir.

**N: Bu padşahın ömrü boyu salehlər çiçəklər.**

Qoy padşahın adı əbədi qalsın,
günəşin ömrü tək adı var olsun.
Onun vasitəsilə insanlar xeyir-dua alsın,
Onu bütün millətlər bəxtiyar adlandırsın!

**Alleluya!**

Bəşər Oğlu qüdrət və böyük izzətlə gəlib qullarının gözlərini nurlandıracaq.

**Alleluya!**

## † İncil †

*Lk 10:21-24*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa o vaxt Müqəddəs Ruhda şadlanıb dedi: «Ey yerin-göyün Sahibi olan Ata! Səndən razıyam ki, bu şeyləri müdrik və dərrakəli adamlardan gizlədib körpələrə agah etdin. Bəli, Ata! Çünki bu Sənin xoş niyyətin idi. Atam tərəfindən hər şey Mənim ixtiyarıma verildi. Oğulun kim olduğunu Atadan başqa heç kəs bilməz. Atanın kim olduğunu da Oğuldan və Oğulun agah etmək istədiyi şəxsdən başqa heç kəs bilməz». Sonra İsa şagirdlərə sarı dönüb onlara ayrıca dedi: «Nə bəxtiyardır o gözlər ki, sizin gördüklərinizi görür! Sizə bunu deyirəm: bir çox peyğəmbərlər və padşahlar sizin gördüklərinizi görmək istədilər, amma görmədilər, eşitdiklərinizi eşitmək istədilər, amma eşitmədilər».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 1ci həftə | 3cü gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 25:6-10a*

Bu dağda Ordular Rəbbi bütün xalqlar üçün zəngin yeməklərdən, gözəl şərablardan ibarət ziyafət düzəldəcək, orada ən ləziz yeməklər, ən dadlı şərablar olacaq. Bu dağda bütün xalqların üzərindəki duvağı, bütün millətlərin üstündə olan toxunma örtüyü götürəcək. Ölümü əbədi olaraq yox edəcək, Xudavənd Rəbb bütün adamların üzündən göz yaşlarını siləcək, bütün yer üzündən xalqının rüsvayçılığını götürəcək. Çünki Rəbb belə söylədi. O gün deyəcəklər: «Budur bizim Allahımız! Ona etibar etdik, O bizi qurtardı, Rəbb Odur, biz Ona ümid etdik. İndi isə O bizi qurtardığına görə sevinib şadlanaq!» Rəbbin əli bu dağın üstündə olacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 23(22), 1-6**

**N: Bütün ömrüm boyu Rəbbin evində yaşayacağam!**

Rəbb mənim çobanımdır, möhtac olmaram.
O məni yaşıl çəmənlərdə dincəldir,
sakit axan sular kənarında gəzdirir.

Məni yenə də canlandırır,
İsmi şərəfinə salehlik yolları ilə aparır.

Ölüm kölgəsinin dərəsində gəzsəm belə,
şərdən qorxmaram, çünki Sən mənimləsən,
Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir.

Düşmənlərimin qarşısında
Mənim üçün süfrə açırsan,
başıma ətirli yağ çəkirsən,
ağzınadək camımı doldurursan.

Bəli, bütün həyatım boyu
yaxşılıq, məhəbbət məni izləyir.
Bütün ömrüm boyu
Rəbbin evində yaşayacağam!

**Alleluya!**

Budur, Rəbb gəlir ki, öz xalqı qurtarıb azad etsin. Onu qarşılamağa çıxın!

**Alleluya!**

## † İncil †

*Mt 15:29-37*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa oradan çıxıb Qalileya gölünün sahilindən keçdi və dağın başına çıxıb orada oturdu. Onun yanına böyük bir izdiham gəldi və özləri ilə birlikdə topallar, korlar, şikəstlər, lallar və daha başqa bir çoxunu gətirdilər. Onları İsanın ayaqları yanına qoydular və İsa onlara şəfa verdi. Xalq görəndə ki lallar danışır, şikəstlər sağalır, topallar yeriyir və korlar görür, heyrətləndi və İsrailin Allahını izzətləndirdi. İsa şagirdlərini yanına çağırıb dedi: «Bu camaata yazığım gəlir, çünki üç gündür ki, yanımdadırlar və yeməyə heç nələri yoxdur. Onları evlərinə ac yola salmaq istəmirəm ki, yolda taqətdən düşməsinlər». Şagirdlər Ona dedilər: «Bu çöllükdə bu qədər camaatı doydurmaq üçün çörəyi haradan tapaq?» İsa onlardan soruşdu: «Neçə çörəyiniz var?» Onlar dedilər: «Yeddi və bir az da kiçik balığımız var». Onda İsa camaata əmr etdi ki, yerə otursunlar. Yeddi çörəklə balıqları götürdü və şükür edərək bölüb şagirdlərə, şagirdlər də camaata verdi. Hamı yeyib-doydu. Artıq qalan hissələri yığdılar, yeddi səbət doldu.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 1ci həftə | 4cü gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** **Yeş 26, 1-6**

O gün Yəhuda diyarında belə ilahi oxunacaq: «Qüvvətli şəhərimiz var, Allahın qurtuluşu şəhər üçün divarlar, səngərlər kimidir. Açın şəhərin darvazalarını, qoy sadiq qalan saleh millət içəri girsin. Ağlı Sənə yönəlmiş adamlara Sən kamil sülh verirsən, çünki onlar Sənə güvənir. Rəbbə həmişə güvənin, çünki Rəbb Allah əbədi Qayadır. O, yuxarıdan gedənləri alçaldar,
onların yaşadığı şəhəri dağıdar, yerlə yeksan edər. 6 O şəhər məzlumların
ayaqları, yoxsulların addımları altında tapdalanacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 118(117), 1. 8-9. 19-21. 25-27a**

**N: Rəbbə şükür edin, çünki məhəbbəti əbədidir!**

Rəbbə şükür edin, ona görə ki yaxşıdır,
çünki məhəbbəti əbədidir!
Rəbbə pənah gətirmək insana güvənməkdən yaxşıdır.
Rəbbə pənah gətirmək əsilzadələrə güvənməkdən yaxşıdır.

Salehlik darvazalarını üzümə açın,
qoy oradan keçib Rəbbə şükür edim.
Bu, Rəbbin darvazasıdır,
oradan saleh insanlar keçəcək.
Ya Rəbb, Sənə şükür edirəm,
çünki cavab verərək məni xilas etmisən!

Aman, ya Rəbb, bizi qurtar! Aman, ya Rəbb, bizə uğur göndər!
Rəbbin ismi ilə gələnə alqış olsun! Sizə Rəbbin evindən xeyir-dua veririk.
Rəbb Allahdır, O, üzərimizə nur saçdı.

**Alleluya!**

Tapmaq fürsəti olarkən Rəbbi axtarın, O yaxın ikən Onu çağırın.

**Alleluya!**

## † İncil †

*Mt 7:21. 24-27*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa danışmağa başlayıb şagirdlərinə dedi: Mənə "ya Rəbb, ya Rəbb" deyən hər kəs Səmavi Padşahlığa girməyəcək; lakin göylərdə olan Atamın iradəsini yerinə yetirən oraya girəcək. Beləliklə, bu sözlərimi eşidib onlara əməl edən hər kəs öz evini qaya üzərində quran ağıllı adama bənzəyir. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Amma ev uçmaz, çünki təməli qaya üzərində qurulub. Bu sözlərimi eşidib onlara əməl etməyən hər kəs isə öz evini qum üzərində tikən ağılsız adama bənzəyir. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Ev uçar və onun yıxılması bir müsibət olar».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 1ci həftə | 5ci gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 29:17-24*

Rəbb belə söyləyir: Livan tezliklə məhsuldar tarlaya, məhsuldar tarla isə meşəyə dönməyəcəkmi? O gün karlar kitabdakı sözləri eşidəcək, korların gözləri zülmət qaranlıqda görəcək. Fəqirlər Rəbdə sevinc tapacaq, yoxsullar İsrailin Müqəddəsində şadlanacaq. Çünki zülmkarlar yox olacaq, rişxəndçilər itib-batacaq. Pislik etməyə hazır olanlar məhv olacaq. Onlar başqasına böhtan atanlar, şəhər darvazasında hakimə tələ quranlardır, haqlının haqqını nahaq yerə təhrif edənlərdir. Buna görə də İbrahimi qurtaran Rəbb Yaqub nəslinə belə deyir: «Yaqub nəsli artıq utanmayacaq, üzləri qorxudan saralmayacaq. Əlimlə yaratdığım övladlarını Aralarında görəndə Adımı müqəddəs tutacaqlar, Yaqubun Müqəddəsini təqdis edəcəklər, İsrailin Allahından qorxacaqlar. Yolunu azanlar anlayacaq, gileylənənlər təlim öyrənəcək».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 27(26), 1. 4. 13-14**

**N: Rəbdir nurum, qurtuluşum!**

Rəbdir nurum, qurtuluşum!
Mən kimdən qorxum?
Rəbdir ömrümün qalası,
mən kimdən vahimələnim?

Rəbdən bir arzum, bir istəyim var:
Bütün ömrüm boyu Rəbbin evində yaşayım,
məbədində Rəbbin camalına baxım,
Ona pərəstiş edim.

Rəbbin xeyirxahlığını dirilər arasında görəcəyəm,
buna şübhəm yoxdur.
Rəbbə ümid bağla! Möhkəm və cəsarətli ol!
Rəbbə ümid bağla!

**Alleluya!**

Başər Oğlu qüdrət və böyük izzətlə gəlib qullarının gözlərini nurlandıracaq.

**Alleluya!**

## † İncil †

*Mt 9:27-31*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa oradan keçərkən iki kor adam Onun ardınca gələrək qışqırırdı: «Ey Davud Oğlu! Bizə rəhm elə!» Evə girdikdə korlar Onun yanına gəldilər. İsa onlara dedi: «Bunu etməyə qadir olduğuma inanırsınızmı?» Kor adamlar Ona dedilər: «Bəli, ya Rəbb». O zaman İsa onların gözlərinə toxunaraq dedi: «Sizə imanınıza görə olsun». Onların gözləri açıldı. İsa «baxın heç kim bu barədə bilməsin» deyə onlara ciddi tapşırdı. Onlar isə çıxıb Onun haqqındakı xəbəri o torpağın hər tərəfinə yaydılar.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 1ci həftə | 6cı gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 30: 19-21, 23-26*

İsrailin Müqəddəsi, Rəbb belə deyir:
Ey Yerusəlimdə yaşayanlar, ey Sion xalqı, siz artıq ağlamayacaqsınız, fəryad etdikdə Rəbb sizin üçün lütfkar olacaq, fəryadınızı eşidən kimi cavab verəcək. Rəbb çörəyi əzabla, suyu çətinliklə sizə verəcək, lakin O bir daha mürəbbinizi sizdən gizlətməyəcək, Onu gözünüzlə görəcəksiniz. Sağa ya sola azdığınız vaxt arxanızdan «Yol budur, gedin bu yolla» deyilən səsi eşidəcəksiniz. Rəbb yerə əkdiyiniz toxum üçün yağış verəcək, torpağın məhsulu bol və bərəkətli olacaq. O gün mal-qaranız geniş otlaqlarda otlayacaq. Torpağı şumlayan öküzlərlə eşşəklər kürəklə, yaba ilə sovrulmuş duzlu yem yeyəcək. O böyük məğlubiyyət günündə qalalar yerə çökəndə hər hündür dağdan, hər uca təpədən sellər axacaq. Rəbb Öz xalqının yaralarını sarıdığı gün, zərbəsi ilə açdığı yaralarına şəfa verən gün, ay işığı günəş işığı, günəşin işığı yeddi günün işığı kimi yeddi qat artıq parlayacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 147A(146), 1-2. 3-4. 5-6**

**N: Rəbb Allahı gözləyənlər nə bəxtiyardır!**

Rəbbə həmd edin! Allahımızı tərənnüm etmək nə qədər yaxşıdır!
O buna layiqdir, Ona həmdlər söyləmək xoşdur!
Rəbb Yerusəlimi bərpa edər,
İsrailin əsarətdə olanlarını yığıb-gətirər.

O, sınıq qəlblərə şəfa verər, yaralarını sarıyar.
Ulduzların sayını hesablar, hər birini öz adı ilə çağırar.

Xudavəndimiz əzəmətlidir, Qüvvəti çoxdur, dərrakəsi hədsizdir!
Rəbb məzlumları ayağa qaldırar, pisləri isə toz-torpaq içinə atar.

**Alleluya!**

Rəbdir hakim olan, Rəbdir qanunumuzu qoyan, Padşahımız Rəbdir,
Odur bizi qurtaran.

**Alleluya!**

## † İncil †

*Mt 9:35 – 10:1. 5-8*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa bütün şəhər və kəndləri gəzib-dolaşaraq onların sinaqoqlarında təlim öyrədir, Səmavi Padşahlığın Müjdəsini vəz edir, hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa verirdi. Lakin izdihamı görəndə İsanın onlara rəhmi gəldi, çünki çobansız qoyunlar kimi taqətsiz və çarəsiz idilər. O zaman İsa şagirdlərinə dedi: «Məhsul çoxdur, işçilərsə azdır. Buna görə də məhsulun Sahibinə yalvarın ki, Öz məhsulunu yığmaq üçün işçilər göndərsin».
İsa On İki şagirdini yanına çağırıb onlara natəmiz ruhlar üzərində səlahiyyət verdi ki, bunları qovsunlar, hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa versinlər. İsa həmin on iki nəfəri belə əmrlə göndərdi: «Başqa millətlərin arasına getməyin və Samariyalıların heç bir şəhərinə girməyin, amma İsrail xalqının itmiş qoyunlarının yanına gedin. Getdiyiniz yerlərdə "Səmavi Padşahlıq yaxınlaşıb" deyə vəz edin. Xəstələrə şəfa verin, ölüləri dirildin, cüzamlıları pak edin, cinləri çıxarın. Müftə aldınız, müftə verin.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Advent dövrü

# 2-ci həftə

# ADVENT | 2ci həftə | Rəbb günü

## A ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 11:1-10*

Yesseyin kötüyündən yeni bir fidan çıxacaq, kökündən çıxan bir budaq bar verəcək. Rəbbin Ruhu, Hikmət və anlayış ruhu, Öyüd-nəsihət və qüdrət ruhu, Bilik və Rəbb qorxusu ruhu Onun üzərində olacaq. O, Rəbb qorxusunda sevinc tapacaq. Gözlərinin gördüyü ilə hökm etməyəcək, qulağı ilə eşitdiyinə görə qərar çıxarmayacaq. Lakin o, yoxsullara haqq ilə hökm edəcək, yer üzündəki fəqirlərin işinə ədalətlə qərar çıxaracaq. Dünyanı ağzının dəyənəyi ilə vuracaq. Pis adamları ağzının nəfəsi ilə öldürəcək. O, belini salehliklə qurşayacaq, sədaqəti kəmər kimi taxacaq. O gün qurdla quzu bir yerdə yaşayacaq, bəbirlə çəpiş birgə yatacaq, dana, gənc aslan və bəslənmiş mal-qara yan-yana duracaq, onları balaca uşaq gəzdirəcək. İnəklə ayı bir yerdə otlayacaq, onların balaları bir yerdə yatacaq, şir də buğa tək saman yeyəcək. Südəmər körpə əfi ilanın yuvası üstündə oynayacaq, süddən kəsilmiş uşaq əlini gürzənin yuvasına salacaq. Müqəddəs dağımın heç bir yerində heç kimə zərər dəyməyəcək, heç bir kəs o birisini məhv etməyəcək. Çünki sular dənizi bürüdüyü kimi dünya Rəbbin biliyi ilə dolacaq. Əsirlər geri qayıdacaq O gün Yesseyin kökü xalqlara bayraq olacaq, millətlər ona tərəf yönələcək məskunlaşdığı yer izzətlə dolacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 72(71), 1-2. 7-8. 12-13. 17**

N: **Bu padşahın ömrü boyu salehlər çiçəklər.**

Ey Allah, padşaha ədalət ver,
şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə,
məzlumlara ədalətlə hakimlik etsin.

Bu padşahın ömrü boyu qoy salehlər çiçək açsın,
göydə ay durduqca qoy firavanlıq artsın.
Dənizdən-dənizə qədər,
fəratdan yer üzünün qurtaracağınadək hər yerdə hökmranlıq etsin.

Çünki o imdad deyib çağıran fəqirləri,
məzlumları, köməksizləri qurtarır.
Yoxsula, fəqirə rəhm edir,
fəqirlərin canlarını azad edir.

**N: Bu padşahın ömrü boyu salehlər çiçəklər.**

Qoy padşahın adı əbədi qalsın,
günəşin ömrü tək adı var olsun.
Onun vasitəsilə insanlar xeyir-dua alsın,
Onu bütün millətlər bəxtiyar adlandırsın!

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 15: 4-9*

Bundan əvvəl yazılanların hamısı bizi öyrətmək üçün yazıldı ki, dözümlə və Müqəddəs Yazıların ürək-dirəyi ilə ümidimiz olsun. Dözüm verən və ürəkləndirən Allah Məsih İsanın istəyinə uyğun olaraq sizə həmfikirlilik bəxş etsin ki, hamınız birlikdə və bir səslə Rəbbimiz İsa Məsihin Atası olan Allahı izzətləndirəsiniz. Buna görə də Məsih sizi qəbul etdiyi kimi siz də Allahın izzəti üçün bir-birinizi qəbul edin. Mən də bunu bildirirəm: Məsih Allahın haqlı olduğunu göstərmək üçün sünnətlilərin xidmətçisi oldu ki, əcdadlara verilən vədləri yerinə yetirsin; beləcə başqa millətlər də Allahın mərhəmətinə görə Onu izzətləndirsinlər. Necə ki yazılıb: «Buna görə millətlər arasında Sənə şükür edəcəyəm, İsminə tərənnüm söyləyəcəyəm».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin. Bütün bəşər Allahın xilasını görəcək”

**Alleluya!**

## † İncil †

*Mt 3:1-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O günlərdə Vəftizçi Yəhya Yəhudeya çölündə vəz edərək meydana çıxdı. O belə deyirdi: «Tövbə edin! Çünki Səmavi Padşahlıq yaxınlaşıb». Bu o adamdır ki, Yeşaya peyğəmbər onun barəsində demişdi: «Səhrada nida edənin səsi gəlir: "Rəbbin yolunu hazırlayın, Onun keçəcəyi yerləri düz edin"». Yəhya dəvə yunundan paltar geymiş, belinə dəri qurşaq bağlamışdı, yeməyi çəyirtkə və çöl balı idi. Yerusəlim sakinləri, bütün Yəhudeya diyarından olanlar və İordan ətrafında yaşayanlar Yəhyanın yanına gəlirdi. Onlar günahlarını etiraf edərək onun tərəfindən İordan çayında vəftiz olunurdu. Fariseylər və sadukeylərdən çoxunun vəftiz olmaq üçün onun yanına gəldiyini görən Yəhya onlara belə dedi: «Ey gürzələr nəsli! Üzərinizə gələn qəzəbdən canınızı qurtarmağı sizin beyninizə kim yeridib? İndi isə tövbəyə layiq bəhrə verin. Ürəyinizdə "atamız İbrahimdir" deyə düşünməyin. Mən sizə deyirəm: Allah bu daşlardan İbrahimə övlad yaratmağa qadirdir. Artıq balta ağacların dibində yatır. Beləliklə, yaxşı bəhrə verməyən hər ağac kəsilir və oda atılır. Mən sizi tövbəniz üçün su ilə vəftiz edirəm, amma məndən sonra Gələn məndən daha qüdrətlidir. Mən Onun çarıqlarını daşımağa belə, layiq deyiləm. O sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək. Onun kürəyi əlindədir və xırmanını sovuracaq, Öz taxılını anbara toplayacaq. Küləşi isə sönməz odda yandıracaq».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 2ci həftə | Rəbb günü

**B ili**

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 40:1-5. 9-11*

Allahınız deyir: «Təsəlli verin xalqıma, təsəlli verin! Yerusəlim sakinlərinə təskinlik verən sözlər söyləyin! Əsirlik dövrünün qurtarmasını, təqsirlərinin əvəzinin verilməsini, bütün günahlarına görə Rəbbin əlindən ikiqat cəza aldıqlarını onlara bəyan edin». Nida edənin səsi gəlir: «Səhrada Rəbbin yolunu hazırlayın, çöldə Allahımızın keçəcəyi yerləri hamar edin. Hər dərə yüksəldiləcək, hər dağ və təpə aşağı endiriləcək, yoldakı əyriliklər düzələcək, kələ-kötür yerlər hamar ediləcək. Rəbbin əzəməti aşkar olunacaq, bütün bəşər bunu birlikdə görəcək». Bu sözlər Rəbbin ağzından çıxıb.
Ey Siona müjdə gətirən, yüksək dağa çıx! Ey Yerusəlimə xoş xəbər gətirən, ucalt səsini, car çək, qaldır səsini, qorxma. Yəhuda şəhərlərinə de: «Budur Allahınız!» Budur, Xudavənd Rəbb Öz qüvvəsi ilə gəlir, O, qüdrətlə hökm edəcək, mükafatı Onunladır, ənamı önündədir. O Öz sürüsünü çoban kimi otaracaq, quzuları qucağına alacaq, sinəsində gəzdirəcək, sağmal heyvanların qayğısını çəkib otaracaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 85(84), 8-10. 11-12. 13-14**

**N: Ya Rəbb, bizə məhəbbətini göstər!**

Rəbb Allah nə söyləsə, dinləyirəm.
Sözləri xalqına, möminlərinə sülh bəyan edər ki,
onlar öz cəhalətlərinə dönməsinlər.
Bəli, Rəbb Ondan qorxanları qurtarmaq üçün,
Ehtişamını ölkəmizdə saxlamaq üçün yaxınlaşır!

Məhəbbətlə həqiqət bir-birinə qovuşacaq,
salehliklə əmin-amanlıq bir-biri ilə öpüşəcək.
Həqiqət yerdə bitib-göyərəcək,
ədalət göylərdən baxacaq.

Bəli, Rəbb ən yaxşı şeyləri göndərəcək,
torpağımız bol məhsul verəcək.
Ədalət Rəbbin önündə addımlayar,
qədəmləri üçün cığır salar.

**Müqəddəs Peterin 2-ci məktubundan sözlər** *2Pt 3:8-14*

Sevimlilər, bu bir şeyi yadınızdan çıxarmayın ki, Rəbb üçün bir gün min il kimidir, min ilsə bir gün kimidir. Bəziləri bunu gecikmə sayar, amma Rəbb vədini yerinə yetirməkdə gecikməz, lakin sizə görə səbir edir. Çünki O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir. Rəbbin günü isə oğru kimi gələcək. O gün göylər böyük gurultu ilə aradan qalxacaq. Ünsürlər yanaraq məhv olacaq. Yer üzü və onun üstündə hər şey ifşa olunacaq. Hər şey belə məhv olacaqsa, siz nə cür insanlar olmalısınız? Müqəddəs həyat sürməli, mömin olmalısınız. Allahın zühur gününü gözləyərək tezləşdirməlisiniz. O gün göylər od tutub məhv olacaq və ünsürlər yanıb əriyəcək. Amma biz Allahın vədinə əsasən salehliyin sakin olacağı yeni göyləri və yeni yeri gözləyirik.
Buna görə, sevimlilər, madam ki bunları gözləyirsiniz, Allahın önündə ləkəsiz və nöqsansız olaraq sülh içində yaşamağa səy göstərin.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin. Bütün bəşər Allahın xilasını görəcək"
**Alleluya!**

**† İncil †** *Mk 1:1-8*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Allahın Oğlu İsa Məsihin Müjdəsinin başlanğıcı. Yeşaya peyğəmbərin kitabında belə yazılıb: «Budur, Sənin önündə Öz elçimi göndərirəm. O Sənin yolunu hazırlayacaq. Səhrada nida edənin səsi gəlir: "Rəbbin yolunu hazırlayın, Onun keçəcəyi yerləri düz edin"».
Yazıldığı kimi vəftiz edən Yəhya çöldə meydana çıxdı. O, insanların günahlarının bağışlanması üçün onların tövbə edib vəftiz olunmasını vəz edirdi. Bütün Yəhudeya diyarından olanlar və Yerusəlim sakinlərinin hamısı onun yanına gəlirdi. Onlar günahlarını etiraf edərək onun tərəfindən İordan çayında vəftiz olunurdular. Yəhya dəvə yunundan paltar geymiş, belinə dəri qurşaq bağlamışdı, çəyirtkə və çöl balı yeyirdi. Yəhya belə vəz edirdi: «Məndən sonra məndən daha Qüdrətlisi gəlir. Mən əyilib Onun çarıqlarının bağını açmağa belə, layiq deyiləm. Mən sizi su ilə vəftiz etdim, amma O sizi Müqəddəs Ruhla vəftiz edəcək».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 2ci həftə | Rəbb günü

**C ili**

**Peyğəmbər Baruxun kitabından sözlər** *Bar 5:1-9*

Ey Yerusəlim! Öz kədər və kin libasını əynindən çıxart, Allahdan olan gözəllik izzətini əbədi olaraq geyin. Allahdan olan salehlik libasına bürün, Əbədi Olanın izzət tacını başına qoy. Çünki Allah səma altında olan hər kəsə sənin parlaqlığını göstərəcək. Allahın əbədi olaraq sənə verdiyi ad belə olacaq: «Salehlikdən gələn sülh və möminliyinizzəti». Qalx, Yerusəlim, hündür yerdə dayanaraq üzünü şərqə tərəf tutub, Müqəddəs Olanın sözü ilə qərbdən şərqə qədər hər tərəfdən toplanmış övladlarına bax, Allahın onları yada saldığına sevinirlər. Onlar sənin içindən piyada, düşmənləri tərəfindən təqib olunaraq çıxdılar, amma Allah onları sənin içinə Padşah taxtında izzətlə gətirəcək. İsrailin möhkəm addımla, Allahın izzəti ilə irəliləməsindən ötrü Allah hər uca dağın və əbədi təpənin alçalmasını əmr etdi, Yer üzünün eyni səviyyədə olması üçün vadilərin doldurulmasını, meşənin və hər xoş ətirli ağacın Allahın əmri ilə İsrailin üzərinə kölgə salmasını buyurdu. Allah Özündən olan mərhəmət və salehliklə sevinc içində, Öz izzətinin işığı ilə İsrailin önündə gedəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 126(125), 1-6**

**N: Rəbb bizim üçün böyük işlər görüb.**

Rəbb Siona bəxtəvər günlərini qaytaranda
bizə röya kimi gəldi.
Dodaqlarımızdan gülüş tökülürdü,
dilimizdən sevinc harayı yüksəlirdi.

Millətlər öz aralarında belə deyirdi:
«Rəbb onlar üçün böyük işlər görüb».
Selləri Negevə qaytardığın kimi,
ya Rəbb, o bəxtəvər günləri bizə qaytar.

Göz yaşı ilə əkənlər
sevinc harayı çəkərək biçəcək.

Ağlaya-ağlaya toxum torbasını daşıyıb-gedən
sevinc harayı ilə dərzləri daşıya-daşıya gələcək.

**Müqəddəs Paulun Filipililərə məktubundan sözlər** *Flp 1:4-6. 8-11*

Qardaşlar! Həmişə hamınız üçün hər bir diləyimdə sevinə-sevinə dua edirəm. Çünki ilk gündən indiyədək Müjdəni yaymaqda şərik oldunuz. Əminəm ki, sizdə xeyirli işə başlayan Allah Məsih İsanın zühur edəcəyi günədək bunu başa çatdıracaq. Allah şahidimdir ki, Məsih İsanın duyğusu ilə hər birinizin həsrətini çəkirəm. Dua edirəm ki, məhəbbətiniz bilik və hər cür idrak baxımından get-gedə daha çox artsın, siz Məsihin zühur edəcəyi gün pak və nöqsansız, Allahın izzəti və mədhi üçün İsa Məsihdən gələn salehlik bəhrələri ilə dolu olmaq üçün ən ali dəyərləri ayırd edə biləsiniz.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin. Bütün bəşər Allahın xilasını görəcək"

**Alleluya!**

## † İncil †

*Lk 3:1-6*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Qeysər Tiberinin hakimiyyətinin on beşinci ili idi. O dövrdə Ponti Pilat Yəhudeyanın valisi idi. Hirod Qalileyada, qardaşı Filip İtureya və Traxonitis bölgəsində, Lisaniya Abileniyada hökmranlıq edirdi. Xananla Qayafa baş kahin idi. O vaxt çöldə Zəkəriyyənin oğlu Yəhyaya Allahın kəlamı nazil oldu. O da İordan çayının ətrafındakı bütün bölgəni dolaşaraq insanların öz günahlarının bağışlanması üçün tövbə edib vəftiz olunmasını vəz edirdi. Necə ki Yeşaya peyğəmbərin kitabında yazılıb: «Səhrada nida edənin səsi gəlir: "Rəbbin yolunu hazırlayın, Onun keçəcəyi yerləri düz edin. Hər dərə yüksəldiləcək, hər dağ və təpə aşağı endiriləcək, yoldakı əyriliklər düzələcək, kələ-kötür yerlər hamar ediləcək. Bütün bəşər Allahın xilasını görəcək"».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 2ci həftə | 1ci gün



**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 35:1-10*

Səhra və quru torpaq sevinəcək, çöl şadlanacaq, nərgiz kimi çiçəklənəcək. Hər yan gül açacaq, şadlanacaq, sevincdən nəğmə oxuyacaq. Livanın gözəlliyi, şan-şöhrəti, Karmelin və Şaronun cah-calalı ona veriləcək. Hamı Rəbbin izzətini, Allahımızın əzəmətini görəcək. Zəif əllərə qüvvət verin, əsən dizləri möhkəmləndirin. Ürəklərində qorxanlara deyin: «Möhkəm olun, qorxmayın! Budur, Allahınız İntiqam almaq, düşmənlərinizdən qisas almaq üçün gəlir. O gəlib sizə qurtuluş verəcək!» O vaxt korların gözləri, karların qulaqları açılacaq, axsaqlar ceyran kimi hoppanacaq, lalların dili sevinclə nəğmə deyəcək, çünki səhrada bulaqlar fışqıracaq, quru torpaqda çaylar axacaq. Qızğın qum hovuza, susuz torpaq su bulaqlarına çevriləcək. Çaqqalların yaşadığı yerlərdə qamış və qarğı bitəcək. Orada bir yol olacaq, o yol «Müqəddəs yol» adlanacaq. Murdar adam oradan keçməyəcək, o yol qurtuluş tapanların yoludur. Ora ilə gedənlərdən heç biri, hətta ağılsızlar da keçsələr, əsla yolunu azmayacaq. Orada şirlər olmayacaq, yırtıcı heyvanlar o yola çıxmayacaq, onlara orada rast gəlməyəcəklər. Ancaq qurtuluş tapanlar o yol ilə gəzəcək. Rəbbin satın alınmış adamları qayıdacaq, sevinclə nəğmə deyərək Siona gələcək. Üzlərində əbədi sevinc olacaq, onlar fərəh və şadlıq tapacaq, kədər və qəm-qüssə yox olacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 85(84), 8-10. 11-12. 13-14**

**N: Budur, Allahımız gəlib bizə qurtuluş verəcək!**

Rəbb Allah nə söyləsə, dinləyirəm.
Sözləri xalqına, möminlərinə sülh bəyan edər ki,
onlar öz cəhalətlərinə dönməsinlər.
Bəli, Rəbb Ondan qorxanları qurtarmaq üçün,
Ehtişamını ölkəmizdə saxlamaq üçün yaxınlaşır!

Məhəbbətlə həqiqət bir-birinə qovuşacaq,
salehliklə əmin-amanlıq bir-biri ilə öpüşəcək.
Həqiqət yerdə bitib-göyərəcək,
ədalət göylərdən baxacaq.

**N: Budur, Allahımız gəlib bizə qurtuluş verəcək!**

Bəli, Rəbb ən yaxşı şeyləri göndərəcək,
torpağımız bol məhsul verəcək.
Ədalət Rəbbin önündə addımlayar,
qədəmləri üçün cığır salar.

**Alleluya!**

Budur, dünyanın Padşahı gəlir, o bizi azad edəcək.

**Alleluya!**

## † İncil †

*Lk5:17-26*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bir gün İsa təlim öyrədirdi. Qalileyanın və Yəhudeyanın bütün kəndlərindən və Yerusəlimdən gələn fariseylər və Qanun müəllimləri Onun yanında oturmuşdu. Onda şəfa vermək üçün Rəbbin qüdrəti var idi. Bu vaxt bir neçə nəfər yataqda yatan bir iflic adamı gətirdi. Onlar bu adamı içəri gətirib İsanın önünə qoymağa çalışırdılar. Amma böyük izdihama görə iflici İsanın yanına gətirə bilmirdilər. Ona görə də evin damına çıxıb kirəmitləri söküb açdıqları yerdən xəstəni yatağı ilə birgə aşağı endirdilər və ortalığa, İsanın qarşısına qoydular. İsa onların imanını görüb dedi: «Dostum, günahların bağışlandı». İlahiyyatçılar və fariseylər belə düşünməyə başladılar: «Küfr danışan bu Adam kimdir ki? Tək Allahdan başqa günahları kim bağışlaya bilər?» İsa onların nə fikirləşdiyini dərk edib cavab verdi: «Niyə ürəyinizdə belə düşünürsünüz? Bax hansı daha asandır? "Günahların bağışlandı" deməkmi, yoxsa "Qalx, yeri!" demək? Lakin siz bilin ki, Bəşər Oğlunun yer üzündə günahları bağışlamaq səlahiyyəti var» və iflicə dedi: «Sənə deyirəm, qalx, yatağını götür, evinə get!» Xəstə dərhal hamının qarşısında ayağa qalxdı, yatağını götürdü və Allahı izzətləndirərək evinə getdi. Hamı mat qaldı və Allahı izzətləndirib böyük qorxu içində dedi: «Bu gün möcüzəli işlər gördük!»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 2ci həftə | 2ci gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 40:1-11*

Allahınız deyir: «Təsəlli verin xalqıma, təsəlli verin! Yerusəlim sakinlərinə təskinlik verən sözlər söyləyin! Əsirlik dövrünün qurtarmasını, təqsirlərinin əvəzinin verilməsini, bütün günahlarına görə Rəbbin əlindən ikiqat cəza aldıqlarını onlara bəyan edin».
Nida edənin səsi gəlir: «Səhrada Rəbbin yolunu hazırlayın, çöldə Allahımızın keçəcəyi yerləri hamar edin. Hər dərə yüksəldiləcək, hər dağ və təpə aşağı endiriləcək, yoldakı əyriliklər düzələcək, kələ-kötür yerlər hamar ediləcək. Rəbbin əzəməti aşkar olunacaq, bütün bəşər bunu birlikdə görəcək». Bu sözlər Rəbbin ağzından çıxıb. Səs deyir: «Bəyan et!» «Nəyi bəyan edim?» deyə soruşdum. «Bütün bəşər ota bənzər, Onun bütün gözəlliyi çöl çiçəyi kimidir. Rəbb nəfəsini üzərinə üfürəndə ot quruyar, çiçək solar, həqiqətən, bu xalq ota oxşar. Ot quruyar, çiçək solar, amma Allahımızın sözü əbədi qalar».
Ey Siona müjdə gətirən, yüksək dağa çıx! Ey Yerusəlimə xoş xəbər gətirən, ucalt səsini, car çək, qaldır səsini, qorxma. Yəhuda şəhərlərinə de: «Budur Allahınız!» Budur, Xudavənd Rəbb Öz qüvvəsi ilə gəlir, O, qüdrətlə hökm edəcək, mükafatı Onunladır, ənamı önündədir. O Öz sürüsünü çoban kimi otaracaq, quzuları qucağına alacaq, sinəsində gəzdirəcək, sağmal heyvanların qayğısını çəkib otaracaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 96(95), 1-2. 3+10. 11-12. 13**

N: **Budur, Xudavənd Rəbb Öz qüvvəsi ilə gəlir.**

Rəbbə yeni bir ilahi oxuyun,
ey bütün dünya, Rəbbə ilahi oxuyun,
İsminə alqış edin, Rəbbə ilahi oxuyun,
Xilaskar olduğunu hər gün müjdələyin.

Ehtişamını millətlərə elan edin,
xariqələrini bütün xalqlara bəyan edin!
Millətlərə belə elan edin: «Rəbb hökmranlıq edir,
O, dünyanı sarsılmaz və möhkəm qurub,
O, insafla xalqların hökmünü verəcək».



Advent, Milad

Göylər sevinsin, yer üzü şad olsun,
dənizin və dənizdəki canlıların səsi ucalsın,
çöllər və çöldə yaşayanlar fərəhlənsin,
meşədəki bütün ağaclar mədh söyləsin
Rəbbin hüzurunda!

N: **Budur, Xudavənd Rəbb Öz qüvvəsi ilə gəlir.**

O gəlir, dünyanın hökmünü vermək üçün gəlir,
Yer üzünün hökmünü ədalətlə,
xalqların hökmünü həqiqətlə verəcək!

**Alleluya!**

Rəbbin günü yaxınlaşır, Rəbb gəlir ki, bizi xilas etsin.

**Alleluya!**

## † İncil †

*Mt 18:12-14*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa şagirdlərinə dedi: Siz necə deyirsiniz? Bir adamın yüz qoyunu varsa və onlardan biri yolunu azarsa, doxsan doqquzunu dağlarda qoyub yolunu azan qoyunu axtarmağa getməzmi? Sizə doğrusunu deyirəm: əgər onu tapa bilərsə, yolunu azmayan doxsan doqquz qoyun üçün sevindiyindən artıq onun üçün sevinər. Beləcə bu kiçiklərdən birinin belə, həlak olması göylərdə olan Atanızın iradəsi deyil.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 2ci həftə | 3cü gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 40:25-31*

«Bəs Məni onda kimə bənzədərsiniz ki, Mən ona oxşayım?» deyir Müqəddəs Olan. Başınızı göylərə qaldırıb baxın: Bunları kim yaratdı? Rəbb göy cisimlərini sıraya düzüb çıxarar, onların hamısını adları ilə çağırar. Bol qüvvəsinə, böyük qüdrətinə görə onlardan heç biri əskik olmaz. Ey Yaqub nəsli, ey İsrail! Nə üçün «Rəbb başıma gələnləri bilmir, Allahım mənim haqqıma diqqətsizlik edir?» deyib gileylənirsən? Məgər sən bilmirsən? Məgər eşitməmisən? Rəbb əbədi Allahdır, Odur bütün dünyanı yaradan. Nə yorulur, nə taqətdən düşür, Onun ağlı dərkedilməzdir. O, yorğunlara güc verər, taqətsizlərin qüvvətini artırar. Hətta cavanlar yorular, taqətdən düşər, igidlər əldən düşüb titrəyər. Rəbbə ümid bağlayanlarsa yeni qüvvət alar, qanad açıb qartal kimi yüksəklərə uçar, qaçanda taqətdən düşməzlər, yol gedib yorulmazlar.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 103(102), 1-4. 8+10**

**N: Rəbbə alqış et, ey könlüm!**

Rəbbə alqış et, ey könlüm,
ey bütün varlığım, Onun müqəddəs adına alqış et!
Rəbbə alqış et, ey könlüm,
unutma etdiyi yaxşılıqları.

Odur bütün təqsirlərini əfv edən,
bütün xəstəliklərinə şəfa verən.
Odur həyatını məzara düşməkdən qurtaran,
məhəbbətin, mərhəmətin tacını başına qoyan.

Rəbb rəhmli və lütfkardır,
hədsiz səbirli və bol məhəbbətlidir.
Bizimlə günahlarımıza görə davranmaz,
təqsirlərimizin əvəzini çıxmaz.

**Alleluya!**

Budur, Rəbb gəlir ki, bizi xilas etsin. Onu axtaranlar nə bəxtiyardır!
**Alleluya!**

## † İncil †

*Mt 11:28-30*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa dedi: Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm. Mənim boyunduruğumu üzərinizə götürün və Məndən öyrənin. Çünki Mən həlim və qəlbən itaətkaram. Bununla canınıza rahatlıq taparsınız. Çünki Mənim boyunduruğum rahat və yüküm yüngüldür».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 2ci həftə | 4cü gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 41:13-20*

Rəbb deyir: Sənin sağ əlindən tutub «Qorxma,
sənə kömək edəcəyəm» deyən Allahın Rəbb Mənəm.
«Ey torpaq qurdu olan Yaqub nəsli, ey İsrail əhli, qorxma! Sənə kömək edəcəyəm» Rəbb bəyan edir. Səni Satınalan İsrailin Müqəddəsidir. Budur, səni təzə, dişləri iti vəl edəcəyəm. Sən dağları döyüb əzəcəksən, təpələri saman çöpü kimi sovuracaqsan. Sən onları sovurduqda külək aparacaq, qasırğa onları dağıdacaq, sənsə Rəbdə sevinəcəksən, İsrailin Müqəddəsi ilə öyünəcəksən. Məzlumlar və fəqirlər su axtarıb tapmayanda dilləri susuzluqdan quruyur. Mən Rəbb onlara cavab verəcəyəm. Mən İsrailin Allahı onları tərk etməyəcəyəm. Çılpaq təpələrdən çaylar, vadilərdə su mənbələri açacağam. Səhranı gölməçəyə, quraq torpağı bulaqlara çevirəcəyəm. Səhrada sidr, əbrişim, mərsin və zeytun əkəcəyəm. Quru torpaqda şam, çinar və sərv ağacını bir sırada salacağam. Beləcə insanlar görüb bilsin, birgə fikirləşib başa düşsün: Bunu edən Rəbbin əlidir, bunu yaradan İsrailin Müqəddəsidir.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 145(144), 1+9. 10-13**

**N: Rəbb lütfkar və rəhmlidir, hədsiz səbirli və bol məhəbbətlidir.**

Ey Padşahım olan Allahım, Səni yüksəldəcəyəm,
İsminə sonsuza qədər alqış edəcəyəm.
Rəbb hamıya xeyirxahlıq edər,
yaratdıqlarının hər birinə mərhəmət göstərər.

Ya Rəbb, bütün yaratdıqların Sənə şükür edəcək,
möminlərin Sənə alqış edəcək.
Padşahlığının əzəmətindən deyəcəklər,
Qüdrətindən danışacaqlar.

Qoy bəşər övladları Sənin qüdrətini,
Padşahlığının izzətini, əzəmətini bilsin.
Sənin padşahlığın əbədi padşahlıqdır,
Səltənətin nəsildən-nəslə qədər uzanır.

**Alleluya!**

Ey göylər, yuxarıdan damlayın, qoy buludlar salehlik yağdırsın, torpaq açılsın, xilas bəhrəsini yetişdirsin.

**Alleluya!**

## † İncil †

*Mt 11:11-15*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa xalqa dedi: Sizə doğrusunu deyirəm: qadından doğulanlar arasında Vəftizçi Yəhyadan daha üstün olan meydana çıxmayıb. Amma Səmavi Padşahlıqda ən kiçik olan ondan üstündür. Vəftizçi Yəhyanın günlərindən indiyə qədər Səmavi Padşahlıq zorla alınır və zor işlədənlər onu ələ keçirir. Çünki bütün Peyğəmbərlər və Qanun Yəhyaya qədər peyğəmbərlik etdi. Əgər onu qəbul etmək istəyirsinizsə, gəlməli olan İlyas odur. Qulağı olan eşitsin!

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 2$^{ci}$ həftə | 5$^{ci}$ gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 48:17-19*

Səni Satınalan, Rəbb, İsrailin Müqəddəsi belə deyir: «Allahın Rəbb Mənəm, Mən sənin xeyrinə səni öyrədirəm, getdiyin lazım olan yolla səni aparıram. Ah, kaş ki sən Mənim əmrlərimə diqqət yetirəydin! Onda əmin-amanlığın heç vaxt qurumayan çay kimi axardı, salehliyin dəniz dalğaları kimi olardı. Nəslin dəniz qumu kimi, övladların qum dənələri kimi olardı. Adları qarşımda nə pozulardı, nə də silinərdi».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Zəbur 1, 1-4. 6

N: **Salehlərin üstünə nur tökülər, ürəyidüz olanların üstünə sevinc səpilər.**

Pislərin məsləhəti ilə getməyən,
günahkarların yolunda dayanmayan,
rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır!
O ancaq Rəbbin Qanunundan zövq alar,
gecə-gündüz bu təlimatı dərin düşünər.

Axar sular kənarında əkilən ağac kimi
barını mövsümündə verər,
yarpağı solmaz,
etdiyi hər işdə uğur qazanar.

Pis adamlarsa belə deyil,
onlar yelin sovurduğu saman çöpünə bənzəyər.
Çünki Rəbb salehlərin yolunu qoruyur,
pislərinsə yolu onları ölümə aparır.

**Alleluya!**

Budur, bəy gəlir, onu qarşılamağa çıxın! O, Sülh Hökmdarıdır.

**Alleluya!**

## † İncil †

*Mt 11:16-19*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa xalqa dedi: Bəs bu nəsli nəyə bənzədim? O, bazar meydanlarında oturan və “Biz sizə tütək çaldıq, sizsə oynamadınız. Biz mərsiyələr oxuduq, sizsə matəm tutmadınız” deyib başqalarını səsləyən uşaqlara bənzəyir. Çünki Yəhya gəldikdə nə çörək yeyir, nə şərab içirdi və onlar deyirlər: “O, cinə tutulmuşdur”. Bəşər Oğlu gəldikdə yeyib-içdi və onlar deyirlər: “Bu qarınqulu və əyyaş adama baxın! Vergiyığanlara və günahkarlara dost oldu!” Amma hikmət öz əməlləri ilə təsdiq olunur».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 2$^{ci}$ həftə | 6$^{cı}$ gün

**Sirax kitabından sözlər** *Sirax 48:1-4. 9-11*

Bundan sonra İlyas peyğəmbər alov kimi ortaya çıxdı, sözü çıraq kimi alışırdı. O, xalqın üzərinə qıtlıq gətirdi, Allahın təəssübünü çəkərək xalqından olanların sayının azalmasına bais oldu. Rəbbin sözü ilə göyləri bağladı, həm də üç dəfə yerə od endirdi. Ey İlyas, öz möcüzələrinlə necə də izzətli idin! Kim sənin kimi öyünə bilər? Od qasırğasında, odlu atlar arabasında yuxarı aparıldın. Sən müəyyən vaxtda xəbərdarlıq üçün təyin edilmisən ki, qəzəbin hiddətə çevrilməsindən qabaq onu dayandırasan, atanın ürəyini oğula tərəf döndərəsən, Yaqubun qəbilələrini yenidən bərpa edəsən. Nə bəxtiyardır səni görənlər və məhəbbətdə uyuyanlar. Qoy biz də o vaxta qədər yaşaya bilək!

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 80(79), 1-2. 14-15 . 17-18**

**N: Ey Allah, Üzündən nur saçıb bizi qurtar!**

Ey İsrailin Çobanı, qulaq as!
Ey keruvlar üstündə Oturan, nurunu saç!
Qoy qüvvətin oyansın, gəl, bizi qurtar!

Ey Ordular Allahı, dön, göydən bax,
bu tənəyi gör, qayğısına qal.
Axı bu fidanı sağ əlinlə əkmisən,
kökünə qüvvət vermisən.

Sənin əlin, sağ əlin Öz seçdiyin adamı –
qüvvət verdiyin bəşər oğlunu qorusun.
Qoy Səndən dönüb ayrılmayaq,
bizi elə yaşat ki, ismini çağıraq.

**Alleluya!**

Rəbbin yolunu hazırlayın, Onun keçəcəyi yerləri düz edin.
Bütün bəşər Allahın xilasını görəcək”».

**Alleluya!**

## † İncil †

*Mt 17:10-13*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Dağdan enərkən şagirdlər İsadan soruşdular: «Elə isə, niyə ilahiyyatçılar deyirlər ki, əvvəlcə İlyas gəlməlidir?» İsa onlara cavab verdi: «Düzdür, İlyas gəlib hər şeyi yoluna qoymalıdır. Lakin sizə deyirəm: artıq İlyas gəldi və onu tanımadılar, lakin nə istədilərsə, onun başına gətirdilər. Eyni cür Bəşər Oğlu da onların əlindən əzab çəkəcək». Şagirdlər o zaman başa düşdülər ki, İsa onlara bu sözləri Vəftizçi Yəhya haqqında söyləyirdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Advent dövrü

# 3-cü həftə

# ADVENT | 3cü həftə | Rəbb günü

**A ili**

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 35:1-6. 10*

Səhra və quru torpaq sevinəcək, çöl şadlanacaq, nərgiz kimi çiçəklənəcək. Hər yan gül açacaq, şadlanacaq, sevincdən nəğmə oxuyacaq. Livanın gözəlliyi, şan-şöhrəti, Karmelin və Şaronun cah-calalı ona veriləcək. Hamı Rəbbin izzətini, Allahımızın əzəmətini görəcək. Zəif əllərə qüvvət verin, əsən dizləri möhkəmləndirin. Ürəklərində qorxanlara deyin: «Möhkəm olun, qorxmayın! Budur, Allahınız intiqam almaq, düşmənlərinizdən qisas almaq üçün gəlir. O gəlib sizə qurtuluş verəcək!» O vaxt korların gözləri, karların qulaqları açılacaq, axsaqlar ceyran kimi hoppanacaq, lalların dili sevinclə nəğmə deyəcək, çünki səhrada bulaqlar fışqıracaq, quru torpaqda çaylar axacaq. Rəbbin satın alınmış adamları qayıdacaq, Sevinclə nəğmə deyərək Siona gələcək. Üzlərində əbədi sevinc olacaq, onlar fərəh və şadlıq tapacaq, kədər və qəm-qüssə yox olacaq!

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 146(145), 6-10**

**N: Gəl, ey Allah, Öz xalqını xilas et!**

Odur əbədi sadiq qalan.
O, miskinlərə haqq qazandırır,
O, acları azuqə ilə doydurur.
Rəbb əsirləri azad edir,

Rəbb kor gözləri açır.
Rəbb qəddi əyilənləri düzəldir,
Rəbb salehləri sevir.
Rəbb qəriblərə dayaq olur.

Yetimi, dul qadını ayağa qaldırır,
pislərinsə yollarını dolaşdırır.
Rəbb əbədi hökmranlıq edir,
ey Sion, Allahın nəsillər boyu hökm verir!
Rəbbə həmd edin!

**Müqəddəs Yaqubun məktubundan sözlər** *Yaq 5:7-10*

Beləliklə, ey qardaşlar, Rəbbin zühuruna qədər səbirli olun. Görün əkinçi birinci və axırıncı yağış yağanacan səbir edərək torpağın qiymətli məhsulunu gözləyir. Siz də səbirli və ürəkli olun, çünki Rəbbin zühuru yaxındır. Qardaşlar, mühakimə olunmamaq üçün bir-birinizdən gileylənməyin. Budur, Hakim qapı arxasında durur! Qardaşlar, Rəbbin adı ilə danışmış peyğəmbərləri əzablara tab gətirmək və səbir nümunəsi kimi götürün.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Xudavənd Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə müjdəni bildirmək üçün O məni məsh etdi.

**Alleluya!**

**† İncil †** *Mt 11:2-11*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

O vaxt Yəhya isə Məsihin işlərini zindanda eşidərək öz şagirdlərini göndərib. Ondan soruşdu: «Gəlməli Olan Sənsənmi, yoxsa başqasını gözləyək?» İsa onlara belə cavab verdi: «Gedin, eşidib gördüklərinizi Yəhyaya bildirin: korlar görür, axsaqlar yeriyir, cüzamlılar pak olur, karlar eşidir, ölülər dirilir və yoxsullara Müjdə yayılır. Kim Mənə görə büdrəməsə, nə bəxtiyardır!»
Onlar gedərkən İsa camaata Yəhya haqqında danışmağa başladı: «Çölə nəyə baxmağa getmişdiniz? Küləyin sarsıtdığı qamışamı? Bəs onda nəyə baxmağa getmişdiniz? Nəfis toxunmuş paltar geymiş bir adamamı? Amma nəfis toxunmuş paltar geyənlər padşahların saraylarında qalır. Bəs onda nəyə baxmağa getmişdiniz? Bir peyğəmbərəmi? Bəli, sizə deyirəm, hətta peyğəmbərdən də üstün birinə. Bu o adamdır ki, onun haqqında yazılıb: “Budur, Sənin önündə Öz elçimi göndərirəm, o Sənin qabağında yolunu hazırlayacaq”. Sizə doğrusunu deyirəm: qadından doğulanlar arasında Vəftizçi Yəhyadan daha üstün olan meydana çıxmayıb. Amma Səmavi Padşahlıqda ən kiçik olan ondan üstündür.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 3cü həftə | Rəbb günü

**B ili**

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 61:1-2. 10-11*

Xudavənd Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə müjdəni bildirmək üçün O məni məsh etdi. Qəlbi sınıq olanlar üçün, yaralarını sarımaq üçün, əsirlərə azadlıq, dustaqlara sərbəstlik elan etmək üçün, Rəbbin lütf ilini, Allahımızın qisas gününü bəyan etmək üçün, yaslıların hamısına təsəlli vermək üçün, Rəbb məni göndərdi.
Rəbdə böyük sevinc tapacağam, Allahımda ürəyim şadlıqdan coşacaq, çünki çələnglə bəzənmiş bəy kimi, bər-bəzək taxmış gəlin kimi Mənə qurtuluş paltarı geyindirdi, salehlik libası ilə bürüdü. Torpaq zoğlarını necə cücərdirsə, bağ əkilən toxumları necə yetişdirirsə, Xudavənd Rəbb də bütün millətlər qarşısında salehliyi və həmdi belə yetişdirəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Məzmur (Lk 1, 46-54)**

N: **Rəbdə böyük sevinc tapacağam, Allahımda ürəyim şadlıqdan coşacaq.**

Qəlbim Rəbbi ucaldır,
ruhum Xilaskarım Allaha görə şadlanır,
çünki O Öz qulunun yazıq halını gördü.
Bundan sonra bütün nəsillər məni bəxtiyar sayacaq.

Çünki Qadir Olan mənim üçün böyük işlər etdi,
Onun adı müqəddəsdir!
Onun mərhəməti də nəsildən-nəslə
Ondan qorxanlara göstərilər.

Acları nemətlərlə doydurdu,
varlıları isə əliboş yola saldı.
Rəbb, gulu İsrailin imdadına çatdı,
ata-babalarımıza vəd etdiyi kimi
İbrahimə və onun nəslinə əbədilik
mərhəmət göstərməyi yada saldı».

## Müqəddəs Paulun Saloniklilərə 1-ci məktubundan sözlər *1 Sal 5:16-24*

Qardaşlar! Daima sevinin, durmadan dua edin, hər vəziyyətdə şükür edin. Çünki bunlar Məsih İsada olan sizlər üçün Allahın iradəsidir. Ruhu söndürməyin. Peyğəmbərlik sözlərinə xor baxmayın. Hər şeyi sınaqdan keçirin və yaxşı olandan möhkəm tutun. Hər cür şərdən uzaq durun. Qoy sülh qaynağı olan Allahın Özü sizi tamamilə təqdis etsin və Rəbbimiz İsa Məsihin zühurunda ruhunuz, canınız və bədəniniz nöqsansız olaraq qorunsun. Sizi çağıran Allah sadiqdir və bunu edəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Xudavənd Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə müjdəni bildirmək üçün O məni məsh etdi.

**Alleluya!**

## † İncil † *Yəh 1:6-8. 19-28*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Allahın göndərdiyi bir adam ortaya çıxdı, onun adı Yəhya idi. O, şəhadət üçün gəldi ki, Nur barədə şəhadət etsin və hamı onun vasitəsilə iman etsin. O özü Nur deyildi, amma Nur barədə şəhadət etmək üçün gəldi.
Yəhudi başçıları Yəhyadan «Sən kimsən?» deyə soruşmaq üçün Yerusəlimdən kahinlərlə Levililəri onun yanına göndərdilər. O zaman Yəhya belə şəhadət etdi: o, düzünü deyib inkar etmədi və «mən Məsih deyiləm» deyə bəyan etdi. Onlar Yəhyadan soruşdular: «Bəs sən kimsən? Bəlkə İlyassan?» Yəhya «xeyr, o deyiləm» dedi. Soruşdular: «Bəlkə gəlməli olan peyğəmbərsən?» Yəhya «xeyr» söylədi. Sonra ona dedilər: «Bəs sən kimsən? Bizi göndərənlərə nə cavab verək? Özün barədə nə deyirsən?» Yəhya dedi: «Mən Yeşaya peyğəmbərin söylədiyi kimi "Rəbbin yolunu düz edin" deyə səhrada nida edənin səsiyəm». Göndərilən bəzi fariseylər Yəhyadan soruşdular: «Bəs sən Məsih, İlyas yaxud gəlməli olan peyğəmbər deyilsənsə, nə üçün vəftiz edirsən?» Yəhya onlara cavab verdi: «Mən su ilə vəftiz edirəm, amma aranızda məndən sonra gələn tanımadığınız bir Nəfər dayanıb.
Mən Onun heç çarığının bağını açmağa da layiq deyiləm».
Bu hadisələr İordan çayının o tayında olan Bet-Anyada,
Yəhyanın vəftiz etdiyi yerdə baş verdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 3cü həftə | Rəbb günü

## C ili

### Peyğəmbər Sefanyanın kitabından sözlər *Sef 3:14-17*

Ey Sion qızı, tərənnüm elə, ey İsrail, uca səslə çığır!
Ey Yerusəlim qızı, bütün qəlbinlə sevin və fərəhlən!
Rəbb sənin cəzanı ləğv etdi, düşmənlərini qovdu!
İsrailin padşahı Rəbb səninlədir, artıq pislikdən qorxmayacaqsan!
O gün Yerusəlimə deyiləcək: «Qorxma, ey Sion, qoy əllərin taqətdən düşməsin! Allahın Rəbb, qüvvətli Qurtarıcın səninlədir!
O sənin üçün sevinib şadlanacaq, səni məhəbbəti ilə yeniləşdirəcək, sənin üçün tərənnümlə coşacaq!

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

### Məzmur Yeş 12, 2-6

**N: Ey İsrail, Rəbbdə uca səslə çığır!**

Allah xilasımdır, Ona güvənəcəyəm və qorxmayacağam,
çünki Rəbb Allahımız qüvvətim, məzmurumdur,
O mənə xilas verdi!»
Sevinclə xilas mənbələrindən
su çəkəcəksiniz.

Rəbbə şükür edin, Onun adını çağırın,
xalqlar arasında Onun işlərini bəyan edin,
Onun adının ucalığını elan edin.

Rəbbi tərənnüm edin,
çünki O, möhtəşəm işlər gördü,
qoy bütün dünya bunu bilsin!
Ey Sion sakinləri, səsinizi ucaldın, sevinclə çığırın,
çünki aranızdakı İsrailin Müqəddəsi böyükdür».

**Müqəddəs Paulun Filipililərə məktubundan sözlər** *Flp 4:4-7*

Qardaşlar! Rəbdə həmişə sevinin! Bir də deyirəm: sevinin! Qoy sizin mülayimliyiniz bütün insanlara məlum olsun. Rəbb yaxındır. Heç nəyin qayğısını çəkməyin, amma hər barədə xahişlərinizi Allaha dualarla, yalvarışlarla, şükür edə-edə bildirin. Onda Allahın ağlagəlməz sülhü ürəklərinizi və düşüncələrinizi Məsih İsada qoruyacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Xudavənd Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə müjdəni bildirmək üçün O məni məsh etdi.

**Alleluya!**

## † İncil †

*Lk 3:10-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Camaat Yəhyadan soruşurdu: «Bəs biz nə edək?» Yəhya onlara belə cavab verdi: «İki köynəyi olan birini köynəyi olmayana versin. Həmçinin yeməyi olan adam da olmayanla bölüşsün». Vergiyığanlar da vəftiz olunmaq üçün onun yanına gəlib soruşdular: «Müəllim, biz nə edək?» Yəhya onlara dedi: «Sizə tapşırılan məbləğdən artıq vergi yığmayın». Bəzi əsgərlər də gəlib ondan soruşdular: «Bəs biz nə etməliyik?» Yəhya da onlara cavab verdi: «Heç kimdən zorla pul almayın, nahaq yerə ittiham etməyin, aldığınız maaşla kifayətlənin».
Xalq ümidlə gözləyirdi və hamı ürəyində Yəhya haqqında öz-özündən soruşurdu: «Görəsən bu, Məsihdirmi?» Yəhya onların hamısına belə cavab verdi: «Mən sizi su ilə vəftiz edirəm, amma məndən daha Qüdrətlisi gəlir. Mən Onun çarıqlarının bağını açmağa belə, layiq deyiləm. O sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək. Öz xırmanını sovurmaq və taxılı anbarına toplamaq üçün kürəyi əlində hazırdır. Küləşi isə sönməz odda yandıracaq». Yəhya çoxlu başqa öyüd-nəsihət verərək xalqa Müjdəni vəz edirdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 3cü həftə | 1ci gün

**Saylar kitabından sözlər** *Say 24:2-7. 15-17*

O günlərdə, Bilam gözlərini qaldırdı və İsraili qəbilələrinə görə yerləşmiş görəndə onun üzərinə Allahın Ruhu endi. O, gələcəkdən xəbər verib dedi: «Budur, Beor oğlu Bilamın kəlamı, uzaq görən adamın kəlamı, Allahın sözlərini eşidən, Külli-İxtiyarın görüntüsünü görən, gözləri açıq, yerə sərilən adamın kəlamı: "Ey Yaqub, sənin çadırların, ey İsrail, məskənlərin nə gözəldir! Yayılırlar vadilər tək, çay kənarındakı bağ-bağçalar tək, Rəbbin bitirdiyi əzvay ağacları tək, çay kənarındakı sidr ağacları tək. Satıllarından sular axacaq,toxumları bol su ilə sulanacaq, padşahları Aqaqdan böyük olacaq, padşahlıqları ucalacaq.

Sonra Bilam gələcəkdən xəbər verib dedi: «Budur, Beor oğlu Bilamın kəlamı, uzaq görən adamın kəlamı, Allahın sözlərini eşidən, Haqq-Taalanın biliyinə qovuşan, Külli-İxtiyarın görüntüsünü görən, gözləri açıq, yerə sərilən adamın kəlamı: "Onu mən görürəm, amma indi deyil, mən ona baxıram, amma yaxından deyil. Yaqubdan bir ulduz çıxacaq, İsraildən bir əsa ucalacaq, Moavlıların alınlarını, Şet övladlarının başlarını əzəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 25(24), 4-9**

**N: Ya Rəbb, yollarını mənə göstər.**

Ya Rəbb, yollarını mənə göstər,
Öz yollarını mənə öyrət.
Məni haqq yolu ilə apar, həqiqətini mənə öyrət.
Məni qurtaran Allah Sənsən.

Ya Rəbb, əzəldən bəri var olan mərhəmətini,
məhəbbətini yada sal.
Məni məhəbbətin naminə,
ya Rəbb, xeyirxahlığına görə yada sal!

Rəbb xeyirxah və haqdır,
ona görə günahkara düz yol göstərir,
itaətkarları ədalət yolu ilə aparır,
Öz yolunu onlara öyrədir.

**Alleluya!**

Ya Rəbb, bizə məhəbbətini göstər, bizi xilas et.

**Alleluya!**

## † İncil †

*Mt 21:23-27*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa məbədə gəlib təlim öyrədərkən başçı kahinlər və xalqın ağsaqqalları Ona yaxınlaşıb dedilər: «Sən bu işləri hansı səlahiyyətlə edirsən? Sənə bu səlahiyyəti kim verib?» İsa onlara belə cavab verdi: «Mən də sizə bir sual verəcəyəm; onu Mənə desəniz, Mən də bunları hansı səlahiyyətlə etdiyimi sizə deyərəm. Yəhyanın vəftizi haradan idi? Göydən idi, yoxsa insanlardan?» Onlarsa aralarında müzakirə edərək belə dedilər: «Əgər desək "göydən", "Bəs nə üçün ona inanmadınız?" deyəcək. Amma desək "insanlardan", camaatdan qorxuruq, çünki hamı Yəhyanı peyğəmbər sayır». Cavabında İsaya dedilər: «Bilmirik». İsa da onlara dedi: «Bunları hansı səlahiyyətlə etdiyimi Mən də sizə demirəm.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 3cü həftə | 2ci gün

**Peyğəmbər Sefanyanın kitabından sözlər** *Sef 3:1-2, 9-13*

Rəbb belə deyir: Üsyankar, pozğun, qəddar şəhərin vay halına! Söz dinləmədi, ibrət dərsi almadı, Rəbbə güvənmədi, Allahına yaxınlaşmadı. O zaman Mən xalqların nitqini dəyişib, onlara pak dil verəcəyəm ki, hamı Rəbbin adını çağırsın, Mənə çiyin-çiyinə xidmət etsinlər. Qürbətə dağılmış, Mənə səcdə edənlər Kuş çaylarının o tayından Mənə təqdimlər gətirəcək. O gün sən, ey xalqım, Mənə qarşı üsyankarlıq etdiyinə görə daha xəcalətli olmayacaqsan. Çünki qürurlu, təkəbbürlü adamları Sənin arandan uzaqlaşdıracağam, Müqəddəs dağımda bir daha təkəbbürlü olmayacaqsan. Sizin aranızda itaətkar və məzlum bir xalqı sağ qoyacağam, onlar Rəbbin adına pənah gətirəcək. İsraildən sağ qalanlar haqsızlıq etməyəcək! Kimsəni aldadaraq yalan söyləməyəcəklər, çünki onlar qarnı tox yatacaq, onları qorxudan olmayacaq».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 34(33), 1-2. 5-6. 16-17. 18+22**

**N: Mən məzlum, Rəbbi çağırdım, O məni eşitdi.**

Hər zaman Rəbbə alqış edəcəyəm,
Ona daim mənim dilim həmd edəcək.
Rəblə könlüm fəxr edir,
ey məzlumlar, eşidib sevinin!

Rəbbə baxan nur saçar,
üzü qızarmaz.
Mən məzlum, Rəbbi çağırdım, O məni eşitdi,
bütün əzablarımdan məni xilas etdi.

Rəbbin üzü şər iş görənlərə qarşıdır,
Yer üzündə onlardan nişanə qoymayacaq.
Salehlər fəryad çəkəndə Rəbb eşidir,
onları bütün əzablarından azad edir.

Rəbb qəlbisınıqlara yaxındır,
O, ruhən əzilmişləri qurtarır.
Rəbb qullarının canını azad edir,
Rəbbə pənah gətirən məhkum olmur.

**Alleluya!**

Gəl, ya Rəbb, ləngimə! Öz xalqımın günahlarını bağışla.

**Alleluya!**

## † İncil †

*Mt 21:28-32*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa başçı kahinlər və xalqın ağsaqqallarına dedi: Bəs siz necə düşünürsünüz? Bir adamın iki oğlu vardı. Gəlib birincisinə “oğlum, bu gün get üzüm bağımda işlə” dedi. O da cavab verib “istəmirəm” dedi. Lakin sonra peşman olub getdi. Həmin adam ikincisinə yaxınlaşıb yenə eyni sözü söylədi. O cavab verib “Gedirəm, ağam!” dedi, amma getmədi. Bu iki nəfərdən hansı atasının istəyini yerinə yetirdi?» Onlar «birincisi» dedilər. İsa onlara dedi: «Sizə doğrusunu deyirəm: vergiyığanlar və fahişələr Allahın Padşahlığına sizdən qabaq girirlər. Çünki Yəhya sizin yanınıza salehlik yolunu göstərməyə gəldi. Sizsə ona inanmadınız, amma vergiyığanlar və fahişələr ona inandılar. Siz bunu gördükdən sonra da peşman olub ona inanmadınız.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 3cü həftə | 3cü gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 45:6-8, 18, 21d-25*

Beləliklə, gündoğandan günbatana qədər qoy bilsinlər ki, Məndən savayı heç kim yoxdur, Rəbb Mənəm, başqası yoxdur. Nuru, qaranlığı, sülhü, fəlakəti yaradan Mənəm, bütün bunları edən Rəbb Mənəm. Ey göylər, yuxarıdan damlayın, qoy buludlar salehlik yağdırsın, torpaq açılsın, xilas bəhrəsini yetişdirsin, onunla birlikdə salehlik bitsin. Bunları yaradan Rəbb Mənəm».

Göyləri yaradan Rəbb bircə olan Allahdır! O, dünyanı yaratdı, ona quruluş verdi, Rəbb dünyanı qarmaqarışıq yaratmadı, onu yaşamaq üçün qurdu. O deyir: «Mən Rəbbəm, başqası yoxdur! Məndən başqa Allah, Ədalətli Allah və Qurtarıcı yoxdur. Məndən başqası yoxdur. Ey yer üzünün qurtaracağınadək hər yerdə yaşayanlar, Mənə tərəf dönün və xilas olun! Çünki Mən Allaham və başqası yoxdur!
Varlığıma and içdim, ağzımdan çıxan kəlmə doğrudur, boşa çıxmaz. Hər diz önümdə çökəcək, hər dil Mənə and içəcək. Mənim üçün belə deyəcəklər: "Salehlik və qüvvət yalnız Rəbdədir. Ona qarşı qəzəblənənlər hüzuruna gəlib utanacaqlar. Bütün İsrail nəsli Rəbdə haqq qazanacaq və izzətlənəcək"».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 85(84): 9ab+10. 11-12. 13-14**

**N: Ey göylər, yuxarıdan damlayın, qoy buludlar salehlik yağdırsın!**

Rəbb Allah nə söyləsə, dinləyirəm.
Sözləri xalqına, möminlərinə sülh bəyan edər
Bəli, Rəbb Ondan qorxanları qurtarmaq üçün,
Ehtişamını ölkəmizdə saxlamaq üçün yaxınlaşır! **N:**

Məhəbbətlə həqiqət bir-birinə qovuşacaq,
Salehliklə əmin-amanlıq bir-biri ilə öpüşəcək.
Həqiqət yerdə bitib-göyərəcək,
Ədalət göylərdən baxacaq.

Bəli, Rəbb ən yaxşı şeyləri göndərəcək,
Torpağımız bol məhsul verəcək.
Ədalət Rəbbin önündə addımlayar,
Qədəmləri üçün cığır salar. **N:**

**Alleluya!**

Ey xoş xəbər gətirən, ucalt səsini, car çək,
budur, Xudavənd Rəbb Öz qüvvəsi ilə gəlir!

**Alleluya!**

## † İncil †

*Lk 7:18-23*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Yəhya şagirdlərindən ikisini yanına çağırıb göndərdi ki, Rəbdən soruşsunlar: «Gəlməli Olan Sənsənmi, yoxsa başqasını gözləyək?» Adamlar İsanın yanına gəlib dedilər: «Vəftizçi Yəhya bizi Sənin yanına göndərdi ki, soruşaq: "Gəlməli Olan Sənsənmi, yoxsa başqasını gözləyək?"» Həmin vaxt İsa bir çox xəstəliklərə, azarlara və şər ruhlara tutulmuş insanlara şəfa verdi, həm də bir çox korların gözlərini açdı. İsa onlara belə cavab verdi: «Gedin, görüb eşitdiklərinizi Yəhyaya bildirin: korlar görür, axsaqlar yeriyir, cüzamlılar pak olur, karlar eşidir, ölülər dirilir və yoxsullara Müjdə yayılır. Kim Mənə görə büdrəməsə, nə bəxtiyardır!»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 3cü həftə | 4cü gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 54, 1-10*

«Şənlən, ey sonsuz, qısır qadın! Sevinclə mahnı oxu, ey doğuş ağrısı çəkməyən qadın! Çünki atılmış qadının övladları ərli qadının övladlarından çox olacaq», Bunu Rəbb deyir. «Çadırının yerini genişləndir, Məskənlərinin örtüklərini uzat, çəkinmə, ipləri uzat, payaları vur. Çünki sağa və sola səpələnəcəksən, nəslin millətlərə yiyələnəcək, viran qalmış şəhərlərdə məskunlaşacaq.
Qorxma, çünki utanmayacaqsan, Ruhdan düşmə, çünki rüsvay olmayacaqsan. Cavanlığın xəcalətini unudacaqsan, bir daha dulluğun rüsvayçılığını yadına salmazsan». Çünki sənin ərin səni Yaradandır, Onun adı Ordular Rəbbidir. Səni Satınalan İsrailin Müqəddəsidir, O bütün dünyanın Allahı adlanır. Allahın deyir:«Rəbb səni çağırır Atılmış və ruhu əzilmiş, gənc yaşında ərə getmiş, sonra isə rədd olunmuş bir qadın kimi. Bir anlığa səni tərk etdim, amma böyük rəhmlə geri qəbul edəcəyəm. Bir anlığa qızğın qəzəblə səndən üzümü döndərdim, lakin əbədi məhəbbətimlə sənə rəhm edəcəyəm». Bunu səni Satınalan, Rəbb deyir. «Bu Mənim üçün sanki Nuhun dövründə baş verən daşqındır, Nuhun dövründəki daşqının suları bir daha yer üzünü örtməyəcəyi barədə necə and içmişdimsə, indi də and içirəm ki, sənə qəzəblənməyəcəyəm, səni məzəmmət etməyəcəyəm. Dağlar yerini dəyişsə də, təpələr sarsılsa da, sənə olan məhəbbətim dəyişməz, sülh əhdim sarsılmaz». Bunu sənə rəhm edən Rəbb deyir.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 30(29), 1+3. 4-5. 10-12**

**N: Ya Rəbb, Səni ucaldıram, çünki Sən məni qurtardın.**

Ya Rəbb, Səni ucaldıram, çünki Sən məni qurtardın,
düşməni mənə görə sevinməyə qoymadın.
Ya Rəbb, canımı ölülər diyarından azad etdin,
qəbirə düşməyim deyə Sən mənə həyat verdin.

Ey Rəbbin möminləri, Onu tərənnüm edin, +
Müqəddəsliyini yada salın, *
Ona şükürlər edin.
Çünki qəzəbi bir anlıq olur, Lütfü isə ömür boyu qalır. +
Kimin bir gecə gözündən yaş tökülərsə, *

onun üçün sübh tezdən sevinc doğar.

**N: Ya Rəbb, Səni ucaldıram, çünki Sən məni qurtardın.**

Ya Rəbb, dinlə, mənə lütf et,
ya Rəbb, köməyimə çat».
Yasımı şənliyə çevirdin,
Ya Rəbb Allahım, Sənə daim şükür edəcəyəm!

**Alleluya!**

Rəbbin yolunu hazırlayın, Onun keçəcəyi yerləri düz edin.
Bütün bəşər Allahın xilasını görəcək"».

**Alleluya!**

## † İncil †

*Lk 7:24-30*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Yəhyanın elçiləri getdikdən sonra İsa camaata Yəhya haqqında danışmağa başladı: «Çölə nəyə baxmağa getmişdiniz? Küləyin sarsıtdığı qamışamı? Bəs onda nəyə baxmağa getmişdiniz? Nəfis toxunmuş paltar geymiş bir adamamı? Amma gözəl paltar geyinib cah-calal içində yaşayanlar padşah saraylarında qalırlar. Bəs onda nəyə baxmağa getmişdiniz?
Bir peyğəmbərəmi? Bəli, sizə deyirəm, hətta peyğəmbərdən də üstün birinə. Bu o adamdır ki, onun haqqında yazılıb: "Budur, Sənin önündə Öz elçimi göndərirəm. O Sənin qabağında yolunu hazırlayacaq".
Sizə deyirəm: qadından doğulanlar arasında Yəhyadan üstün olan yoxdur. Amma Allahın Padşahlığında ən kiçik olan ondan üstündür». Yəhyanın vəftiz etdiyi xalqın hamısı, hətta vergiyığanlar da bunu eşitdikdə Allahın ədalətini təsdiq etdilər. Amma fariseylər və qanunşünaslar Yəhyanın vəftizindən imtina etdilər və bununla Allahın onlar barəsindəki iradəsini rədd etdilər.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 3cü həftə | 5ci gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 56:1-3. 6-8*

Rəbb belə deyir: «Ədaləti qoruyun, salehliyə əməl edin. Çünki xilasım yaxındadır, salehliyim tezliklə aşkar olunacaq. Bunu edən insan, buna itaət edən bəşər oğlu nə bəxtiyardır! Şənbə gününü tutar, murdarlamaz, hər cür şərdən qorunar. Qoy Rəbbə bel bağlayan heç bir yadelli deməsin: "Əlbəttə, Rəbb məni Öz xalqından ayıracaq". Qoy heç bir xədim deməsin: "Mən quru bir ağacam"». Rəbbə xidmət etmək, Onun adını sevmək, Onun qulu olmaq üçün Şənbə gününə riayət edən, o günü murdarlamayan, Əhdimə itaət edən, Rəbbə bel bağlayan bütün yadelliləri Müqəddəs dağıma gətirib Dua evimdə sevindirəcəyəm. Onların gətirdikləri yandırma qurbanları, bütün qurbanlar qurbangahımda qəbul olunacaq. Çünki Mənim evim bütün xalqlar üçün Dua evi adlandırılacaq». İsrailin əsir düşmüş övladlarını toplayan Xudavənd Rəbb belə bəyan edir: «Mən hələ toplanmışların yanına başqalarını da yığacağam».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 67(66), 1-2. 4. 6-7**

**N: Lütf edib, ey Allah, bizə xeyir-dua ver!**

Lütf edib, ey Allah, bizə xeyir-dua ver,
Üzün üstümüzə nur saçsın.
Qoy yer üzündə Sənin yolun,
bütün millətlər arasında qurtuluşun tanınsın.

Qoy ümmətlər sevinclə Səni mədh etsin,
çünki xalqlara insafla hökm edirsən,
Yer üzündəki ümmətlərə yol göstərirsən.

Yer üzü bəhrəsini verib,
Allah, bizim Allahımız bizə bərəkət verib.
Allah bizə xeyir-dua verib.
Qoy yer üzünün qurtaracağınadək hər yerdə olanlar Ondan qorxsun!

**Alleluya!**

Gəl, ya Rəbb, yanımızda ol ki, pak ürəyimizlə Sənə görə sevinək!

**Alleluya!**

## † İncil †

*Yəh 5:33-36*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa Yehudilərə dedi: Siz Yəhyanın yanına adamlar göndərdiniz və o, həqiqətə şəhadət etdi. Lakin insandan şəhadət qəbul etdiyim üçün deyil, yalnız sizin xilas olmağınız üçün bunları söyləyirəm. Yəhya yanan və nur saçan bir çıraq idi, siz bir müddət onun işığında sevinmək istədiniz. Amma Mənim barəmdə olan şəhadət Yəhyanın şəhadətindən üstündür. Çünki Atanın Mənə tam yerinə yetirmək üçün tapşırdığı işlər – indi etdiyim bu işlər Mənim barəmdə şəhadət edir ki, Ata Məni göndərib.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Advent dövrü

# 4-cü həftə

# ADVENT | 4cü həftə | 4cü Rəbb günü

## A ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 7:10-14. 8:10c*

Rəbb yenə Axaza söylədi: «Allahın Rəbdən bir işarə istə. Qoy ya ölülər diyarı qədər dərin ya da göylər qədər uca olsun». Lakin Axaz cavab verdi: «Xeyr, Rəbbi sınamaq istəmirəm». Bunun üstündən Yeşaya belə dedi: «Eşidin, ey Davud nəsli! İnsanları bezdirməyiniz bəs deyilmi ki, mənim Allahımı da bezdirirsiniz? Buna görə də Xudavənd Özü sizə işarə verəcək: budur, bakirə qız hamilə olub oğlan doğacaq, adını İmmanuel qoyacaq. Çünki Allah bizimlədir.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 24(23), 1-6**

N: **Əzəmətli Padşah içəri daxil olur, O kainatın Padşahıdır.**

Rəbbindir yer üzü və orada mövcud olanlar,
dünya və orada yaşayanlar.
O, yerin təməlini dənizlər üstündə qurdu,
dünyanı sular üzərində yaratdı.

Rəbbin dağına kim çıxa bilər?
Müqəddəs məskəninə kim girə bilər?
Əlləri pak, qəlbi təmiz, hiyləyə könül verməyən,
yalandan and içməyən insan.

O, Rəbdən bərəkət alacaq,
Xilaskarı Allahdan salehlik alacaq.
Belə adam Rəbbi soraqlayar,
Yaqubun Allahının üzünü axtarar.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 1: 1-7*

İsa Məsihin qulu, həvari olmağa çağırılmış, Allahın Müjdəsini yaymaq üçün seçilmiş mən Pauldan salam! Allahın Öz peyğəmbərləri vasitəsilə Müqəddəs Yazılarda əvvəlcədən vəd etdiyi o Müjdə Oğlu Rəbbimiz İsa Məsih haqqındadır. O, cismən Davud nəslindəndir, müqəddəslik Ruhuna görə isə ölülər arasından dirilərək Allahın Oğlu olduğu qüdrətlə elan olundu.

Biz Onun vasitəsilə lütfə və həvariliyə nail olduq ki, Onun adı naminə bütün millətlərdən olan insanları imana itaət etməyə çağıraq. Siz də İsa Məsihə məxsus olmaq üçün çağırılmış o insanların arasındasınız. Romada yaşayan, Allahın sevdiyi və müqəddəs olmağa çağırdığı sizin hamınıza Atamız Allahdan və Rəbb İsa Məsihdən lütf və sülh olsun!

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Budur, bakirə qız hamilə olub Oğlan doğacaq, adını İmmanuel qoyacaqlar». «İmmanuel» «Allah bizimlədir» deməkdir.

**Alleluya!**

## † İncil †

*Mt 1:18-24*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa Məsihin doğulması belə oldu. Anası Məryəm Yusifə nişanlanmışdı. Amma birlikdə olmalarından əvvəl Məryəmin Müqəddəs Ruhdan hamilə olduğu aşkar oldu. Onun nişanlısı Yusif saleh bir adam idi və Məryəmi camaat arasında rüsvay etmək istəməyərək gizlicə boşamaq niyyətinə düşdü. Amma belə düşündüyü halda Rəbbin bir mələyi röyada ona görünüb dedi: «Davud oğlu Yusif! Məryəmi özünə arvad etməkdən qorxma, çünki onun bətnindəki körpə Müqəddəs Ruhdandır. Məryəm bir Oğul doğacaq və Onun adını İsa qoy, çünki O Öz xalqını günahlarından xilas edəcək». Bütün bunlar Rəbbin peyğəmbər vasitəsilə söylədiyi bu söz yerinə yetsin deyə baş verdi: «Budur, bakirə qız hamilə olub Oğlan doğacaq, adını İmmanuel qoyacaqlar». «İmmanuel» «Allah bizimlədir» deməkdir. Yusif yuxudan oyananda Rəbbin mələyinin buyurduğu kimi etdi və arvadını qəbul etdi. Amma Məryəm bir Oğul doğana qədər Yusif onunla yaxınlıq etmədi. Doğulan Körpənin adını İsa qoydu.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 4cü həftə | 4cü Rəbb günü

**B ili**

**2-ci Şamuelin kitabından sözlər** 2 Şam 7:1-5. 8-12. 14.16

Rəbb padşah Davuda ətrafında olan bütün düşmənlərinin əlindən rahatlıq verən zamanlarda Davud öz evində oturmuşdu. O vaxt padşah peyğəmbər Natana belə dedi: «Bax mən sidr ağacından tikilən bir sarayda yaşayıram, lakin Allahın sandığı isə bir çadırda qalır». Natan padşaha dedi: «Get, ürəyindəki niyyətini həyata keçir, çünki Rəbb səninlədir».
Lakin o gecə Natana Rəbbin bu sözü nazil oldu: «Get, qulum Davuda söylə ki, Rəbb belə deyir: "Sənmi Mənə yaşamaq üçün ev tikəcəksən? Mən səni otlaqlarda qoyun otaranda götürüb xalqım İsrailə hökmdar etdim. Getdiyin hər yerdə səninlə oldum və qarşından bütün düşmənlərini qırıb atdım. İndi isə adını dünyadakı böyüklərin adı kimi məşhur edəcəyəm. Xalqım İsrail üçün bir yer təyin edib onları oraya sakin edəcəyəm ki, öz yurdlarında yaşasınlar və bir daha sarsılmasınlar. Şər adamlar əvvəllər xalqım İsraillilərə hakimlər təyin etdiyim günlərdən bəri etdikləri kimi yenə də onlara zülm etməsinlər. Sənə bütün düşmənlərinin əlindən rahatlıq verəcəyəm". Rəbb sənə bildirir ki, Rəbb Özü sənə ev tikəcək. "Ömrün başa çatıb atalarınla uyuyanda yerinə sənin toxumundan – belindən gələn övladını çıxaracağam və onun padşahlığını möhkəmləndirəcəyəm. Mən ona Ata, o isə Mənə oğul olacaq. Sənin nəslin və padşahlığın Mənim qarşımda əbədi əmin-amanlıqda olacaq, taxtın isə əbədi möhkəm qalacaq"».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 89(88), 1-5. 26+28**

**N: Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam.**

Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam,
Sənin sədaqətini dilim hər nəslə deyəcək.
Deyirəm ki, məhəbbətin əbədiyaşardır,
Sədaqətin göylər qədər sarsılmazdır.

Dedin: «Öz seçdiyimlə əhd kəsmişəm,
qulum Davud üçün belə and içmişəm:
"Mən nəslini əbədi sarsılmaz edəcəyəm,
sülaləni taxtında sonsuzadək yaşadacağam"».

**N: Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam.**

Məni çağırıb deyəcək: “Atamsan, Allahımsan,
məni xilas edən Qaya Sənsən!”
Ona daim məhəbbətimi göstərəcəyəm,
sadiq qalıb əhdimi pozmayacağam.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 16: 25-27*

Allah mənim elan etdiyim Müjdəyə və İsa Məsih barədə vəzə görə, əzəldən bəri gizli saxlanmış sirri aydınlaşdıran vəhyə uyğun olaraq, sizi qüvvətləndirməyə qadirdir; bu həmin sirdir ki, indi aşkar olmuş və əbədi Allahın əmrinə əsasən peyğəmbərlərin Yazıları vasitəsilə bütün millətlərin iman gətirib itaət etməsi üçün bəyan edilmişdir; o yeganə və müdrik Allaha İsa Məsih vasitəsilə əbədi izzət olsun! Amin.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Mən Rəbbin quluyam, qoy mənə sənin dediyin kimi olsun.

**Alleluya!**

## † İncil †

*Lk 1:26-38*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Elizavetin hamiləliyinin altıncı ayında mələk Cəbrayıl Allah tərəfindən Qalileyadakı Nazaret adlanan şəhərə, Davudun nəslindən olan Yusif adlı bir kişiyə nişanlanan bakirə qızın yanına göndərildi. Həmin qızın adı Məryəm idi. Mələk onun yanına gəlib dedi: «Salam, ey lütfə nail olmuş qız! Rəbb səninlədir».
Məryəm bu sözlərdən tam lərzəyə gəldi və ürəyində bu salamın nə demək olduğu barədə düşünməyə başladı.
Mələk ona dedi: «Qorxma, Məryəm, çünki sən Allahın lütfünə nail oldun. Sən hamilə olub bir Oğul doğacaqsan. Onun adını İsa qoy. O, böyük olacaq və Haqq-Taalanın Oğlu adlanacaq. Rəbb Allah Ona atası Davudun taxtını verəcək. O, Yaqub nəslinin üzərində əbədi olaraq Padşah olacaq və Onun Padşahlığının sonu olmayacaq».

Məryəm mələyə dedi: «Bu necə olacaq? Mən heç kişi üzü görməmişəm».

Mələk cavabında ona dedi: «Müqəddəs Ruh sənin üzərinə enəcək, Haqq-Taalanın qüdrəti üstünə kölgə salacaq. Buna görə də doğulacaq müqəddəs Övlad Allahın Oğlu adlanacaq. Bax qohumun Elizavetin də yaşlı vaxtında bətninə oğlan uşağı düşüb. Onu sonsuz adlandırırdılar, amma o artıq altı aydır ki, hamilədir. Çünki Allah üçün mümkün olmayan şey yoxdur».
Onda Məryəm dedi: «Mən Rəbbin quluyam, qoy mənə sənin dediyin kimi olsun».
Mələk onu tərk edib getdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 4cü həftə | 4cü Rəbb günü

**C ili**

**Peyğəmbər Mikeyanın kitabından sözlər** *Mik 5:2-5*

Rəbb deyir: «Ey Bet-Lexem Efrata, sən Yəhuda nəsillərinin kiçiyi olsan da, Mənim üçün İsrail üzərində Hökmdar səndən çıxacaq. Onun nəsli çox qədimlərə, zamanın başlanğıcına gedir». Hamilə qadın doğana qədər Rəbb Öz xalqını təslim edəcək. İsrail övladlarının yanına qalan qohumları qayıdacaq. Bu hökmdar Allahı Rəbbin əzəmətli adı ilə qalxacaq, Rəbbin gücü ilə sürüsünü otaracaq. Çünki yer üzünün qurtaracağınadək hər yerdə o böyük olacaq, xalq onun bəxş etdiyi sülhlə yaşayacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 80(79), 1-2. 14-15 . 17-18**

**N: Ey Allah, Üzündən nur saçıb bizi qurtar!**

Ey İsrailin Çobanı, qulaq as!
Ey keruvlar üstündə Oturan, nurunu saç!
Qoy qüvvətin oyansın, gəl, bizi qurtar!

Ey Ordular Allahı, dön, göydən bax,
bu tənəyi gör, qayğısına qal.
Axı bu fidanı sağ əlinlə əkmisən,
kökünə qüvvət vermisən.

Sənin əlin, sağ əlin Öz seçdiyin adamı –
qüvvət verdiyin bəşər oğlunu qorusun.
Qoy Səndən dönüb ayrılmayaq,
bizi elə yaşat ki, ismini çağıraq.

## İbranilərə məktubdan sözlər *İbr 10\5-10*

Qardaşlar! Məsih dünyaya gələndə deyir: «Qurban və təqdim istəmədin, amma Mənə bir bədən hazırladın. Yandırma qurbanı, günah qurbanından xoşun gəlmədi. O zaman dedim: "Budur, gəlmişəm, Kitab tumarında Mənim haqqımda yazılıb. Ay Allah, Sənin iradəni yerinə yetirim"». Məsih əvvəl dedi: «Qurban, təqdim, yandırma qurbanı və günah qurbanı istəmədin, bunlardan xoşun gəlmədi». Bunlar hamısı Qanuna görə təqdim olunur. Sonra dedi: «Budur, gəlmişəm, Sənin iradəni yerinə yetirim».
Yəni, Məsih ikinci Əhdi qüvvəyə mindirmək üçün birincisini ləğv edir.
Bu iradəyə əsasən biz İsa Məsihin bədəninin birdəfəlik təqdim olunmasına görə təqdis olunduq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Mən Rəbbin quluyam, qoy mənə sənin dediyin kimi olsun.

**Alleluya!**

## † İncil †

*Lk 1:39-45*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

O vaxt Məryəm tələsik qalxıb Yəhudanın dağlıq bölgəsindəki bir şəhərə yollandı. O, Zəkəriyyənin evinə girib Elizaveti salamladı. Elizavet Məryəmin salamını eşidəndə bətnindəki körpə tərpəndi. Elizavet də Müqəddəs Ruhla dolub uca səslə çığırdı: «Sən qadınlar arasında xeyir-dualısan, sənin bətninin bəhrəsi də xeyir-dualıdır! Bu necə oldu ki, Rəbbimin anası yanıma gəlib? Bax sənin salamının səsi qulağıma çatanda bətnimdəki körpə sevinclə tərpəndi. Rəbbin ona dediyi sözlərin yerinə yetəcəyinə inanan qadın nə bəxtiyardır!».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 17.12.

**Yaradılış kitabından sözlər** *Yar 49:1-2, 8-10*

O günlərdə Yaqub oğullarını çağırıb dedi: «Yanıma toplaşın, gələcəkdə başınıza gələnləri sizə söyləyim: Ey Yaqub oğulları, yığılıb eşidin, atanız İsrailə qulaq asın: Yəhuda, qardaşların səni mədh edəcək, düşmənlərin boynu əlində olacaq, atanın oğulları önündə səcdə edəcək.
Yəhuda bir aslan balasıdır! Ey oğlum, sən şikara çıxanda bir şir kimi yerə əyilirsən, dişi aslan kimi torpağa yatırsan. Kim səni yerindən qaldıra bilər? Padşahlıq əsası Yəhudanın əlindən getməyəcək, hökmdarlıq əsası onun nəslindən itməyəcək; o vaxta qədər ki əsanın Sahibi gələcək. Onda xalqlar Ona itaət edəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 72(71), 1-4. 7-8. 17**

**N: Rəbb günlərində salehlər çiçək açacaq.**

Ey Allah, padşaha ədalət ver,
şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə,
məzlumlara ədalətlə hakimlik etsin.

Xalqın firavanlığı dağlardan aşsın,
salehlər təpələri dolaşsın.
Padşah xalq arasında olan məzlumları qorusun,
fəqirləri xilas etsin.

Bu padşahın ömrü boyu qoy salehlər çiçək açsın,
göydə ay durduqca qoy firavanlıq artsın.
Dənizdən-dənizə qədər,
fəratdan yer üzünün qurtaracağınadək hər yerdə hökmranlıq etsin.

Qoy padşahın adı əbədi qalsın,
günəşin ömrü tək adı var olsun.
Onun vasitəsilə insanlar xeyir-dua alsın,
onu bütün millətlər bəxtiyar adlandırsın!

**Alleluya!**

Uca Allahın hikməti, Sən hər şeyi qüdrətlə və yumşaqlıqla idarə edirsən. Gəl, bizə hikmət yolunu öyrət.

**Alleluya!**

## † İncil †

*Mt 1:1-17*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Davudun Oğlu, İbrahimin də Oğlu olan İsa Məsihin nəsil şəcərəsi:
İbrahimdən İshaq törədi. İshaqdan Yaqub törədi. Yaqubdan Yəhuda və onun qardaşları törədi. Yəhudadan Tamarın doğduğu Peres və Zerah törədi. Peresdən Xesron törədi. Xesrondan Ram törədi. Ramdan Amminadav törədi. Amminadavdan Naxşon törədi. Naxşondan Salmon törədi. Salmondan Raxavın doğduğu Boaz törədi. Boazdan Rutun doğduğu Oved törədi. Oveddən Yessey törədi. Yesseydən padşah Davud törədi.
Davuddan Uriyanın arvadının doğduğu Süleyman törədi. Süleymandan Rexavam törədi. Rexavamdan Aviya törədi. Aviyadan Asa törədi. Asadan Yehoşafat törədi. Yehoşafatdan Yehoram törədi. Yehoramdan Uzziya törədi. Uzziyadan Yotam törədi. Yotamdan Axaz törədi. Axazdan Xizqiya törədi. Xizqiyadan Menaşşe törədi. Menaşşedən Amon törədi. Amondan Yoşiya törədi. Babil sürgünü zamanı Yoşiyadan Yekonya və onun qardaşları törədi.
Babil sürgünündən sonra Yekonyadan Şealtiel törədi. Şealtieldən Zerubbabil törədi. Zerubbabildən Avihud törədi. Avihuddan Elyaqim törədi. Elyaqimdən Azur törədi. Azurdan Sadoq törədi. Sadoqdan Yaxin törədi. Yaxindən Elihud törədi. Elihuddan Eleazar törədi. Eleazardan Mattan törədi. Mattandan Yaqub törədi. Yaqubdan Məryəmin əri Yusif törədi. Məryəmdən də Məsih adlanan İsa doğuldu.
Beləliklə, İbrahimdən Davuda qədər olan bütün nəsillər on dörd nəsildir, Davuddan Babil sürgününə qədər on dörd nəsildir, Babil sürgünündən Məsihə qədər də on dörd nəsildir.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 18.12.

**Peyğəmbər Yeremyanın kitabından sözlər** *Yer 23:5-8*

«Budur, Davud üçün saleh bir Pöhrə çıxaracağım günlər gəlir. Bu Padşah müdrikliklə padşahlıq edəcək, ölkədə ədalətli və saleh işlər görəcək» Rəbb belə bəyan edir. «Onun dövründə Yəhuda xilas olacaq, İsrail əmin-amanlıqda yaşayacaq. Onu "Rəbb salehliyimizdir" çağıracaqlar».
Buna görə də Rəbb bəyan edir: «Bir gün gələcək ki, insanlar artıq "İsrail övladlarını Misir torpağından çıxaran Rəbbin varlığına and olsun" deməyəcək, amma "İsrail nəslindən törəyənləri şimal ölkəsindən və sürgün etdiyi bütün başqa ölkələrdən geri qaytaran Rəbbin varlığına and olsun" deyəcək. Beləcə öz torpaqlarında yaşayacaqlar».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Zəbur 72(71), 1-4. 7-8. 17

**N: Rəbb günlərində salehlər çiçək açacaq.**

Ey Allah, padşaha ədalət ver,
şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə,
məzlumlara ədalətlə hakimlik etsin.

Xalqın firavanlığı dağlardan aşsın,
salehlər təpələri dolaşsın.
Padşah xalq arasında olan məzlumları qorusun,
fəqirləri xilas etsin.

Bu padşahın ömrü boyu qoy salehlər çiçək açsın,
göydə ay durduqca qoy firavanlıq artsın.
Dənizdən-dənizə qədər,
fəratdan yer üzünün qurtaracağınadək hər yerdə hökmranlıq etsin.

Qoy padşahın adı əbədi qalsın,
günəşin ömrü tək adı var olsun.
Onun vasitəsilə insanlar xeyir-dua alsın,
onu bütün millətlər bəxtiyar adlandırsın!

**Alleluya!**

Ey İsrail xalqının rəhbəri, Sina dağında Musaya qanun verdin.
Gəl və Öz sağ əlinlə bizi qurtar!

**Alleluya!**

## † İncil †

*Mt 1:18-24*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa Məsihin doğulması belə oldu. Anası Məryəm Yusifə nişanlanmışdı. Amma birlikdə olmalarından əvvəl Məryəmin Müqəddəs Ruhdan hamilə olduğu aşkar oldu. Onun nişanlısı Yusif saleh bir adam idi və Məryəmi camaat arasında rüsvay etmək istəməyərək gizlicə boşamaq niyyətinə düşdü. Amma belə düşündüyü halda Rəbbin bir mələyi röyada ona görünüb dedi: «Davud oğlu Yusif! Məryəmi özünə arvad etməkdən qorxma, çünki onun bətnindəki körpə Müqəddəs Ruhdandır. Məryəm bir Oğul doğacaq və Onun adını İsa qoy, çünki O Öz xalqını günahlarından xilas edəcək».

Bütün bunlar Rəbbin peyğəmbər vasitəsilə söylədiyi bu söz yerinə yetsin deyə baş verdi: «Budur, bakirə qız hamilə olub Oğlan doğacaq, adını İmmanuel qoyacaqlar». «İmmanuel» «Allah bizimlədir» deməkdir.

Yusif yuxudan oyananda Rəbbin mələyinin buyurduğu kimi etdi və arvadını qəbul etdi. Amma Məryəm bir Oğul doğana qədər Yusif onunla yaxınlıq etmədi. Doğulan Körpənin adını İsa qoydu.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 19.12.

**Hakimlər kitabından sözlər** *Hak 13:2-7. 24-25*

Dan qəbiləsindən Manoah adlı Soralı bir adam var idi. Onun arvadı doğmurdu, sonsuz idi. Rəbbin mələyi bu qadına görünüb dedi: «Bax indi sən sonsuzsan, doğmursan, amma hamilə olub bir oğlan doğacaqsan. İndidən diqqətli ol: sən nə şərab, nə də başqa keflәndirici içki içmə və dilinə heç bir haram şey dəyməsin. Ona görə ki sən hamilə olub bir oğul doğacaqsan və qoy onun başına ülgüc dəyməsin. Çünki uşaq ana bətnindən Allaha həsr olunmuş Nəziri olacaq. O, İsraili Filiştlilərin əlindən qurtarmağa başlayacaq». Qadın gedib ərinə belə dedi: «Mənim yanıma bir Allah adamı gəlmişdi. O, Allahın mələyi görkəmində çox zəhmli idi. Buna görə də onun haradan gəldiyini soruşmadım. Mənə adını da bildirmədi. Lakin dedi ki, sən hamilə olub bir oğul doğacaqsan. İndidən sən nə şərab, nə də başqa keflәndirici içki iç və dilinə heç bir haram şey dəyməsin, çünki uşaq ana bətnindən ölən gününə qədər Allahın Nəzirisi olacaq». Beləliklə, qadın bir oğul doğdu və adını Şimşon qoydu. Uşaq böyüdükcə Rəbb ona xeyir-dua verdi. Sora ilə Eştaol arasında, Maxane-Danda Rəbbin Ruhu onu idarə etməyə başladı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 71(70), 3-6ab. 16-17**

**N: Ya Rəbb, Sənə həmd etmək dilimdən düşməz.**

Mənə sığınacaq qaya ol,
qoy əmrinlə hər vaxt ora girib qurtulum.
Çünki qayam da Sən, qalam da Sənsən.
Ey Allahım, şər insanın əlindən,
haqsızın, zalımın pəncəsindən məni qurtar.

Ey Xudavənd, Sən mənim ümidimsən,
ya Rəbb, gəncliyimdən bəri Sənə güvənmişəm.
Doğulduğum gündən bəri dayağımsan,
məni ana bətnindən dünyaya gətirmisən.

Ey Xudavənd Rəbb, qüdrətinlə dolanıb-gəzəcəyəm,
Sənin, yalnız Sənin salehliyini bəyan edəcəyəm.
Ey Allah, gəncliyimdən bəri mənə təlim vermisən,
Sənin xariqələrini indiyədək elan edirəm.

**Alleluya!**

Yesseyin kökündən çıxan tumurcuq, millətlərə işarə kimi dayanırsan.
Gəl bizi azad et, gecikmə.
**Alleluya!**

† **İncil** † *Lk 1:5-25*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Yəhudeya padşahı Hirodun dövründə Aviya bölüyündən olan Zəkəriyyə adlı bir kahin var idi. Arvadı da Harun nəslindən idi, adı Elizavet idi. Onların hər ikisi Allahın gözündə saleh idi və Rəbbin qoyduğu əmr və qaydaların hamısına nöqsansız əməl edirdilər. Amma Elizavet sonsuz olduğuna görə onların övladı yox idi. Hər ikisinin yaşı çox idi. Bir gün Zəkəriyyə öz bölüyünün növbəsində Allahın önündə kahinlik xidmətini icra edirdi. Rəbbin məbədinə daxil olub buxur yandırmaq üçün kahinlik adətinə görə atılan püşk ona düşdü. Buxur yandırma zamanı bütün camaat məbəddən kənarda dua edirdi. Bu vaxt Rəbbin bir mələyi buxur qurbangahının sağında durub Zəkəriyyəyə göründü. Zəkəriyyə bunu görüb təlaşa düşdü və çox qorxdu. Mələk isə ona dedi: «Qorxma, Zəkəriyyə! Sənin duan eşidildi. Arvadın Elizavet sənə bir oğul doğacaq. Sən də onun adını Yəhya qoy. Sən sevinib şadlanacaqsan. Çox adam onun dünyaya gəlməsinə görə sevinəcək. Çünki o, Rəbbin gözündə böyük olacaq. O, şərab və başqa kefləndirici içki içməyəcək; hələ ana bətnində olarkən Müqəddəs Ruhla dolu olacaq. O, İsrail övladlarının çoxunu Allahı Rəbb tərəfə döndərəcək. Ataların ürəklərini övladlarına, itaətsiz adamları salehlərin düşüncə tərzinə yönəltmək və Rəbbə hazırlanmış xalqı yetişdirmək üçün İlyasın ruhu və qüvvəti ilə Rəbbin önündə gedəcək». Zəkəriyyə mələyə dedi: «Mən bunu necə bilərəm? Axı mən çox yaşlıyam, elə arvadımın da yaşı ötüb». Mələk ona cavab verdi: «Mən Allahın önündə dayanan Cəbrayılam və səninlə danışıb bu müjdəni sənə çatdırmaq üçün göndərilmişəm. Budur, vaxtında həyata keçəcək sözlərimə inanmadığına görə bu yerinə yetən günədək sən lal olub danışa bilməyəcəksən». Bu vaxt camaat Zəkəriyyəni gözləyirdi və onun məbəddə ləngiməsinə heyrət edirdi. O isə məbəddən çıxıb xalqla danışa bilmədi. Onlar da Zəkəriyyənin məbəddə görüntü gördüyünü başa düşdülər. Zəkəriyyə xalqa işarə edirdi və lal olaraq qaldı. Zəkəriyyə xidmət vaxtı qurtaranda evinə qayıtdı. Bu vaxtdan sonra arvadı Elizavet uşağa qaldı və beş ay evindən çıxmadı. O deyirdi: «Bunu mənim üçün Rəbb etdi. Bu vaxt O mənə nəzər salıb məni el arasında xəcalətdən qurtardı».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 20.12.

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 7:10-14. 8, 10c*

Rəbb yenə Axaza söylədi: «Allahın Rəbdən bir işarə istə. Qoy ya ölülər diyarı qədər dərin ya da göylər qədər uca olsun». Lakin Axaz cavab verdi: «Xeyr, Rəbbi sınamaq istəmirəm». Bunun üstündən Yeşaya belə dedi: «Eşidin, ey Davud nəsli! İnsanları bezdirməyiniz bəs deyilmi ki, mənim Allahımı da bezdirirsiniz? Buna görə də Xudavənd Özü sizə işarə verəcək: budur, bakirə qız hamilə olub oğlan doğacaq, adını İmmanuel qoyacaq. Çünki Allah bizimlədir.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 24(23), 1-6**

N: **Əzəmətli Padşah içəri daxil olur, O kainatın Padşahıdır.**

Rəbbindir yer üzü və orada mövcud olanlar,
dünya və orada yaşayanlar.
O, yerin təməlini dənizlər üstündə qurdu,
dünyanı sular üzərində yaratdı.

Rəbbin dağına kim çıxa bilər?
Müqəddəs məskəninə kim girə bilər?
Əlləri pak, qəlbi təmiz, hiyləyə könül verməyən,
yalandan and içməyən insan.

O, Rəbdən bərəkət alacaq,
Xilaskarı Allahdan salehlik alacaq.
Belə adam Rəbbi soraqlayar,
Yaqubun Allahının üzünü axtarar.

**Alleluya!**

Davudun açarı, Sən əbədi Padşahlığın qapılarını açırsan. Gəlib zindandan qaranlıqda oturanı çıxart.

**Alleluya!**

## † İncil †

*Lk 1:26-38*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Elizavetin hamiləliyinin altıncı ayında mələk Cəbrayıl Allah tərəfindən Qalileyadakı Nazaret adlanan şəhərə, Davudun nəslindən olan Yusif adlı bir kişiyə nişanlanan bakirə qızın yanına göndərildi. Həmin qızın adı Məryəm idi. Mələk onun yanına gəlib dedi: «Salam, ey lütfə nail olmuş qız! Rəbb səninlədir». Məryəm bu sözlərdən tam lərzəyə gəldi və ürəyində bu salamın nə demək olduğu barədə düşünməyə başladı. Mələk ona dedi: «Qorxma, Məryəm, çünki sən Allahın lütfünə nail oldun. Sən hamilə olub bir Oğul doğacaqsan. Onun adını İsa qoy. O, böyük olacaq və Haqq-Taalanın Oğlu adlanacaq. Rəbb Allah Ona atası Davudun taxtını verəcək. O, Yaqub nəslinin üzərində əbədi olaraq Padşah olacaq və Onun Padşahlığının sonu olmayacaq». Məryəm mələyə dedi: «Bu necə olacaq? Mən heç kişi üzü görməmişəm». Mələk cavabında ona dedi: «Müqəddəs Ruh sənin üzərinə enəcək, Haqq-Taalanın qüdrəti üstünə kölgə salacaq. Buna görə də doğulacaq müqəddəs Övlad Allahın Oğlu adlanacaq. Bax qohumun Elizavetin də yaşlı vaxtında bətninə oğlan uşağı düşüb. Onu sonsuz adlandırırdılar, amma o artıq altı aydır ki, hamilədir. Çünki Allah üçün mümkün olmayan şey yoxdur». Onda Məryəm dedi: «Mən Rəbbin quluyam, qoy mənə sənin dediyin kimi olsun». Mələk onu tərk edib getdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 21.12.

*1-ci variant:*

**Nəğmələr Nəğməsi kitabından sözlər** *Nəğ 2:8-14*

Qız deyir: Bu, sevgilimin hənirtisidir! O, dağlardan aşaraq, təpələrdən sıçrayaraq gəlir. Sevgilim ahuya, maral balasına oxşayır, budur, hasarımızın o tayında dayanır, pəncərələrdən boylanır, barmaqlıqlardan baxır. Mənə belə dedi sevgilim: «Dur gəl, yarım, gözəlim. Budur, artıq qış keçib, yağıntılar kəsilib. Hər yanda güllər bitib, nəğmə oxumağın zamanı yetib, qumrunun səsi torpağı bürüyüb. Əncir yaşıl bar gətirib, üzüm çiçəklənib ətrini saçır. Dur gəl, yarım, gözəlim!»
Oğlan deyir: Ey gözəl göyərçinim, sanki sal qayalarda, sıldırımlarda gizlənmisən. Qoy üzünü görüm, səsini eşidim, çünki şirin səsli, gözəl surətlisən.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

*2-ci variant:*

**Peyğəmbər Sefanyanın kitabından sözlər** *Sef 3:14-17*

Ey Sion qızı, tərənnüm elə, ey İsrail, uca səslə çığır! Ey Yerusəlim qızı, bütün qəlbinlə sevin və fərəhlən! Rəbb sənin cəzanı ləğv etdi, düşmənlərini qovdu! İsrailin padşahı Rəbb səninlədir, artıq pislikdən qorxmayacaqsan!
O gün Yerusəlimə deyiləcək: «Qorxma, ey Sion, qoy əllərin taqətdən düşməsin! Allahın Rəbb, Qüvvətli Qurtarıcın səninlədir!
O sənin üçün sevinib şadlanacaq, səni məhəbbəti ilə yeniləşdirəcək, sənin üçün tərənnümlə coşacaq!

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 33(32), 2-3. 11-12. 20-21**

**N: Rəbbi mədh edin, Ona yeni bir nəğmə oxuyun!**

Lira çalın, Rəbbə şükür edin,
on telli çənglə Onu tərənnüm edin,
Ona yeni bir nəğmə oxuyun, sevinc nidaları ilə çalın.

Rəbbin məsləhəti əbədi olar,
Ürəyinin məqsədi nəsillər ötsə də, qalar.
Nə bəxtiyardır o millət ki Allahı Rəbdir,

o xalq ki Rəbb onu irs olaraq seçmişdir.

**N: Rəbbi mədh edin, Ona yeni bir nəğmə oxuyun!**

Könlümüz Rəbbin yolunu gözlər,
Odur köməyimiz və sipərimiz.
Bizim qəlbimiz Onda sevinc tapır,
Müqəddəs isminə arxalanmışıq.

**Alleluya!**

Ey Emmanuel! Sən qanunverici və Padşahımızsan.
Ey Allahımız Rəbb, gəl bizi xilas et!

**Alleluya!**

## † İncil †

*Lk 1:39-45*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O vaxt Məryəm tələsik qalxıb Yəhudanın dağlıq bölgəsindəki bir şəhərə yollandı. O, Zəkəriyyənin evinə girib Elizaveti salamladı. Elizavet Məryəmin salamını eşidəndə bətnindəki körpə tərpəndi. Elizavet də Müqəddəs Ruhla dolub uca səslə çığırdı: «Sən qadınlar arasında xeyir-dualısan, sənin bətninin bəhrəsi də xeyir-dualıdır! Bu necə oldu ki, Rəbbimin anası yanıma gəlib? Bax sənin salamının səsi qulağıma çatanda bətnimdəki körpə sevinclə tərpəndi. Rəbbin ona dediyi sözlərin yerinə yetəcəyinə inanan qadın nə bəxtiyardır!».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 22.12.

**1-ci Şamuelin kitabından sözlər** *1 Şam 1:24-28*

Uşağı süddən ayırandan sonra Xanna onu üç buğa, bir efa un və bir tuluq şərabla birlikdə Rəbbin Şilodakı ibadətgahına apardı. Uşaq isə hələ balaca idi. Buğanı kəsəndən sonra uşağı Eliyə verdilər. Xanna dedi: «Ey ağam, canına and olsun, burada – sənin yanında durub Rəbbə yalvaran qadın mənəm. Yalvarışım bu uşaq üçün idi, Rəbb muradımı yerinə yetirdi. Mən onu Rəbbə əhd etmişdim və ömrü boyu Rəbbə həsr olunmalıdır». Sonra uşaq orada Rəbbə səcdə etdi.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Məzmur 1Şam 2: 1, 4-8**

**N: Rəbdə tapdığım sevincdən ürəyim cuşa gəlir.**

Rəbdə tapdığım sevincdən ürəyim cuşa gəlir,
Rəbb mənə böyük güc verir,
düşmənlərimin önündə öyünürəm,
çünki Sən məni qurtardığına görə sevinirəm.

İgidlərin yayları qırılır,
büdrəyənlər isə Onun qüdrəti ilə qurşanır.
Toxlar azuqə üçün muzdla işlərkən
aclar doyuzdurulur.
Sonsuz qadın yeddi övlad doğur,
çoxuşaqlı qadın isə tənha qalır.

Rəbb insanı həm öldürür, həm dirildir.
Ölülər diyarına həm endirir, həm çıxarır.
Rəbb yoxsulluq və var-dövlət göndərir,
alçaldır və yüksəldir.

O, yoxsulları toz-torpağın içindən götürür,
fəqirləri küllükdən çıxarır.
Onları hökmdarların yanında əyləşdirir,
onlara irs olaraq şərəf taxtını verir.

**Alleluya!**

Xalqların Padşahı və Kilsənin təməl daşı! Gəl və torpaqdan yaratdığın insanı xilas et.

**Alleluya!**

## † İncil †

*Lk 1:46-56*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O vaxt Məryəm dedi:
«Qəlbim Rəbbi ucaldır, Ruhum Xilaskarım Allaha görə şadlanır,
çünki O Öz qulunun yazıq halını gördü. Bundan sonra bütün nəsillər məni bəxtiyar sayacaq, çünki Qadir Olan mənim üçün böyük işlər etdi,
Onun adı müqəddəsdir!
Onun mərhəməti də nəsildən-nəslə Ondan qorxanlara göstərilər. O, qolu ilə qüdrətli işlər gördü, ürəklərində qürurla düşünənləri pərən-pərən saldı. Hökmdarları taxtlarından endirdi, məzlumları yüksəltdi. Acları nemətlərlə doydurdu, varlıları isə əliboş yola saldı. Rəbb gulu İsrailin imdadına çatdı, ata-babalarımıza vəd etdiyi kimi İbrahimə və onun nəslinə əbədilik mərhəmət göstərməyi yada saldı».
Məryəm Elizavetin yanında üç aya yaxın qalıb evinə qayıtdı.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 23.12.

**Peyğəmbər Malakinin kitabından sözlər** *Mal 3:1-4. 4: 5-6*

«Budur, Mən Öz elçimi göndərirəm. O, önümdə yol hazırlayacaq. Axtardığınız Xudavənd qəflətən Öz məbədinə gələcək. Görmək arzusunda olduğunuz Əhd Mələyi gələcək» deyir Ordular Rəbbi. «Ancaq Onun gələcəyi günə kim tab gətirə bilər? Zühur edəndə kim davam gətirə bilər? Çünki O, əridicinin odu, yuyucunun sabunu kimi olacaq. O, gümüş əridib təmizləyən adam kimi rəftar edəcək: Levililəri saflaşdırıb qızıl və gümüşü təmizləyən kimi təmizləyəcək. Beləcə salehliklə Rəbbə qurbanlar gətirəcəklər. Onda Yəhudanın və Yerusəlimin qurbanları əvvəlki vaxtlar, keçmiş illərdə olduğu kimi Rəbbə xoş gələcək.
Rəbbin böyük və dəhşətli günü gəlməzdən qabaq İlyas peyğəmbəri sizin yanınıza göndərəcəyəm. O, ataların ürəklərini oğullarına, oğullarının ürəklərini isə atalarına tərəf döndərəcək ki, daha Mən gəlib ölkəni lənətləyib məhv etməyim».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 25(24), 4-5. 8-9. 10+14**

**N: Başınızı qaldırıb yuxarı baxın, çünki satınalınmanız yaxınlaşır.**

Ya Rəbb, yollarını mənə göstər,
Öz yollarını mənə öyrət.
Məni haqq yolu ilə apar, həqiqətini mənə öyrət.
Məni qurtaran Allah Sənsən.

Rəbb xeyirxah və haqdır,
ona görə günahkara düz yol göstərir,
itaətkarları ədalət yolu ilə aparır,
Öz yolunu onlara öyrədir.

Kim Rəbbin əhdinə və göstərişlərinə bağlıdırsa,
Rəbb yolunda onun üçün xeyirxahlıq və sədaqət var.
Rəbb, Ondan qorxanlara sirrini açar,
onlara Öz əhdini öyrədər.

**Alleluya!**

Xalqların Padşahı və Kilsənin təməl daşı! Gəl və torpaqdan yaratdığın insanı xilas et.

**Alleluya!**

## † İncil †

*Lk 1:57-66*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Elizavetin doğmaq vaxtı çatdı. O, bir oğlan doğdu. Onun qohum-qonşuları Rəbbin ona böyük mərhəmət göstərdiyini eşidəndə onunla birgə sevindilər. Səkkizinci gün körpəni sünnət etməyə gəldilər. Ona atası Zəkəriyyənin adını qoymaq istədilər. Körpənin anası isə dedi: «Yox, onun adı Yəhya olacaq». Ona dedilər: «Axı qohumların arasında belə adı olan bir kəs yoxdur». Körpənin atasından körpəyə nə ad qoyulmasını işarə ilə soruşdular. O, bir yazı lövhəciyi istəyib yazdı: «Onun adı Yəhyadır». Hamı heyrətə gəldi. Həmin o anda Zəkəriyyənin dili açıldı. O, Allaha alqış etməyə başladı. Qonşuların hamısı qorxuya düşdü. Bütün bu hadisələr haqqında Yəhudeyanın dağlıq bölgəsinin hər yerində danışırdılar. Bu barədə eşidən hər bir kəs fikrə gedib deyərdi: «Bu körpə böyüyüb nə olacaq?» Çünki Rəbbin əli onun üzərində idi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT | 24.12.

**2-ci Şamuelin kitabından sözlər** *2 Şam 7:1-5. 8-12. 14.16*

Rəbb padşah Davuda ətrafında olan bütün düşmənlərinin əlindən rahatlıq verən zamanlarda Davud öz evində oturmuşdu. O vaxt padşah peyğəmbər Natana belə dedi: «Bax mən sidr ağacından tikilən bir sarayda yaşayıram, lakin Allahın sandığı isə bir çadırda qalır». Natan padşaha dedi: «Get, ürəyindəki niyyətini həyata keçir, çünki Rəbb səninlədir».
Lakin o gecə Natana Rəbbin bu sözü nazil oldu: «Get, qulum Davuda söylə ki, Rəbb belə deyir: "Sənmi Mənə yaşamaq üçün ev tikəcəksən? Mən səni otlaqlarda qoyun otaranda götürüb xalqım İsrailə hökmdar etdim. Getdiyin hər yerdə səninlə oldum və qarşından bütün düşmənlərini qırıb atdım. İndi isə adını dünyadakı böyüklərin adı kimi məşhur edəcəyəm. Xalqım İsrail üçün bir yer təyin edib onları oraya sakin edəcəyəm ki, öz yurdlarında yaşasınlar və bir daha sarsılmasınlar. Şər adamlar əvvəllər xalqım İsraillilərə hakimlər təyin etdiyim günlərdən bəri etdikləri kimi yenə də onlara zülm etməsinlər. Sənə bütün düşmənlərinin əlindən rahatlıq verəcəyəm". Rəbb sənə bildirir ki, Rəbb Özü sənə ev tikəcək. "Ömrün başa çatıb atalarınla uyuyanda yerinə sənin toxumundan – belindən gələn övladını çıxaracağam və onun padşahlığını möhkəmləndirəcəyəm. Mən ona Ata, o isə Mənə oğul olacaq. Sənin nəslin və padşahlığın Mənim qarşımda əbədi əmin-amanlıqda olacaq, taxtın isə əbədi möhkəm qalacaq"».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 89(88), 1-5. 26+28**

**N: Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam.**

Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam,
Sənin sədaqətini dilim hər nəslə deyəcək.
Deyirəm ki, məhəbbətin əbədiyaşardır,
Sədaqətin göylər qədər sarsılmazdır.

Dedin: «Öz seçdiyimlə əhd kəsmişəm,
qulum Davud üçün belə and içmişəm:
"Mən nəslini əbədi sarsılmaz edəcəyəm,
sülaləni taxtında sonsuzadək yaşadacağam"».

**N: Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam.**

Məni çağırıb deyəcək: "Atamsan, Allahımsan,
məni xilas edən Qaya Sənsən!"
Ona daim məhəbbətimi göstərəcəyəm,
sadiq qalıb əhdimi pozmayacağam.

**Alleluya!**

Parlaq Dan Ulduzu, əbədi işığın parlaqlığı və salehlik günəşi! Gəl qaranlıqda və ölümün kölgəsində oturanları nurlandır.

**Alleluya!**

## † İncil †

*Lk 1:67-79*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Yəhyanın atası Zəkəriyyə Müqəddəs Ruhla dolub belə peyğəmbərlik etdi: «Alqış olsun İsrailin Allahı Rəbbə! Çünki Öz xalqına nəzər salıb onları satın aldı. O, qulu Davudun nəslindən bizə qüdrətli Xilaskar yetirdi. Qədimdən bəri Öz müqəddəs peyğəmbərlərinin vasitəsilə bildirdiyi kimi düşmənlərimizdən və bizə nifrət edənlərin əlindən bizi xilas etdi. Beləcə ata-babalarımıza mərhəmət göstərib Öz müqəddəs Əhdini xatırladı. Atamız İbrahimə and içdiyi kimi bizə elə güc verdi ki, düşmənlərimizin əlindən qurtulub həyatımız boyu qorxmadan Rəbbin önündə müqəddəslik və salehliklə Ona ibadət edək.
Ey körpə, sən Haqq-Taalanın peyğəmbəri adlanacaqsan, çünki Rəbbin önündə gedəcəksən, Onun yolunu hazırlayacaqsan. Onun xalqına günahlarının bağışlanması ilə xilas olunmaları barədə bildirəcəksən. Axı Allahımızın ürəyi mərhəmətlidir, Onun bu mərhəmətinə görə ucalarda bizim üçün
Günəş doğacaq ki, zülmətdə və ölüm kölgəsində oturanların üzərinə nur saçsın, ayaqlarımızı sülh yoluna yönəltsin».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad Bayramının Ərəfəsi – 24.12.

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 62: 1-5*

Salehliyi nur kimi saçanadək, qurtuluşu məşəl tək yananadək Sion naminə susmayacağam, Yerusəlim naminə sakit durmayacağam. Millətlər salehliyini, bütün padşahlar əzəmətini görəcək. Rəbbin ağzı ilə deyəcəyi, sənə verəcəyi yeni bir adla çağırılacaqsan. Sən Rəbbin əlində gözəllik tacı, Allahının ovcunda padşahlıq çələngi olacaqsan. Artıq sənə «atılmış», ölkənə «viranə qalmış» deməyəcəklər. Əvəzinə sənə «sevdiyim», ölkənə isə «ərli» deyiləcək. Çünki Rəbb səni sevəcək, ölkən də ərli sayılacaq. Bir gənc bakirə qızla evləndiyi kimi səni Yaradan da səninlə evlənəcək. Bəy gəlindən zövq aldığı kimi Allahın da səndən zövq alacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 89(88), 3-4. 15-16. 26+28**

N: **Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam,**

Dedin: «Öz seçdiyimlə əhd kəsmişəm,
qulum Davud üçün belə and içmişəm:
"Mən nəslini əbədi sarsılmaz edəcəyəm,
sülaləni taxtında sonsuzadək yaşadacağam"».

Bayram şənliyində olan xalq nə bəxtiyardır!
Ya Rəbb, onlar Sənin üzünün nurunda gəzər.
İsminə görə daim sevinirlər,
Salehliyinə görə şərəfə çatırlar.

Məni çağırıb deyəcək: "Atamsan, Allahımsan,
məni xilas edən Qaya Sənsən!"
Ona daim məhəbbətimi göstərəcəyəm,
sadiq qalıb əhdimi pozmayacağam.

**Həvarilərin işləri kitabından sözlər** *Həv 13:16-17. 22-25*

Paul ayağa qalxıb diqqəti cəlb etmək üçün əlini qaldıraraq dedi: «Ey İsraillilər və Allahdan qorxanlar, qulaq asın. Bu xalqın, yəni İsraillilərin səcdə etdiyi Allah bizim ata-babalarımızı seçdi və Misirdə – qürbət eldə yaşadıqları müddət ərzində onları böyük bir millət etdi. Sonra əlini uzadıb onları Misirdən çıxartdı. Onu aradan götürəndən sonra Allah Davudu ucaldıb onların üzərində padşah etdi və onun barəsində şəhadət etdi: "Öz ürəyimə yatan adam olaraq Yessey oğlu Davudu tapdım və o Mənim bütün istədiklərimi yerinə yetirəcək". Allah Öz vədinə sadiq qalıb bu adamın soyundan olan Xilaskar İsanı İsrailə göndərdi. İsanın gəlişindən əvvəl Yəhya bütün İsrail xalqına vəz etmişdi ki, tövbə edib vəftiz olunsunlar. Yəhya işini qurtararkən dedi: "Məni kim sayırsınız? O Şəxs mən  deyiləm. Məndən sonra O gəlir. Mən Onun ayağındakı çarığını açmağa belə, layiq deyiləm".

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Sabah Yer üzünün günahı silinəcək və dünyanın Xilaskarı bizim üzərimizdə padşahlıq edəcək.

**Alleluya!**

## † İncil †

*Mt 1:1-25*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

*uzun variant:*

Davudun Oğlu, İbrahimin də Oğlu olan İsa Məsihin nəsil şəcərəsi:

İbrahimdən İshaq törədi. İshaqdan Yaqub törədi. Yaqubdan Yəhuda və onun qardaşları törədi. Yəhudadan Tamarın doğduğu Peres və Zerah törədi. Peresdən Xesron törədi. Xesrondan Ram törədi. Ramdan Amminadav törədi. Amminadavdan Naxşon törədi. Naxşondan Salmon törədi. Salmondan Raxavın doğduğu Boaz törədi. Boazdan Rutun doğduğu Oved törədi. Oveddən Yessey törədi. Yesseydən padşah Davud törədi.

Davuddan Uriyanın arvadının doğduğu Süleyman törədi. Süleymandan Rexavam törədi. Rexavamdan Aviya törədi. Aviyadan Asa törədi. Asadan Yehoşafat törədi. Yehoşafatdan Yehoram törədi.

Yehoramdan Uzziya törədi. Uzziyadan Yotam törədi. Yotamdan Axaz törədi. Axazdan Xizqiya törədi. Xizqiyadan Menaşşe törədi. Menaşşedən Amon törədi. Amondan Yoşiya törədi. Babil sürgünü zamanı Yoşiyadan Yekonya və onun qardaşları törədi.
Babil sürgünündən sonra Yekonyadan Şealtiel törədi. Şealtieldən Zerubbabil törədi. Zerubbabildən Avihud törədi. Avihuddan Elyaqim törədi. Elyaqimdən Azur törədi. Azurdan Sadoq törədi. Sadoqdan Yaxin törədi. Yaxindən Elihud törədi. Elihuddan Eleazar törədi. Eleazardan Mattan törədi. Mattandan Yaqub törədi. Yaqubdan Məryəmin əri Yusif törədi. Məryəmdən də Məsih adlanan İsa doğuldu.

Beləliklə, İbrahimdən Davuda qədər olan bütün nəsillər on dörd nəsildir, Davuddan Babil sürgününə qədər on dörd nəsildir, Babil sürgünündən Məsihə qədər də on dörd nəsildir.

İsa Məsihin doğulması belə oldu. Anası Məryəm Yusifə nişanlanmışdı. Amma birlikdə olmalarından əvvəl Məryəmin Müqəddəs Ruhdan hamilə olduğu aşkar oldu. Onun nişanlısı Yusif saleh bir adam idi və Məryəmi camaat arasında rüsvay etmək istəməyərək gizlicə boşamaq niyyətinə düşdü. Amma belə düşündüyü halda Rəbbin bir mələyi röyada ona görünüb dedi: «Davud oğlu Yusif! Məryəmi özünə arvad etməkdən qorxma, çünki onun bətnindəki körpə Müqəddəs Ruhdandır. Məryəm bir Oğul doğacaq və Onun adını İsa qoy, çünki O Öz xalqını günahlarından xilas edəcək».

Bütün bunlar Rəbbin peyğəmbər vasitəsilə söylədiyi bu söz yerinə yetsin deyə baş verdi: «Budur, bakirə qız hamilə olub Oğlan doğacaq, adını İmmanuel qoyacaqlar». «İmmanuel» «Allah bizimlədir» deməkdir.

Yusif yuxudan oyananda Rəbbin mələyinin buyurduğu kimi etdi və arvadını qəbul etdi. Amma Məryəm bir Oğul doğana qədər Yusif onunla yaxınlıq etmədi. Doğulan Körpənin adını İsa qoydu.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

*>>>> qısa variant:*

*qısa variant:*

## † İncil †

*Mt 1:18-25*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa Məsihin doğulması belə oldu. Anası Məryəm Yusifə nişanlanmışdı. Amma birlikdə olmalarından əvvəl Məryəmin Müqəddəs Ruhdan hamilə olduğu aşkar oldu. Onun nişanlısı Yusif saleh bir adam idi və Məryəmi camaat arasında rüsvay etmək istəməyərək gizlicə boşamaq niyyətinə düşdü. Amma belə düşündüyü halda Rəbbin bir mələyi röyada ona görünüb dedi: «Davud oğlu Yusif! Məryəmi özünə arvad etməkdən qorxma, çünki onun bətnindəki körpə Müqəddəs Ruhdandır. Məryəm bir Oğul doğacaq və Onun adını İsa qoy, çünki O Öz xalqını günahlarından xilas edəcək».

Bütün bunlar Rəbbin peyğəmbər vasitəsilə söylədiyi bu söz yerinə yetsin deyə baş verdi: «Budur, bakirə qız hamilə olub Oğlan doğacaq, adını İmmanuel qoyacaqlar». «İmmanuel» «Allah bizimlədir» deməkdir.

Yusif yuxudan oyananda Rəbbin mələyinin buyurduğu kimi etdi və arvadını qəbul etdi. Amma Məryəm bir Oğul doğana qədər Yusif onunla yaxınlıq etmədi. Doğulan Körpənin adını İsa qoydu.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad Bayramı
# İsanın dünyaya gəlməsi

(Milad gecəsi)

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 9:2-4. 6-7*

Zülmətdə yaşayan xalq möhtəşəm bir işıq gördü. Ölüm kölgəsi diyarında məskunlaşanların üzərinə nur doğdu. Ya Rəbb, milləti çoxaldıb sevinclərini artırdın, əkib-biçənlərin fərəhləndiyi, qənimət bölənlərin sevindiyi kimi onlar da Sənin hüzurunda sevindilər. Çünki onlara yük olan boyunduruğunu, çiyinlərini döyən çomağını, onlara zülm edənlərin dəyənəyini çilik-çilik etmisən Midyanlıların başlarına gətirdiyin gün kimi. Çünki bizim üçün körpə doğuldu, bizə oğul verildi, hakimiyyət onun çiyinləri üzərində olacaq, Onun adı Ecazkar Məsləhətçi, Qüdrətli Allah, Əbədi Ata, Sülh Hökmdarı olacaq. Hakimiyyətinin və sülhünün artmasının sonu olmayacaq, O, Davudun taxtı və padşahlığı üzərində hökm sürəcək, O, hakimiyyətini ədalətlə və salehliklə indidən sonsuzadək quracaq. Ordular Rəbbinin qeyrəti bunu edəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 96(95), 1-3. 11-13**

**N: Budur, Məsih doğuldu. O Allahımız və Xilaskarımızdır.**

Rəbbə yeni bir ilahi oxuyun,
ey bütün dünya, Rəbbə ilahi oxuyun,
İsminə alqış edin, Rəbbə ilahi oxuyun.

Xilaskar olduğunu hər gün müjdələyin.
Ehtişamını millətlərə elan edin,
xariqələrini bütün xalqlara bəyan edin!

Göylər sevinsin, yer üzü şad olsun,
dənizin və dənizdəki canlıların səsi ucalsın,
çöllər və çöldə yaşayanlar fərəhlənsin,
meşədəki bütün ağaclar mədh söyləsin Rəbbin hüzurunda!

O gəlir, dünyanın hökmünü vermək üçün gəlir,
Yer üzünün hökmünü ədalətlə,
xalqların hökmünü həqiqətlə verəcək!

**Müqəddəs Paulun Titə məktubundan sözlər** *Tit 2:11-14*

Allahın bütün insanlara xilas gətirən lütfü zühur etdi. Bu lütf bizə allahsızlığı və dünyəvi ehtirasları rədd edib, bu dövrdə ağıllı-kamallı, saleh və möminliyə uyğun bir ömür sürməyi öyrədir. Bu ərəfədə bəxtiyarlıq gətirən ümidimizin gerçəkləşməsini, ulu Allah və Xilaskarımız İsa Məsihin izzətinin zühurunu gözləyək. O Özünü bizim üçün fəda etdi ki, bizi hər cür qanunsuzluqdan satın alsın, təmizləyib Özünə məxsus və yaxşı işlərə səy göstərən bir xalq yaratsın.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Sizə çox sevindirəcək bir Müjdə gətirmişəm. Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir.

**Alleluya!**

**† İncil †**

*Lk 2: 1-14*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O günlərdə qeysər Avqust bütün Roma ölkəsi üçün siyahıyaalma keçirmək barəsində fərman verdi. Bu ilk siyahıyaalma Kirini Suriyanın valisi olanda keçirilmişdi. Hamı siyahıya alınmaq üçün öz şəhərinə yollandı. Yusif də Davudun əsil-nəslindən olduğuna görə Qalileyanın Nazaret şəhərindən çıxıb Yəhudeyaya, Davudun şəhəri olan Bet-Lexemə yollandı. O oraya hamilə olan nişanlısı Məryəmlə birlikdə siyahıya alınmaq üçün getdi. Onlar orada olarkən Məryəmin doğuş vaxtı çatdı. O, ilk Oğlunu doğdu. Körpəni bələyib axura qoydu, çünki qonaq evində onlara yer tapılmadı.
O ərazidə sürülərinin yanında gecə növbəsini çəkən çobanlar var idi. Onlar çöldə gecələyirdi. Birdən Rəbbin bir mələyi onların qarşısında zühur etdi və Rəbbin ehtişamı onların üzərinə nur saçdı. Çobanları böyük qorxu bürüdü. Mələk onlara dedi: «Qorxmayın! Mən sizə bütün xalqı çox sevindirəcək bir Müjdə gətirmişəm. Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir. Sizə əlamət bu olacaq: axurda yatan bələnmiş Körpə tapacaqsınız». Qəflətən mələyin yanında Allaha həmd edən çoxsaylı səmavi ordu göründü. Onlar belə deyirdi: «Ən ucalarda Allaha izzət, Yer üzündə Onun razı olduğu insanlara sülh olsun!»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad Bayramı
# İsanın dünyaya gəlməsi

(Şəfəq Vaxtı Ayini)

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 62:11-12*

Rəbb yer üzünün ən uzaq yerlərinə bəyan etdi: «Sion qızına deyin: "Budur, qurtuluşun gəlir, Rəbbin mükafatı onunladır, Ənamı önündədir"». Sion xalqına «Rəbbin satın aldığı, müqəddəs xalq» deyəcəklər. Sən, ey Yerusəlim, «Allahın axtardığı, tərk olmamış şəhər» adlanacaqsan.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 97(96), 1+6. 11-12**

**N: Bu gün üstümüzdə işıq parlayır, çünki Rəbb bizim üçün doğuldu.**

Rəbb hökmranlıq edir, qoy yer üzü şadlıq etsin,
qoy bütün adalar sevinsin.
Göylər salehliyini bəyan edər,
əzəmətini bütün xalqlar görər.

Salehlərin üstünə nur tökülər,
ürəyidüz olanların üstünə sevinc səpilər.
Ey salehlər, Rəbbə görə sevinin,
Onun müqəddəs adına şükür edin!

**Müqəddəs Paulun Titə məktubundan sözlər** *Tit 3:4-7*

Xilaskarımız Allah xeyirxahlığını və insana olan sevgisini açıq göstərdiyi zaman bizim salehliklə etdiyimiz əməllərlə deyil, Öz mərhəmətinə görə bizi xilas etdi. Bunu bizi yumaqla, yəni Müqəddəs Ruhun bizi yenidən doğuzdurub təzələməsi ilə etdi. Allah Xilaskarımız İsa Məsih vasitəsilə üzərimizə bol-bol Müqəddəs Ruhu tökdü ki, Onun lütfü ilə saleh sayılıb ümidimiz olan əbədi həyatın varisi olaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Ən ucalarda Allaha izzət, Yer üzündə Onun razı olduğu insanlara sülh olsun!

**Alleluya!**

## † İncil †

*Lk 2:15-20*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Mələklər çobanları tərk edib göyə qalxandan sonra onlar bir-birinə dedi: «Gəlin Bet-Lexemə gedək və Rəbbin bizə bildirdiyi bu baş vermiş hadisəni görək». Onlar tələsik getdilər. Məryəmi, Yusifi və axurda yatan Körpəni tapdılar. Çobanlar Körpəni görəndə Onun haqqında onlara nəql edilənləri bildirdilər. Bunu eşidənlərin hamısı çobanların sözlərindən heyrətə gəldi. Məryəm isə bütün bu şeyləri dərin düşünərək öz ürəyində saxlayırdı. Çobanlar bütün gördükləri və eşitdiklərinə görə Allahı izzətləndirib həmd edərək geri qayıtdılar. Çünki hər şey onlara söylənən kimi baş vermişdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad Bayramı
# İsanın dünyaya gəlməsi

(Gündüz ayini)

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 52:7-10*

Sülh xəbəri gətirən, dağları aşıb-gələn müjdəçinin qədəmləri necə də gözəldir! O, xoş müjdə gətirir, qurtuluş xəbəri verir, Sion xalqına «Allahınız hökm sürür!» bəyan edir. Qulaq asın! Gözətçilər səslərini ucaldır, birlikdə mədh oxuyur, çünki Rəbbin Siona qayıdışını Öz gözləri ilə görür. Ey Yerusəlim xarabalıqları, şənlik edin, birlikdə mədh oxuyun, çünki Rəbb xalqına təsəlli verdi, Yerusəlimi satın aldı. Rəbb bütün millətlərin gözləri önündə Müqəddəs qolunu çırmaladı, Yer üzünün qurtaracağınadək hər yer Allahımızın gətirdiyi xilası görəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 98(97), 1-4**

**N: Yer üzünün hər yerdə Allahımızın zəfərini gördü.**

Rəbbə yeni bir ilahi oxuyun,
çünki O, xariqələr yaratdı.
O, sağ əli ilə,
Öz müqəddəs qolu ilə zəfərlər qazandı.

Rəbb zəfərini bəyan etdi,
millətlərin gözündə salehliyini aydın göstərdi.
İsrail nəslinə
göstərdiyi məhəbbətini və sədaqətini xatırladı.

Yer üzünün qurtaracağınadək hər yerdə
Allahımızın zəfərini gördü.
Ey bütün dünya, cuşa gəlib Rəbbə nida et,
birdən nida edin, mədh, tərənnüm səsini ucaldın!

Rəbbi lira ilə –
Lira ilə, ilahi bir səslə tərənnüm edin!
Kərənay, şeypur səsi ilə,
Padşah olan Rəbbin hüzurunda cuşa gəlin,
Ona nida edin!

## İbranilərə məktubdan sözlər

*İbr 1:1-6*

Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza peyğəmbərlər vasitəsilə müraciət etmişdi. Amma bu axır zamanda O bizə Oğul vasitəsilə müraciət etdi; Onu hər şeyin varisi təyin etmişdi və Onun vasitəsilə kainatı yaratmışdı. Oğul Allahın izzətinin əksi və mahiyyətinin tam surətidir. O hər şeyi qüdrətli kəlamı ilə saxlayır. O, günahlardan təmizlənməni təmin edəndən sonra ucalarda möhtəşəm Allahın sağında oturdu. Mələklərdən nə qədər üstün adı irs olaraq aldısa, o qədər onlardan üstün oldu. Axı Allah mələklərin hansına nə vaxtsa «Sən Mənim Oğlumsan, Mən bu gün Sənə Ata oldum» yaxud «Mən Ona Ata, O isə Mənə Oğul olacaq» demişdir? Yenə də Allah İlk Doğulanı dünyaya gətirəndə deyir: «Allahın bütün mələkləri qoy Onun qarşısında səcdə etsin».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Alleluya!

Müqəddəs gün üzərimizə işıq saçdı: gəlin, ey millətlər, Rəbbə səcdə edin. Bu gün Yer üzünə böyük bir işıq endi.

**Alleluya!**

## † İncil †

*Yəh 1:1-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi.
O, başlanğıcda Allahla birlikdə idi. Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı. Həyat Onda idi və bu həyat insanların nuru idi. Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi. Allahın göndərdiyi bir adam ortaya çıxdı, onun adı Yəhya idi. O, şəhadət üçün gəldi ki, Nur barədə şəhadət etsin və hamı onun vasitəsilə iman etsin.
O özü Nur deyildi, amma Nur barədə şəhadət etmək üçün gəldi.
Bu, həqiqi Nur idi və dünyaya gələrək hər bir insanı işıqlandırırdı. O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı. Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi. Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi.

Onlar nə qandan, nə bəşər arzusundan, nə də kişi istəyindən deyil, yalnız Allahdan doğuldu.
Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı; biz də Onun ehtişamını – Atadan gələn vahid Oğulun ehtişamını gördük. Yəhya Onun barəsində şəhadət etdi və nida edib dedi: «"Məndən sonra Gələn məndən üstündür, çünki məndən əvvəl var idi" deyib haqqında danışdığım Şəxs budur». Hamımız Onun bütövlüyündən lütf üstünə lütf aldıq. Qanun Musa vasitəsilə verildi, lütf və həqiqət isə İsa Məsih vasitəsilə gəldi. Allahı heç kəs heç vaxt görməyib, amma Atanın qucağında olan və Allah olan vahid Oğul Onu tanıtdı.

K: Bu Rəbbin Kəlamıdır. * M: Rəbb İsa Məsih, Sənə həmd olsun.

***Qısa variant***

*Yəh 1:1-5. 9-14*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəref Rəbbindir.**

Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi. O, başlanğıcda Allahla birlikdə idi. Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı. Həyat Onda idi və bu həyat insanların nuru idi. Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi. Bu, həqiqi Nur idi və dünyaya gələrək hər bir insanı işıqlandırırdı. O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı. Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi. Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi. Onlar nə qandan, nə bəşər arzusundan, nə də kişi istəyindən deyil, yalnız Allahdan doğuldu. Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı; biz də Onun ehtişamını – Atadan gələn vahid Oğulun ehtişamını gördük.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 26.12. (Mqd. Stefanın bayramı)

## Həvarilərin işləri kitabından sözlər *Həv 6:8-10, 7:54-59*

Lütf və qüvvə ilə dolu olan Stefan xalq arasında böyük xariqə və əlamətlər göstərirdi. Belə olanda Azadlar Sinaqoqu adlanan sinaqoqun bəzi üzvləri, Kirenalılardan, İsgəndəriyyəlilərdən, Kilikiyadan və Asiya vilayətindən bəzi insanlar Stefana qarşı çıxıb onunla mübahisəyə başladılar. Amma Stefanın sözündəki hikmətin və Ruhun qarşısında dayana bilmədilər. Ali Şuranın üzvləri bu sözləri eşidəndə çox qəzəbləndilər və Stefana dişlərini qıcırtdılar. Müqəddəs Ruhla dolan Stefan isə gözlərini göyə dikib Allahın ehtişamını və Allahın sağında dayanan İsanı gördü. O dedi: «Baxın, mən göylərin yarıldığını və Bəşər Oğlunun Allahın sağında dayandığını görürəm». Onlar qulaqlarını tutub haray qopardılar və hamısı birlikdə Stefanın üstünə hücum çəkdilər. Onu şəhərdən kənara çıxarıb daşqalaq etdilər. Stefanın əleyhinə şahidlik edənlər öz üst geyimlərini Şaul adlı bir gəncin ayaqları altına qoydular. Stefan üstünə yağan daşlar altında belə yalvarırdı: «Ya Rəbb İsa, ruhumu qəbul et».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Zəbur 31(30), 2c-3. 5+7. 15-16

**N: Ya Rəbb, Ruhumu Sənin əlinə verirəm.**

Bir qaya ol, qoy sığınım,
möhkəm bir qala ol, qoy qurtulum.
Çünki qayam da Sən, qalam da Sənsən!
Öz ismin naminə mənə yol göstərib rəhbərlik et.

Ruhumu Sənin əlinə verirəm,
ya Rəbb, sadiq Allah, Sən məni azad et.
Mən Sənin məhəbbətində şad olub sevinəcəyəm,
çünki məzlum halımı görmüsən.

Düşmənlərimin, təqibçilərimin əlindən
Məni azad et.
Bəndənin üstünə üzünün nurunu sal,
Məhəbbətinlə məni qurtar.

**Alleluya!**

Rəbbin ismi ilə gələnə alqış olsun! Rəbb Allahdır, O, üzərimizə nur saçdı.

**Alleluya!**

## † İncil †

*Mt 10:17-22*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa şagirdlərinə dedi: İnsanlardan özünüzü gözləyin. Çünki sizi məhkəmələrə çəkəcək, sinaqoqlarında qamçılayacaqlar. Onlara və millətlərə şəhadət etmək üçün siz Mənə görə valilərin, padşahların qarşısına aparılacaqsınız. Onlar sizi təslim edəndə necə və ya nə deyəcəyiniz barədə qayğı çəkməyin. Nə deyəcəyiniz həmin vaxt sizə bildiriləcək, çünki danışan siz yox, sizdə danışan Atanızın Ruhudur. Qardaş qardaşı, ata övladını ölümə təslim edəcək. Övladlar ata-anasına qarşı çıxıb onları edam etdirəcək. Mənim adıma görə hamı sizə nifrət edəcək. Amma axıracan dözən xilas olacaq.

K: Bu Rəbbin Kəlamıdır. * M: Rəbb İsa Məsih, Sənə həmd olsun.

# Milad dövrü – 27.12.
# (Mqd. Yəhyanın bayramı)

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 1:1-4*

Biz Həyat Kəlamını elan edirik; bu həmin Kəlamdır ki, başlanğıcdan var idi və biz Onu eşitdik, gözlərimizlə gördük, seyr etdik və əllərimizlə hiss etdik. Həyat zahir oldu, biz də onu görüb şahidlik edirik və Ata ilə birlikdə olub bizə zahir olan əbədi həyatı sizə elan edirik. Biz sizə gördüyümüzü və eşitdiyimizi elan edirik ki, sizin də bizimlə şərikliyiniz olsun; bizim şərikliyimiz də Ata və Onun Oğlu İsa Məsihlədir. Biz bunları yazırıq ki, sevincimiz kamil olsun.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 97(96), 1-2. 5-6. 11-12**

**N: Ey salehlər, Rəbbə görə sevinin!**

Rəbb hökmranlıq edir, qoy yer üzü şadlıq etsin,
qoy bütün adalar sevinsin.
Buludlar və zülmət Onun ətrafındadır,
salehliklə ədalət taxtının təməlidir.

Dağlar Rəbbin hüzurunda –
bütün yer üzünün Sahibinin hüzurunda mum tək əriyər.
Göylər salehliyini bəyan edər,
əzəmətini bütün xalqlar görər.

Salehlərin üstünə nur tökülər,
ürəyidüz olanların üstünə sevinc səpilər.
Ey salehlər, Rəbbə görə sevinin,
Onun müqəddəs adına şükür edin!

**Alleluya!**

Səni mədh edirik, ey Allah, Səni etiraf edirik, ey Rəbb.
Şöhrətli həvarilər xoru Səni tərifləyir.
**Alleluya!**

## † İncil †

*Yəh 20: 2-8*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Onda qaçıb Şimon Peterlə İsanın sevimlisi olan o biri şagirdin yanına gəldi və onlara dedi: «Rəbbi qəbirdən aparıblar və hara qoyulduğunu bilmirik». Peterlə o biri şagird bayıra çıxıb qəbirə tərəf getdilər. İkisi birgə qaçırdı, amma o biri şagird Peterdən daha cəld qaçdı və qabaqca qəbirə o çatdı. Əyilib içəri baxdı və kətan bezlərin düşüb-qaldığını gördü, ancaq içəri girmədi. O vaxt onun ardınca Şimon Peter də gəlib qəbirə girdi. O, düşüb-qalan kətan bezləri və İsanın başına qoyulmuş dəsmalı gördü. Dəsmal kətan bezlərin yanında deyil, başqa bir yerdə bükülü qalmışdı. Onda qəbirin yanına qabaqca gələn o biri şagird də içəri girib bunları gördü və iman etdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 28.12. (Mqd. Bet-Lexemdəki şəhidlərin bayramı)

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 1:5-2:2*

Məsihdən eşitdiyimiz və sizə elan etdiyimiz xəbər budur: Allah nurdur və Onda zərrə qədər də qaranlıq yoxdur. Əgər biz «Allahla şərikliyimiz var» dediyimiz halda qaranlıqda gəziriksə, demək, yalan danışırıq və həqiqətə əməl etmirik. Amma O, nurda olduğu kimi biz də nurda gəziriksə, onda bir-birimizlə şərikliyimiz var və Onun Oğlu İsanın qanı bizi hər günahdan təmizləyir. Əgər günahsız olduğumuzu iddia ediriksə, özümüzü aldadırıq və daxilimizdə həqiqət yoxdur. Amma günahlarımızı etiraf ediriksə, Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək. Əgər günahkar olmadığımızı iddia ediriksə, onda Onu yalançı yerinə qoyuruq və daxilimizdə Onun sözü olmur.
Övladlarım, bunları sizə yazıram ki, günah etməyəsiniz. Əgər kimsə günah etsə belə, Atanın hüzurunda Vəsatətçimiz var; O, saleh olan İsa Məsihdir. O bizim günahlarımıza görə – təkcə bizim günahlarımıza görə deyil, bütün dünyanın günahlarına görə kəffarə qurbanıdır.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 124(123), 1b-2. 4-5. 7-8**

**N: Canımız ovçunun tələsindən bir quş kimi azad olundu.**

Rəbb tərəfimizi saxlamasaydı,
bizə qarşı insanlar qalxarkən
Rəbb tərəfimizi saxlamasaydı,
bizə qarşı qəzəblərindən yanarkən
bizi diri-diri udardılar.

Sular bizi yuyub-apardı,
sellər üstümüzü basardı,
azğın sular üstümüzü basardı,
Rəbb tərəfimizi saxlamasaydı.

Bizi ovçunun tələsindən bir quş kimi qurtardı,
tələ qırıldı, canımız azad oldu.
Bizə Rəbbin adından,
göyləri və yeri yaradandan yardım gəlir.

**Alleluya!**

Səni mədh edirik, ey Allah, Səni etiraf edirik, ey Rəbb. Nurlu şəhid qoşunu Səni tərifləyir.

**Alleluya!**

## † İncil †

*Mt 2:13-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Müdrik adamlar yola düşəndən sonra Rəbbin bir mələyi Yusifə röyada görünərək dedi: «Qalx, Körpə ilə anasını götür, Misirə qaç. Mən sənə xəbər verənə qədər orada qal. Çünki Hirod Körpəni öldürmək üçün axtarmağa başlayır». Beləliklə, Yusif qalxdı, həmin gecə Körpə ilə anasını götürüb Misirə yollandı. Hirod ölənə qədər orada qaldı. Bu, Rəbbin peyğəmbər vasitəsilə söylədiyi söz yerinə yetsin deyə baş verdi: «Öz Oğlumu Misirdən çağırdım».
Hirod müdrik adamlar tərəfindən axmaq yerinə qoyulduğunu görəndə çox hiddətləndi. O, müdrik adamlardan öyrəndiyi vaxta görə Bet-Lexem və onun ətrafında yaşayan iki və iki yaşdan aşağı körpə oğlan uşaqlarını öldürtdü. Beləliklə, Yeremya peyğəmbər vasitəsilə söylənən bu söz yerinə yetdi: «Ramada bir səs eşidildi, ağlaşma və böyük fəryad səsləri! Rəhilə uşaqları üçün ağlayır, təsəlli istəmir.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 29.12.      *(Oktava “5”)*

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 2:3-11*

Onu tanıdığımızı bundan bilirik ki, Onun əmrlərinə riayət edirik. Kim «Onu tanıyıram» deyir, amma Onun əmrlərinə riayət etmirsə, yalançıdır və onun daxilində həqiqət yoxdur.  Lakin kim Onun sözünə riayət edirsə, Allah məhəbbəti onda, həqiqətən, kamilliyə çatıb. Bundan bilirik ki, biz Allahdayıq. Kim Onda qaldığını deyirsə, İsa Məsihin həyat sürdüyü kimi həyat sürməlidir. Sevimlilər, sizə yeni əmr yazmıram, əvvəldən bəri malik olduğunuz qədim bir əmri yazıram; qədim əmr isə eşitdiyiniz sözdür. Yenə də sizə yeni bir əmr yazıram; bunun həqiqi olduğu Məsihdə və sizdə görünür. Çünki qaranlıq keçir və həqiqi nur artıq parlayır. Kim nurda olduğunu deyir, amma qardaşına nifrət edirsə, hələ də qaranlıqdadır. Qardaşını sevən nurda qalır və onda büdrəmə səbəbi yoxdur. Amma qardaşına nifrət edən qaranlıqdadır. O, qaranlıqda gəzir və hara getdiyini bilmir, çünki qaranlıq onun gözlərini kor edib.

Bu Allahın Kəlamıdır. *  **M: Allaha şükürlər olsun.**

**Zəbur 96(95), 1-2a. 2b-3. 5b-6**

N:  **Göylər sevinsin, yer üzü şad olsun!**

Rəbbə yeni bir ilahi oxuyun,
ey bütün dünya, Rəbbə ilahi oxuyun,
İsminə alqış edin, Rəbbə ilahi oxuyun.

Xilaskar olduğunu hər gün müjdələyin.
Ehtişamını millətlərə elan edin,
xariqələrini bütün xalqlara bəyan edin!

Göyləri yaradan Rəbdir.
Ehtişam və əzəmət hüzurundadır,
Müqəddəs məkanında gözəlliklə qüdrət var.

**Alleluya!**

Rəbb millətlərə aşkar olunmuş nur və xalqın İsrail üçün də izzətidir.

**Alleluya!**

## † İncil †

*Lk 2:22-35*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Musanın Qanununa görə paklanma dövrü tamamlanandan sonra Yusiflə Məryəm Körpəni Rəbbə həsr etmək üçün Yerusəlimə gətirdilər, necə ki Rəbbin Qanununda yazılıb: «Bətndən ilk doğulan bütün oğlanlar Rəbb üçün müqəddəs sayılsın». Həmçinin onlar qurban təqdim etdilər, necə ki Rəbbin Qanununda əmr olunub: «İki qumru quşu yaxud iki göyərçin balası».
O vaxt Yerusəlimdə Şimeon adlı bir adam var idi. O, saleh və mömin idi. İsrailə təsəlli veriləcəyini gözləyirdi və Müqəddəs Ruh onun üzərində idi. Müqəddəs Ruh ona əvvəlcədən açıqlamışdı ki, o, Rəbbin Məsihini görməyincə ölməyəcək. Beləliklə, Şimeon Ruhdan ilham alıb məbədə gəldi. Körpənin ata-anası Qanunda qoyulan adətə əməl etmək üçün Körpə İsanı məbədə gətirəndə Şimeon Körpəni qucağına götürdü və Allaha alqış edərək belə dedi: «Ey Pərvərdigar, indi Sənin sözünə görə mən – Sənin qulun arxayın ölə bilərəm. Çünki bütün xalqların gözləri önündə hazırladığın xilası, millətlərə aşkar edən nuru, xalqın İsrail üçün də izzəti Öz gözlərimlə gördüm».
Körpənin ata-anası Onun barəsində deyilən sözlərə görə heyrətə gəldi. Şimeon onlara xeyir-dua verib Körpənin anası Məryəmə belə dedi: «Bu Körpə İsraildə bir çox adamın yıxılmasının ya ucalmasının səbəbkarı və insanların rədd etdiyi bir əlamət olmaq üçün təyin olunub.
Sənin köksünə isə sanki qılınc saplanacaq. Bütün bunlar bir çoxlarının qəlbindəki fikirlərin aşkara çıxması üçün olacaq».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 30.12. *(Oktava “6”)*

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 2:12-17*

Ey övladlar, sizə yazıram, çünki Onun adı naminə günahlarınız bağışlanıb. Ey atalar, sizə yazıram, çünki başlanğıcdan bəri Var Olanı tanıyırsınız. Ey gənclər, sizə yazıram, çünki şər olana qalib gəlmisiniz. Ey uşaqlar, sizə yazdım, çünki Atanı tanıyırsınız. Ey atalar, sizə yazdım, çünki başlanğıcdan bəri Var Olanı tanıyırsınız. Ey gənclər, sizə yazdım, çünki güclüsünüz, Allahın kəlamı sizdə qalır, şər olana da qalib gəlmisiniz. Dünyanı və dünyada olan şeyləri sevməyin. Kim dünyanı sevirsə, onda Atadan olan məhəbbət yoxdur. Çünki dünyada olan hər şey – cismani ehtiraslar, acgözlük və dünya malına görə təkəbbür Atadan yox, dünyadan gəlir. Dünya və ondakı ehtiraslar keçib-gedir, amma Allahın iradəsinə əməl edən əbədi qalır.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 96(95), 7-8a, 8b,9,10**

**N: Göylər sevinsin, yer üzü şad olsun!**

Ey xalqların tayfaları, Rəbbə verin –
İzzəti, qüdrəti Rəbbə verin,
Adına layiq izzəti Rəbbə verin.

Həyatinə girib təqdimlər verin.
Müqəddəslik zinəti ilə Rəbbə səcdə edin,
ey bütün dünya, Onun hüzurunda lərzəyə gəlin!

Millətlərə belə elan edin: «Rəbb hökmranlıq edir,
O, dünyanı sarsılmaz və möhkəm qurub,
O, insafla xalqların hökmünü verəcək».

**Alleluya!**

Müqəddəs gün üzərimizə işıq saçdı: gəlin, ey millətlər, Rəbbə səcdə edin.
Bu gün Yer üzünə böyük bir işıq endi.

**Alleluya!**

## † İncil †

*Lk 2:36-40*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Orada Aşer qəbiləsindən olan Penuel qızı Xanna adlı qadın peyğəmbər də var idi. O, çox yaşlı idi. Gənc yaşında ərə getmiş, əri ilə yeddi il yaşayıb dul qalmışdı. Bu, səksən dörd yaşında dul qadın idi. O, məbədi tərk etmirdi və oruc tutub dua edərək gecə-gündüz Rəbbə ibadət edirdi. Xanna da bu zaman yaxınlaşdı və Allaha şükür edərək Yerusəlimin satın alınmasını gözləyən bütün adamlara Körpə İsa barədə nəql etməyə başladı.
Yusiflə Məryəm Rəbbin Qanununa əsasən hər şeyi icra edib qurtardıqdan sonra Qalileyaya – öz şəhərləri olan Nazaretə qayıtdı. Uşaq böyüyür, qüvvətlənir və hikmətdə yetkinləşirdi. Allahın lütfü də Onun üzərində idi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 31.12.   *(Oktava “7”)*

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 2:18-21*

Ey uşaqlar, axır zamandır. Siz «Məsih əleyhdarı»nın gələcəyini eşitmisiniz, indi də çoxlu Məsih əleyhdarı meydana çıxıb. Bundan bilirik ki, axır zamandır. Onlar bizim aramızdan çıxdılar, amma bizə məxsus deyildilər. Əgər bizə məxsus olsaydılar, bizimlə qalardılar. Amma qalmadılar ki, heç birinin bizə məxsus olmadığı aşkara çıxsın. Lakin siz Müqəddəs Olandan bir məsh almısınız və hamınız biliklisiniz. Mən sizə həqiqəti bilmədiyiniz üçün deyil, onu bildiyiniz üçün yazdım; siz bunu da bilirsiniz ki, heç bir yalanın həqiqətlə əlaqəsi yoxdur.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 96(95), 1-2. 11-13**

**N: Göylər sevinsin, yer üzü şad olsun!**

Rəbbə yeni bir ilahi oxuyun,
ey bütün dünya, Rəbbə ilahi oxuyun,
İsminə alqış edin, Rəbbə ilahi oxuyun.

Xilaskar olduğunu hər gün müjdələyin.
Göylər sevinsin, yer üzü şad olsun,
dənizin və dənizdəki canlıların səsi ucalsın,
çöllər və çöldə yaşayanlar fərəhlənsin.

Meşədəki bütün ağaclar mədh söyləsin
Rəbbin hüzurunda!
O gəlir, dünyanın hökmünü vermək üçün gəlir,
Yer üzünün hökmünü ədalətlə,
xalqların hökmünü həqiqətlə verəcək!

**Alleluya!**

Kəlam bəşər olub aramızda məskən saldı. Onu qəbul edənlərə Allahın övladları olmaq ixtiyarını verdi.

**Alleluya!**

## † İncil †

*Yəh 1:1-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi. O, başlanğıcda Allahla birlikdə idi. Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı. Həyat Onda idi və bu həyat insanların nuru idi. Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi.
Allahın göndərdiyi bir adam ortaya çıxdı, onun adı Yəhya idi. O, şəhadət üçün gəldi ki, Nur barədə şəhadət etsin və hamı onun vasitəsilə iman etsin. O özü Nur deyildi, amma Nur barədə şəhadət etmək üçün gəldi.
Bu, həqiqi Nur idi və dünyaya gələrək hər bir insanı işıqlandırırdı. O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı. Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi. Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi. Onlar nə qandan, nə bəşər arzusundan, nə də kişi istəyindən deyil, yalnız Allahdan doğuldu.
Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı; biz də Onun ehtişamını – Atadan gələn vahid Oğulun ehtişamını gördük.
Yəhya Onun barəsində şəhadət etdi və nida edib dedi: «“Məndən sonra Gələn məndən üstündür, çünki məndən əvvəl var idi” deyib haqqında danışdığım Şəxs budur». Hamımız Onun bütövlüyündən lütf üstünə lütf aldıq. Qanun Musa vasitəsilə verildi, lütf və həqiqət isə İsa Məsih vasitəsilə gəldi. Allahı heç kəs heç vaxt görməyib, amma Atanın qucağında olan və Allah olan vahid Oğul Onu tanıtdı.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Ailənin Bayramı

**A ili**

**Sirax kitabından sözlər** *Sirax 3:2-6. 12-14*

Rəbb övladlar üzərində ataya şərəf vermişdir, oğullar üzərində anaya haqq vermişdir. Atasına ehtiram göstərən kəsin günahları bağışlanır. Anasına hörmət edən kəs sərvət əldə edən adam kimidir. Atasına ehtiram göstərən öz uşaqlarından sevinc tapacaq. Dua etdiyi gün yalvarışı eşidiləcək. Atasına hörmət edənin ömrü uzun olar, anasına rahatlıq verən Rəbbə itaət etmiş olur. Övladım, atan qocalanda ona kömək ol, ömrü boyu onu kədərləndirmə. Əgər valideynin ağlı zəifləyirsə, ona iltifat göstər, özün tam sağlam ikən ona həqarətlə yanaşma. Çünki ataya göstərilən mehribanlıq unudulmaz, günahların nəticəsində dağılan həyatın bərpa olar.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 128(127), 1-2. 3. 4-5**

**N: Nə bəxtiyardır Rəbdən qorxan, Onun yolları ilə gedən insan!**

Nə bəxtiyardır Rəbdən qorxan,
Onun yolları ilə gedən insan!
Çünki öz əlinin bəhrəsini yeyəcəksən,
xoşbəxt olub uğur qazanacaqsan.

Evində arvadın tənək kimi bar gətirəcək,
övladların zeytun pöhrələri kimi süfrənin ətrafını bürüyəcək.

Rəbdən qorxan insan belə xeyir-dua alacaq:
Rəbb Siondan sənə xeyir-dua versin,
ömür boyu Yerusəlimin xoşbəxtliyini görəsən.

**Müqəddəs Paulun Koloslulara məktubundan sözlər** *Kol 3:12-21*

Qardaşlar və bacılar! Allahın seçilmişləri, müqəddəsləri və sevimliləri kimi ürəkdən şəfqət, xeyirxahlıq, təvazökarlıq, həlimlik və səbirlilik geyin. Bir-birinizə təhəmmül edin və birinizin digərindən şikayəti varsa, bağışlayın. Məsih sizi bağışladığı kimi, siz də bir-birinizi bağışlayın. Bütün bunlarla yanaşı, kamil birliyin bağı olan məhəbbəti geyin. Məsihin sülhü qoy ürəklərinizdə hakim olsun. Bir bədənin üzvləri kimi bu sülhə dəvət olundunuz. Və şükür edənlər olun!



Advent, Milad

Qoy Məsihin kəlamı bütün zənginliyi ilə içinizdə yaşasın. Məzmurlarla, ruhani nəğmələr və mahnılarla bir-birinizə tam hik.mətlə təlim və nəsihət verin; ürəklərinizdə Rəbbə minnətlə nəğmə oxuyun. Sözdə və əməldə nə etsəniz, hər şeyi Rəbb İsanın naminə edin, Onun vasitəsilə Ata Allaha şükür edin.
Ey qadınlar, Rəbbə aid olanlara layiq olduğu kimi, ərlərinizə tabe olun. Ey ərlər, öz arvadlarınızı sevin və onlarla sərt davranmayın. Ey uşaqlar, hər vəchlə valideynlərinizə itaət edin; çünki bu, Rəbbə məqbuldur.
Ey atalar, övladlarınızı hirsləndirməyin ki, onlar məyus olmasınlar.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *(Kol 3:15a-16a)*

Məsihin sülhü qoy ürəklərinizdə münsiflik etsin. Qoy aranızda Məsihin kəlamı bütün zənginliyi ilə yaşasın.

**Alleluya!**

## † İncil † *Mt 2:13-15. 19-23*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Müdrik adamlar yola düşəndən sonra Rəbbin bir mələyi Yusifə röyada görünərək dedi: «Qalx, Körpə ilə anasını götür, Misirə qaç. Mən sənə xəbər verənə qədər orada qal. Çünki Hirod Körpəni öldürmək üçün axtarmağa başlayır». Beləliklə, Yusif qalxdı, həmin gecə Körpə ilə anasını götürüb Misirə yollandı. Hirod ölənə qədər orada qaldı. Bu, Rəbbin peyğəmbər vasitəsilə söylədiyi söz yerinə yetsin deyə baş verdi: «Öz Oğlumu Misirdən çağırdım».

Hirod öləndən sonra Rəbbin bir mələyi Misirdə Yusifə röyada görünüb dedi: «Qalx, Körpə ilə anasını götür, İsrail ölkəsinə qayıt. Çünki Körpənin canını almaq istəyənlər öldü». Yusif qalxdı, Körpə ilə anasını götürüb İsrail ölkəsinə qayıtdı. Amma Arxelanın öz atası Hirodun yerinə Yəhudeya padşahı olduğunu eşidəndə oraya getməyə qorxdu. Röyada xəbərdarlıq alaraq Qalileya bölgəsinə getdi. Gəlib Nazaret deyilən şəhərdə məskən saldı.
Bu, peyğəmbərlər vasitəsilə söylənən «Ona Nazaretli deyiləcək» sözü yerinə yetsin deyə baş verdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Ailənin Bayramı

## B ili

**Yaradılış kitabından sözlər** *Yar 15:1-6; 21:1-3*

Bir müddət sonra İbrama görüntüdə Rəbbin bu sözü nazil oldu: «Ey İbram, qorxma. Sənin qalxanın Mənəm. Mükafatın çox böyük olacaq».
İbram dedi: «Ey Xudavənd Rəbb, mənə nə verəcəksən? Mənim övladım yoxdur, evimin sahibi bu Dəməşqli Eliezer olacaq». İbram sözünə davam etdi: «Sən mənə övlad vermədiyin üçün evimin nökəri mənim varisim olacaq».
Ona Rəbbin bu sözü nazil oldu: «O sənin varisin olmayacaq, öz belindən gələn övladın sənin varisin olacaq». Rəbb onu bayıra çıxarıb dedi: «Göyə bax, oradakı ulduzları saya bilərsənsə, say». Yenə dedi: «Nəslin o qədər olacaq».
İbram Rəbbə iman etdi və Rəbb bunu ona salehlik saydı.
Rəbb dediyi kimi Saraya nəzər saldı və ona söylədiyi sözü yerinə yetirdi: Sara hamilə oldu və İbrahimin qocalıq çağında – Allahın ona söylədiyi vaxt bir oğul doğdu. İbrahim Saradan doğulan oğluna İshaq adını qoydu.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 105(104), 1-6. 8-9**

**N: Allahımız Rəbb Odur, kəsdiyi əhdini unutmaz.**

Rəbbə şükür edin, ismini səsləyin,
əməllərini xalqlar arasında elan edin!
Onu ilahilərlə tərənnüm edin,
bütün xariqələrini bəyan edin!

Onun müqəddəs adı ilə fəxr edin,
ey Rəbbi axtaranlar, ürəkləriniz qoy sevinsin!
Rəbbi, Onun qüvvətini arayın,
daim hüzurunu axtarın.

Etdiyi xariqələri,
möcüzələri, dilindən çıxan hökmləri xatırlayın,
ey Onun qulu İbrahim nəsli,
ey Yaqub övladları, ey Onun seçdikləri!

Əbədi olaraq min nəslə qədər əhdini,
əmr etdiyi sözü,
İbrahimlə kəsdiyi əhdini,
İshaqa and içərək verdiyi vədini unutmaz.

## İbranilərə məktubdan sözlər *İbr 11:8. 11-12, 17-19*

İbrahim çağırılanda iman vasitəsilə itaətli olub irs alacağı torpağa getdi. O hara getdiyini bilməyərək yola çıxdı.
Sara özü sonsuz və yaşı ötmüş olduğu halda iman vasitəsilə nəsil yaratmaq üçün güc aldı, çünki vəd Edəni sadiq saydı. Buna görə də bir kişidən, artıq ölüdən fərqlənməyən birindən sayca göydəki ulduzlar qədər, dəniz kənarındakı qum kimi saysız-hesabsız nəsil törədi.
İbrahim sınağa çəkildiyi vaxt iman vasitəsilə İshaqı qurban olaraq təqdim etdi. Vədlərə nail olmuş İbrahim bircə oğlunu qurban vermək niyyətində idi. Halbuki ona «İshaqdan törəyənlər sənin nəslin adlanacaq» deyilmişdi.
O, Allahı onu ölülər arasından diriltməyə qadir saydı. Buna görə də məcazi mənada İshaqı ölümdən geri aldı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Alleluya! *(İbr 1:1-2)*

Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza peyğəmbərlər vasitəsilə müraciət etmişdi. Amma bu axır zamanda O bizə Oğul vasitəsilə müraciət etdi. Onu hər şeyin varisi təyin etmişdi və Onun vasitəsilə kainatı yaratmışdı.
**Alleluya!**

## † İncil †

*Lk 2:22-40*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

***uzun variant***

Musanın Qanununa görə paklanma dövrü tamamlanandan sonra Yusiflə Məryəm Körpəni Rəbbə həsr etmək üçün Yerusəlimə gətirdilər, necə ki Rəbbin Qanununda yazılıb: «Bətndən ilk doğulan bütün oğlanlar Rəbb üçün müqəddəs sayılsın». Həmçinin onlar qurban təqdim etdilər, necə ki Rəbbin Qanununda əmr olunub: «İki qumru quşu yaxud iki göyərçin balası».
O vaxt Yerusəlimdə Şimeon adlı bir adam var idi. O, saleh və mömin idi. İsrailə təsəlli veriləcəyini gözləyirdi və Müqəddəs Ruh onun üzərində idi. Müqəddəs Ruh ona əvvəlcədən açıqlamışdı ki, o, Rəbbin Məsihini görməyincə ölməyəcək. Beləliklə, Şimeon Ruhdan ilham alıb məbədə gəldi. Körpənin ata-anası Qanunda qoyulan adətə əməl etmək üçün Körpə İsanı

məbədə gətirəndə Şimeon Körpəni qucağına götürdü və Allaha alqış edərək belə dedi:
«Ey Pərvərdigar, indi Sənin sözünə görə mən – Sənin qulun arxayın ölə bilərəm. Çünki bütün xalqların gözləri önündə hazırladığın xilası, millətlərə aşkar edən nuru, xalqın İsrail üçün də izzəti öz gözlərimlə gördüm».
Körpənin ata-anası Onun barəsində deyilən sözlərə görə heyrətə gəldi.
Şimeon onlara xeyir-dua verib Körpənin anası Məryəmə belə dedi: «Bu Körpə İsraildə bir çox adamın yıxılmasının ya ucalmasının səbəbkarı və insanların rədd etdiyi bir əlamət olmaq üçün təyin olunub. Sənin köksünə isə sanki qılınc saplanacaq. Bütün bunlar bir çoxlarının qəlbindəki fikirlərin aşkara çıxması üçün olacaq».
Orada Aşer qəbiləsindən olan Penuel qızı Xanna adlı qadın peyğəmbər də var idi. O, çox yaşlı idi. Gənc yaşında ərə getmiş, əri ilə yeddi il yaşayıb dul qalmışdı. Bu, səksən dörd yaşında dul qadın idi. O, məbədi tərk etmirdi və oruc tutub dua edərək gecə-gündüz Rəbbə ibadət edirdi. Xanna da bu zaman yaxınlaşdı və Allaha şükür edərək Yerusəlimin satın alınmasını gözləyən bütün adamlara Körpə İsa barədə nəql etməyə başladı.
Yusiflə Məryəm Rəbbin Qanununa əsasən hər şeyi icra edib qurtardıqdan sonra Qalileyaya – öz şəhərləri olan Nazaretə qayıtdı. Uşaq böyüyür, qüvvətlənir və hikmətdə yetkinləşirdi. Allahın lütfü də Onun üzərində idi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

*qısa variant* *Lk 2:22. 39-40*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Musanın Qanununa görə paklanma dövrü tamamlanandan sonra Yusiflə Məryəm Körpəni Rəbbə həsr etmək üçün Yerusəlimə gətirdilər.

Yusiflə Məryəm Rəbbin Qanununa əsasən hər şeyi icra edib qurtardıqdan sonra Qalileyaya – öz şəhərləri olan Nazaretə qayıtdı. Uşaq böyüyür, qüvvətlənir və hikmətdə yetkinləşirdi. Allahın lütfü də Onun üzərində idi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Ailənin Bayramı

## C ili

**1-ci Şamuelin kitabından sözlər** *1 Şam 1:20-22, 24-28*

Vaxt keçdi, Xanna hamilə olub bir oğul doğdu. «Onu Rəbdən dilədim» deyərək adını Şamuel qoydu.
Elqana Rəbbə illik qurbanını və əhdini yerinə yetirmək üçün evdəkilərlə bərabər Şiloya getdi. Amma Xanna getmədi. Ərinə «körpəni süddən kəsəndən sonra onu Rəbbə xidmət etmək üçün aparacağam və ömrü boyu orada qalacaq» dedi.
Uşağı süddən ayırandan sonra Xanna onu üç buğa, bir efa un və bir tuluq şərabla birlikdə Rəbbin Şilodakı ibadətgahına apardı. Uşaq isə hələ balaca idi. Buğanı kəsəndən sonra uşağı Eliyə verdilər. Xanna dedi: «Ey ağam, canına and olsun, burada – sənin yanında durub Rəbbə yalvaran qadın mənəm. Yalvarışım bu uşaq üçün idi, Rəbb muradımı yerinə yetirdi. Mən onu Rəbbə əhd etmişdim və ömrü boyu Rəbbə həsr olunmalıdır». Sonra uşaq orada Rəbbə səcdə etdi.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 84 (83), 1-2, 4-5, 8-9**

**N: Ya Rəbb, nə bəxtiyardır evində yaşayanlar!**

Ey Ordular Rəbbi, məskənin nə qədər əzizdir,
qəlbim Rəbbin həyətinin həsrətindədir,
könlüm, cismim var olan Allaha mədh oxuyur.

Nə bəxtiyardır evində yaşayanlar,
daim Sənə həmd oxuyanlar!
Nə bəxtiyardır Səndən qüvvət alanlar,
qəlbində Sionu ziyarət etməyi arzulayanlar!

Ya Rəbb, ey Ordular Allahı, duamı dinlə,
Ey Yaqubun Allahı, qulaq as!
Ey Allah, bizə sipər olana bax,
məsh etdiyinin üzünə bax!

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 3:1-2. 21-24*

Görün Ata bizə necə məhəbbət göstərib ki, biz Allahın övladları adlanırıq! Doğrudan da, beləyik! Dünya Onu tanımadığına görə bizi də tanımır.
Ey sevimlilər, indi biz Allahın övladlarıyıq, amma nə olacağımız hələ üzə çıxmayıb. Lakin bilirik ki, Məsih zühur edəndə biz Ona bənzəyəcəyik, çünki Onu olduğu kimi görəcəyik.
Ey sevimlilər, əgər ürəyimiz bizi məhkum etmirsə, demək, Allahın hüzurunda cəsarətlə danışa bilərik və Ondan nə diləyiriksə, alırıq. Ona görə ki Onun əmrlərinə riayət edirik və önündə Ona məqbul olan işlər görürük. Onun əmri də budur ki, biz Onun Oğlu İsa Məsihin adına iman edək və Onun bizə əmr etdiyi kimi bir-birimizi sevək. Onun əmrlərinə riayət edən şəxs Allahda, Allah da onda qalır. Onun bizdə qaldığını bu yolla, bizə verdiyi Ruh vasitəsilə bilirik.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax Həv 16:14b*

Rəbb, Oğlunun sözlərinə qulaq asmaq üçün bizə açıq ürək ver.

**Alleluya!**

## † İncil †

*Lk 2:41-52*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Hər il İsanın ata-anası Pasxa bayramında Yerusəlimə gedərdi. İsanın on iki yaşı tamam olanda onlar bayram adətinə görə yenə ora getdilər. Bayram qurtarandan sonra onlar evə yollandılar. Amma yeniyetmə İsa Yerusəlimdə qaldı, onun ata-anasının isə bundan xəbəri yox idi. Onlar İsanın səyyahlar dəstəsi içində getdiyini düşünürdülər. Amma bir günlük yolu gedəndən sonra Onu dostların və qohumların arasında axtarmağa başladılar. Onu tapmadılar və axtara-axtara Yerusəlimə qayıtdılar. Üç gündən sonra Onu məbəddə tapdılar. İsa müəllimlər arasında oturmuşdu və onlara qulaq asır, suallar verirdi. Onu dinləyən hər kəs Onun zəkasına və verdiyi cavablara mat qalırdı. Ata-anası Onu görüb təəccübləndi.

İsanın anası Ona dedi: «Oğlum, bu nədir başımıza gətirdin? Atanla mən nigaran qalıb səni axtarırdıq».
İsa onlara cavab verdi: «Məni nə üçün axtarırdınız? Məgər bilmirdiniz ki, Mən Atamın evində olmalıyam?»
Amma onlar Onun nə demək istədiyini başa düşmədilər. Sonra İsa ata-anası ilə Nazaretə qayıtdı. O, ata-anasına itaətli idi. Onun anası isə bütün bu şeyləri öz ürəyində saxlayırdı. İsa böyüyürdü və hikmətdə artırdı. O, Allahın və insanların qarşısında lütf qazanırdı.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad bayramından sonra 2-ci Rəbb günü

(yoxsa 30.12.)

**Sirax kitabından sözlər** *Sir 24:1-2. 8-12*

Hikmət özünü şöhrətləndirər, Öz ardıcılları arasında təriflənər. Uca Olanın toplantısında ağız açar, Onun səma qüvvələrinin önündə öyünər:
Onda hər şeyin Yaradıcısı mənə göstəriş verdi, məni Yaradan çadırım üçün yer təyin etdi. O dedi: "Çadırını Yaqubda qur, İsraildə sənin mirasın olsun". Əbədiyyətdən bəri, başlanğıcda O, məni yaratdı, mən əbədiyyətə qədər bitib-tükənməyəcəyəm. Müqəddəs çadırda Onun önündə xidmət etdim, beləcə, Sionda bərqərar oldum. Sevimli şəhərdə mənə həm də dinclik verdi, Yerusəlimdə səlahiyyətə malikəm. İzzətləndirilmiş bir xalqın arasında, Rəbbin onların mirası olan mülkündə kök saldım.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 147(146), 12-13. 14-15. 19-20**

**N: Kəlam bəşər olub və aramızda məskən saldı.**

Ey Yerusəlim, Rəbbi mədh et!
Ey Sion, Allahına həmd et!
Çünki darvazalarının cəftələrini bərkidər,
sənin əhalinə bərəkət verər.

Sərhədinə əmin-amanlıq,
sənə doyunca əla taxıl yetirər.
Kəlamını yer üzünə yollar,
Onun sözü tez yayılar.

O, Yaqub nəslinə sözlərini,
İsraillilərə qanun və hökmlərini bildirir.
Başqa millətlər üçün belə etməyib,
heç birinə hökmlərini bildirməyib.

**Müqəddəs Paulun Efeslilərə məktubundan sözlər** *Ef 1:3-6, 15-19*

Bizə Məsihdə səmadakı hər cür ruhani nemətlə xeyir-dua verən Allaha – Rəbbimiz İsa Məsihin Atasına alqış olsun!
O, dünya yaranmazdan qabaq bizi Məsihdə seçdi ki, biz məhəbbətdə Onun qarşısında müqəddəs və nöqsansız olaq. Öz iradəsinin xoş məramına görə İsa Məsih vasitəsilə bizi əvvəlcədən təyin etdi ki, Özü üçün övladlığa götürsün. Belə ki sevimli Oğlunda bizə bəxş etdiyi Öz lütfünün izzətini mədh edək.
Bundan ötrü mən də Rəbb İsaya olan imanınız və bütün müqəddəslərə göstərdiyiniz məhəbbət barədə eşidib sizi dualarımda yada salaraq durmadan sizin üçün şükür edirəm. Dua edirəm ki, Rəbbimiz İsa Məsihin Allahı olan izzətli Ata Özünü sizə tanıtmaq üçün hikmət və vəhy ruhunu versin.
Qoy O, qəlbinizin gözünü nurlandırsın ki, Onun çağırışından yaranan ümidin nə olduğunu, müqəddəslərə verdiyi irsin izzətinin necə zəngin olduğunu, Onun böyük qüvvəsinin fəaliyyətinə görə iman edən bizlərə sərf etdiyi qüdrətinin hədsiz böyüklüyünün nə olduğunu görəsiniz.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax 1Tim 3:16*

İzzət olsun Sənə, ey Məsih, Sən millətlərə vəz olundun,
izzət olsun Sənə, ey Məsih, dünyada Sənə iman edildi.

**Alleluya!**

## † İncil †

*Yəh 1:1-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi. O, başlanğıcda Allahla birlikdə idi. Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı. Həyat Onda idi və bu həyat insanların nuru idi. Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi. Allahın göndərdiyi bir adam ortaya çıxdı, onun adı Yəhya idi. O, şəhadət üçün gəldi ki, Nur barədə şəhadət etsin və hamı onun vasitəsilə iman etsin. O özü Nur deyildi, amma Nur barədə şəhadət etmək üçün gəldi. Bu, həqiqi Nur idi və dünyaya gələrək hər bir insanı işıqlandırırdı.

O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı. Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi. Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi. Onlar nə qandan, nə bəşər arzusundan, nə də kişi istəyindən deyil, yalnız Allahdan doğuldu. Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı; biz də Onun ehtişamını – Atadan gələn vahid Oğulun ehtişamını gördük. Yəhya Onun barəsində şəhadət etdi və nida edib dedi: «"Məndən sonra Gələn məndən üstündür, çünki məndən əvvəl var idi" deyib haqqında danışdığım Şəxs budur». Hamımız Onun bütövlüyündən lütf üstünə lütf aldıq. Qanun Musa vasitəsilə verildi, lütf və həqiqət isə İsa Məsih vasitəsilə gəldi. Allahı heç kəs heç vaxt görməyib, amma Atanın qucağında olan və Allah olan vahid Oğul Onu tanıtdı.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

***Qısa variant*** *Yəh 1:1-5. 9-14*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi. O, başlanğıcda Allahla birlikdə idi. Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı. Həyat Onda idi və bu həyat insanların nuru idi. Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi. Bu, həqiqi Nur idi və dünyaya gələrək hər bir insanı işıqlandırırdı. O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı. Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi. Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi. Onlar nə qandan, nə bəşər arzusundan, nə də kişi istəyindən deyil, yalnız Allahdan doğuldu. Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı; biz də Onun ehtişamını – Atadan gələn vahid Oğulun ehtişamını gördük.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü - Allah Anası Olan Məryəmin Bayramı - 1.1.

**Saylar kitabından sözlər** *Say 6:22-27*

Rəbb Musaya dedi: «Harun və oğullarına belə de:
İsrail övladlarına belə xeyir-dua verin:



"Qoy Rəbb sizə xeyir-dua verib sizi qorusun;
Rəbb Öz nurlu üzünü sizə göstərərək lütf versin.
Rəbb üzünü sizə tərəf çevirsin, sizə sülh versin".
Beləcə kahinlər Mənim adımla İsrail övladlarına xeyir-dua verəndə Mən də onlara xeyir-dua verəcəyəm».

Bu Allahın Kəlamıdır. *
**M: Allaha şükürlər olsun.**

**Zəbur 67, 2-3. 5. 6+8**

**N: Lütf edib, ey Allah, bizə xeyir-dua ver.**

Lütf edib, ey Allah, bizə xeyir-dua ver, Üzün üstümüzə nur saçsın.
Qoy yer üzündə Sənin yolun, bütün millətlər arasında qurtuluşun tanınsın.

Qoy ümmətlər sevinclə Səni mədh etsin, çünki xalqlara insafla hökm edirsən, yer üzündəki ümmətlərə yol göstərirsən.

Ey Allah, Sənə xalqlar şükür etsin, Qoy Sənə bütün xalqlar şükür etsin.
Allah bizə xeyir-dua verib. Qoy dünyanın ucqarları Ondan qorxsun!

**Müqəddəs Paulun Qalatiyalılara məktubundan sözlər** *Qal 4:4-7*

Vaxt tamam olanda Allah qadından, Qanun altında doğulan Öz Oğlunu göndərdi ki, Qanun altında olanları satın alsın və biz övladlığa götürülək. Övladlar olduğunuz üçün Allah Öz Oğlunun «Abba, Ata!» deyərək nida edən Ruhunu ürəklərimizə göndərdi. Buna görə də sən artıq kölə deyil, övladsan. Əgər övladsansa, həmçinin Allahın təyin etdiyi varissən.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax İbr 1:1-2*

Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza peyğəmbərlər vasitəsilə müraciət etmişdi. Amma bu axır zamanda O bizə Oğul vasitəsilə müraciət etdi.

**Alleluya!**

## † İncil †

*Lk 2:16-21*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**

K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *

**M: Şan-şərəf Rəbbindir.**

Onlar tələsik getdilər. Məryəmi, Yusifi və axurda yatan Körpəni tapdılar. Çobanlar Körpəni görəndə Onun haqqında onlara nəql edilənləri bildirdilər. Bunu eşidənlərin hamısı çobanların sözlərindən heyrətə gəldi. Məryəm isə bütün bu şeyləri dərin düşünərək öz ürəyində saxlayırdı. Çobanlar bütün gördükləri və eşitdiklərinə görə Allahı izzətləndirib həmd edərək geri qayıtdılar. Çünki hər şey onlara söylənən kimi baş vermişdi.

Səkkizinci gün Körpənin sünnət olunması vaxtı gələndə Onun adını İsa qoydular. Bu ad ona ana bətninə düşməzdən əvvəl mələk tərəfindən verilmişdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 2.1.

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 2:22-28*

Ey sevimlilər! Bəs yalançı kimdir? İsanın Məsih olduğunu inkar edən şəxs! O, Atanı və Oğulu inkar edən Məsih əleyhdarıdır. Oğulu inkar edən hər kəs Ataya da malik deyil, lakin Oğulu iqrar edən kəs Ataya da malikdir. Sizin əvvəldən bəri eşitdiyiniz söz qoy sizdə qalsın. Əgər əvvəldən bəri eşitdiyiniz söz sizdə qalsa, siz də Oğul və Atada qalarsınız.  Onun bizə verdiyi vəd budur: əbədi həyat! Bunları sizi aldatmaq istəyənlər barəsində yazıram. Sizə gəlincə, Ondan aldığınız məsh daxilinizdə qalır və kimsənin sizə təlim verməsinə ehtiyacınız yoxdur. Əksinə, Onun bu məshi sizə hər şey barədə təlim verir və bu, yalan deyil, həqiqətdir. Ona görə də sizə öyrətdiyi kimi Onda qalın. Beləliklə, ey övladlar, Onda qalın ki, O zahir olanda cəsarətimiz olsun, Onun zühuru zamanı önündə utanmayaq.

Bu Allahın Kəlamıdır. *  **M: Allaha şükürlər olsun.**

**Zəbur 98(97), 1-4**

**N: Yer üzünün hər yerdə Allahımızın zəfərini gördü.**

Rəbbə yeni bir ilahi oxuyun,
çünki O, xariqələr yaratdı.
O, sağ əli ilə,
Öz müqəddəs qolu ilə zəfərlər qazandı.

Rəbb zəfərini bəyan etdi,
millətlərin gözündə salehliyini aydın göstərdi.
İsrail nəslinə
göstərdiyi məhəbbətini və sədaqətini xatırladı.

Yer üzünün qurtaracağınadək hər yerdə
Allahımızın zəfərini gördü.
Ey bütün dünya, cuşa gəlib Rəbbə nida et,
birdən nida edin, mədh, tərənnüm səsini ucaldın!

**Alleluya!** *bax İbr 1:1-2*

Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza peyğəmbərlər vasitəsilə müraciət etmişdi. Amma bu axır zamanda O bizə Oğul vasitəsilə müraciət etdi.
**Alleluya!**

## † İncil †

*Yəh 1:19-28*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Yəhudi başçıları Yəhyadan «Sən kimsən?» deyə soruşmaq üçün Yerusəlimdən kahinlərlə Levililəri onun yanına göndərdilər. O zaman Yəhya belə şəhadət etdi: o, düzünü deyib inkar etmədi və «mən Məsih deyiləm» deyə bəyan etdi.
Onlar Yəhyadan soruşdular: «Bəs sən kimsən? Bəlkə İlyassan?» Yəhya «xeyr, o deyiləm» dedi. Soruşdular: «Bəlkə gəlməli olan peyğəmbərsən?» Yəhya «xeyr» söylədi. Sonra ona dedilər: «Bəs sən kimsən? Bizi göndərənlərə nə cavab verək? Özün barədə nə deyirsən?»
Yəhya dedi: «Mən Yeşaya peyğəmbərin söylədiyi kimi "Rəbbin yolunu düz edin"
deyə səhrada nida edənin səsiyəm».
Göndərilən bəzi fariseylər Yəhyadan soruşdular: «Bəs sən Məsih, İlyas yaxud gəlməli olan peyğəmbər deyilsənsə, nə üçün vəftiz edirsən?»
Yəhya onlara cavab verdi: «Mən su ilə vəftiz edirəm, amma aranızda məndən sonra gələn tanımadığınız bir Nəfər dayanıb. Mən Onun heç çarığının bağını açmağa da layiq deyiləm».
Bu hadisələr İordan çayının o tayında olan Bet-Anyada, Yəhyanın vəftiz etdiyi yerdə baş verdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 3.1.

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 2:29- 3: 6*

Ey sevimlilər! Əgər Onun saleh olduğunu bilirsinizsə, həm də bilin ki, saleh iş görən hər kəs Ondan doğulub.
Görün Ata bizə necə məhəbbət göstərib ki, biz Allahın övladları adlanırıq! Doğrudan da, beləyik! Dünya Onu tanımadığına görə bizi də tanımır. Ey sevimlilər, indi biz Allahın övladlarıyıq, amma nə olacağımız hələ üzə çıxmayıb. Lakin bilirik ki, Məsih zühur edəndə biz Ona bənzəyəcəyik, çünki Onu olduğu kimi görəcəyik. Ona bu cür ümid bağlayan hər kəs O pak olduğu kimi özünü pak edir. Günah edən hər kəs Qanunu da pozar, çünki günah Qanunu pozmaqdır. Siz bilirsiniz ki, Məsih günahları aradan qaldırmaq üçün zühur etdi. Onda günah yoxdur. Onda qalan hər kəs günahını davam etdirməz. Günahını davam etdirən hər kəs nə Onu görüb, nə də Onu tanıyır.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 98(97), 1. 3b-4. 5-6**

**N: Yer üzünün hər yerdə Allahımızın zəfərini gördü.**

Rəbbə yeni bir ilahi oxuyun,
çünki O, xariqələr yaratdı.
O, sağ əli ilə,
Öz müqəddəs qolu ilə zəfərlər qazandı.

Yer üzünün qurtaracağınadək hər yerdə
Allahımızın zəfərini gördü.
Ey bütün dünya, cuşa gəlib Rəbbə nida et,
birdən nida edin, mədh, tərənnüm səsini ucaldın!

Rəbbi lira ilə –
lira ilə, ilahi bir səslə tərənnüm edin!
Kərənay, şeypur səsi ilə,
Padşah olan Rəbbin hüzurunda cuşa gəlin,
Ona nida edin!

**Alleluya!** *bax Yəh 1:14a.12a*

Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı. Onu qəbul edənlərin hamısına Allahın övladları olmaq ixtiyarını verdi.
**Alleluya!**

## † İncil †

*Yəh 1:29-34*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Ertəsi gün Yəhya İsanın ona tərəf gəldiyini görüb dedi: «Dünyanın günahını aradan götürən Allah Quzusu budur! “Məndən sonra bir Şəxs gəlir ki, məndən üstündür, çünki məndən əvvəl var idi” deyib haqqında danışdığım Kəs budur. Özüm Onu tanımırdım, amma Onun İsrailə zahir olması üçün mən su ilə vəftiz edərək gəldim». Yəhya şəhadət edib dedi: «Gördüm ki, Ruh göydən göyərçin kimi endi və Onun üzərində qaldı. Özüm Onu tanımırdım, lakin su ilə vəftiz etmək üçün məni göndərənin Özü mənə dedi: “Ruhun kimin üzərinə enib qaldığını görsən, bil ki, Müqəddəs Ruhla vəftiz edən Odur”. Mən də görüb “Allahın Oğlu budur” deyə şəhadət etmişəm».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 4.1.

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 3:7-10*

Ey övladlar, heç kəs sizi aldatmasın; saleh iş görən şəxs Məsihin saleh olduğu kimi salehdir. Günahını davam etdirən şəxs iblisdəndir, çünki iblis başlanğıcdan bəri günah edir. Allahın Oğlu buna görə zühur etdi ki, iblisin əməllərini puça çıxarsın. Allahdan doğulan hər kəs günahını davam etdirməz, çünki Allahın toxumu onda qalır. O, günahını davam etdirə bilməz, çünki Allahdan doğulub. Kimin Allahın övladı, kiminsə iblisin övladı olması bundan aydın olur: saleh iş görməyən, həmçinin qardaşını sevməyən hər kəs Allahdan deyil.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 98(97), 1. 7-8. 9**

**N: Yer üzünün hər yerdə Allahımızın zəfərini gördü.**

Rəbbə yeni bir ilahi oxuyun,
çünki O, xariqələr yaratdı.
O, sağ əli ilə,
Öz müqəddəs qolu ilə zəfərlər qazandı.

Qoy dənizin və dənizdəki canlıların,
Yer üzü və orada yaşayanların səsi ucalsın.
Onun hüzurunda qoy çaylar əl çalsın,
dağlar birgə mədh oxusun!

Çünki Rəbb dünyaya hökm etmək üçün gəlir.
Yer üzünə ədalətlə,
xalqlara insafla hökm edəcək!

**Alleluya!** *bax İbr 1:1-2*

Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza peyğəmbərlər vasitəsilə müraciət etmişdi. Amma bu axır zamanda O bizə Oğul vasitəsilə müraciət etdi.
**Alleluya!**

## † İncil †

*Yəh 1:35-42*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Ertəsi gün yenə Yəhya orada idi. Şagirdlərinin ikisi onun yanında idi. İsa yoldan keçərkən Yəhya Ona baxıb dedi: «Allah Quzusu budur!» Həmin iki şagird onun sözlərini eşidib İsanın ardınca getdi. İsa dönüb ardınca gəldiklərini görərək onlara «Sizə nə lazımdır?» dedi. Onlar İsaya dedi: «Rabbi, Sən harada qalırsan?» «Rabbi» «Müəllim» deməkdir. İsa onlara dedi: «Mənimlə gəlin, görərsiniz». Onlar gedib İsanın harada qaldığını gördülər və həmin gün Onunla qaldılar. Onuncu saat radələri idi. Yəhyadan eşidib İsanın ardınca gedən iki nəfərdən biri Şimon Peterin qardaşı Andrey idi. Sonra o, ilk öncə qardaşı Şimonu tapıb ona «biz Məsihi tapdıq» dedi. «Məsih» «Məsh olunmuş» deməkdir. Onu İsanın yanına apardı. İsa Şimona baxıb dedi: «Sən Yəhya oğlu Şimonsan, amma Kefa adlanacaqsan». Kefa isə Peter deməkdir.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 5.1.

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 3:11-21*

Ey sevimlilər! Əvvəldən bəri eşitdiyiniz xəbər budur: bir-birimizi sevək. Şərdən olub qardaşını öldürən Qabil kimi olmayaq. O, qardaşını niyə öldürdü? Ona görə ki öz əməlləri şər, qardaşının əməlləri isə saleh idi. Beləliklə, qardaşlar, dünya sizə nifrət edirsə, heyrətlənməyin. Qardaşlarımızı sevdiyimizə görə biz bilirik ki, ölümdən həyata keçmişik. Sevməyənsə ölümdə qalır. Qardaşına nifrət edən hər kəs qatildir. Bildiyiniz kimi, heç bir qatil özündə qalan əbədi həyata malik deyil. Məhəbbətin nə olduğunu bundan anladıq ki, Məsih Öz canını bizim üçün fəda etdi. Biz də öz canımızı qardaşlarımız üçün fəda etməliyik. Əgər kimsə dünya malına sahib olarkən qardaşını ehtiyac içində görüb ona rəhmi gəlmirsə, Allah məhəbbəti onda necə qala bilər? Ey övladlar, sözdə və dildə deyil, əməldə və həqiqətdə sevək. Bununla həqiqətdən olduğumuzu biləcəyik və ürəyimiz bizi məhkum edirsə, ürəyimizi Allahın önündə sakitləşdirəcəyik. Çünki Allah bizim ürəyimizdən üstündür və hər şeyi bilir. Bununla həqiqətdən olduğumuzu biləcəyik və ürəyimiz bizi məhkum edirsə, ürəyimizi Allahın önündə sakitləşdirəcəyik. Çünki Allah bizim ürəyimizdən üstündür və hər şeyi bilir. Ey sevimlilər, əgər ürəyimiz bizi məhkum etmirsə, demək, Allahın hüzurunda cəsarətlə danışa bilərik.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 100(99), 1-5**

**N: Ey bütün dünya, cuşa gəlib Rəbbə nida edin!**

Ey bütün dünya, cuşa gəlib Rəbbə nida edin,
sevinclə Rəbbə qulluq edin,
mədh oxuyaraq Onun hüzuruna gəlin!

Rəbb Allahdır, siz bunu bilin,
O bizi yaradıb, biz Ona aidik,
xalqıyıq, otlağında otardığı sürüyük.

Dərgahına şükürlərlə,
həyətlərinə həmdlərlə gəlin.
Ona şükür edin, İsminə alqış söyləyin.

Rəbb nə yaxşıdır, məhəbbəti əbədidir,
Sədaqəti nəsillərdən-nəslə çatır!

**Alleluya!**

Müqəddəs gün üzərimizə işıq saçdı: gəlin, ey millətlər, Rəbbə səcdə edin. Bu gün Yer üzünə böyük bir işıq endi.

**Alleluya!**

## † İncil †

*Yəh 1:43-51*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Ertəsi gün İsa Qalileyaya getmək istədi. O, Filipi tapıb ona «ardımca gəl» dedi. Filip də Andrey və Peter kimi Bet-Sayda şəhərindən idi.
Filip Natanaeli tapıb ona dedi: «Musanın Qanunda yazdığı, peyğəmbərlərin də bəhs etdiyi Şəxsi – Yusif Oğlu Nazaretli İsanı tapdıq». Natanael ona dedi: «Nazaretdən yaxşı bir şey çıxarmı?» Filip isə ona «gəl özün bax» dedi.
İsa Natanaelin Ona tərəf gəldiyini görüb haqqında belə dedi: «Bu, həqiqətən, ürəyində hiylə olmayan bir İsraillidir».
Natanael «Sən məni haradan tanıyırsan?» deyə Ondan soruşdu.
İsa ona cavab verdi: «Filip səni çağırmazdan əvvəl səni əncir ağacının altında gördüm». Natanael Ona dedi: «Rabbi, Sən Allahın Oğlusan, İsrailin Padşahısan!»
İsa ona cavab verib dedi: «Səni əncir ağacının altında gördüyümü söylədiyim üçünmü Mənə iman edirsən? Sən bunlardan daha böyük şeylər görəcəksən».
Yenə ona dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: göyün yarıldığını və Allahın mələklərinin Bəşər Oğlu üzərinə enib-qalxdığını görəcəksiniz».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – Epifaniya Bayramı (Rəbbin zühuru) – 6.1. ABC

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 60:1-6*

Qalx, işıqlan, çünki nurun gəldi, Rəbbin izzəti üzərinə gəldi! Budur, dünyanı qaranlıq, ümmətləri zülmət bürüyəcək. Amma Rəbb üzərinə nur saçacaq, İzzəti səni əhatə edəcək. Millətlər sənin nuruna, Padşahlar üzərinə çökən aydınlığa doğru gələcək. Qaldır başını, bax ətrafına, hamı yığılıb yanına gəlir! Oğulların uzaqdan gəlir, qızların qucaqda gətirilir. O vaxt bunu görüb üzün nur saçacaq, ürəyin sevincdən tez-tez çırpınacaq. Çünki uzaq ölkələrin var-dövləti sənə gətiriləcək, millətlərin sərvəti sənə gələcək. Dəvə sürüləri, Midyan və Efa köşəkləri torpaqlarını dolduracaq. Bütün Səba xalqı gəlib qızıl və kündür gətirəcək, Rəbbə həmdlər söyləyəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 72(71), 1-2. 7-8. 10-11. 12-13.**

**N: Allahın qarşısında bütün millətlər təzim edin!**

Ey Allah, padşaha ədalət ver,
şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə,
məzlumlara ədalətlə hakimlik etsin.

Bu padşahın ömrü boyu qoy salehlər çiçək açsın,
göydə ay durduqca qoy firavanlıq artsın.
Dənizdən-dənizə qədər,
fəratdan yer üzünün qurtaracağınadək hər yerdə hökmranlıq etsin.

Tarşişin və adaların padşahları ona xərac gətirsin,
Səba və Seva padşahları ona bəxşiş versin.
Qarşısında bütün padşahlar təzim etsin,
qoy bütün millətlər ona xidmət etsin!

Çünki o imdad deyib çağıran fəqirləri,
məzlumları, köməksizləri qurtarır.
Yoxsula, fəqirə rəhm edir,
fəqirlərin canlarını azad edir.

**Müqəddəs Paulun Efeslilərə məktubundan sözlər** *Ef 3:2-3a. 5-6*

Qardaşlar! Eşitdiyiniz kimi, Allahın sizin üçün mənə verdiyi lütfü sizə çatdırmaq vəzifəsini daşıyıram. Yuxarıda qısaca yazdığım kimi, Allah sirri mənə vəhy vasitəsilə bildirdi. Yazdıqlarımı oxuyanda Məsihin bu sirrini necə dərk etdiyimi anlaya bilərsiniz. Bu sirr əvvəlki nəsillərin dövründə başər övladlarına açıq bildirilməmişdi. İndisə Məsihin müqəddəs həvarilərinə və peyğəmbərlərinə Ruh vasitəsilə açılmışdır. Sirr budur ki, başqa millətlər də Müjdə vasitəsilə Məsih İsada eyni irsin ortağı, eyni bədənin üzvü və eyni vədin şərikidir.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax Mt 2:2*

Şərqdə Padşahın ulduzunu gördük və Ona səcdə qılmağa gəldik.
**Alleluya!**

**† İncil †** *Mt 2:1-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa padşah Hirodun dövründə Yəhudeyanın Bet-Lexem şəhərində anadan olduqda müdrik adamlar şərqdən Yerusəlimə gəlib dedilər: «Yəhudilərin anadan olmuş Padşahı haradadır? Şərqdə Onun ulduzunu gördük və Ona səcdə qılmağa gəldik». Padşah Hirod bunu eşitdikdə özü və bütün Yerusəlim xalqı təlaşa düşdü. Hirod xalqın bütün başçı kahinlərini və ilahiyyatçılarını toplayaraq onlardan Məsihin harada doğulduğunu soruşdu. «Yəhudeyanın Bet-Lexem şəhərində» dedilər. «Çünki peyğəmbər vasitəsilə belə yazılıb: "Ey Yəhuda torpağındakı Bet-Lexem, sən Yəhuda hökmdarları arasında ən kiçik deyilsən, çünki xalqım İsrailə çoban olan Hökmdar səndən çıxacaq"».
Onda Hirod müdrik adamları gizlicə çağırıb onlardan ulduzun göründüyü dəqiq vaxtı öyrəndi. «Gedin, Körpəni diqqətlə axtarın, tapan kimi mənə xəbər verin ki, mən də gedib Ona səcdə qılım» deyərək onları Bet-Lexemə göndərdi. Onlar padşahı dinlədikdən sonra yola düşdülər. O vaxt şərqdə gördükləri ulduz onlara yol göstərirdi. O, Körpənin olduğu yerin üzərinə çatdıqda dayandı. Onlar ulduzu gördükləri vaxt çox sevindilər. Evə girib Körpəni anası Məryəmlə birlikdə gördülər və yerə qapanaraq Ona səcdə qıldılar. Xəzinələrini açıb Ona hədiyyələri – qızıl, kündür və mirranı təqdim etdilər. Sonra röyada Hirodun yanına qayıtmamaq üçün xəbərdarlıq aldıqlarına görə başqa yolla öz ölkələrinə getdilər.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 6.1.

əgər Epifaniya Bayramı Rəbb günündə qeyd edilir

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 5:5-13*

Ey sevimlilər! Dünyaya qalib gələn kimdir? Əlbəttə ki, İsanın Allahın Oğlu olmasına inanan! Su və qanla gələn Şəxs həmin İsa Məsihdir. O yalnız su ilə deyil, su və qanla gəldi. Buna şəhadət edən Ruhdur, çünki Ruh həqiqətdir. Bəli, üç şahid var: Ruh, su və qan. Bunların üçü də bir-birinə uyğun gəlir. Biz insanların şəhadətini qəbul edirik, amma Allahın şəhadəti bundan üstündür. Çünki bu, Allahın şəhadətidir; O Öz Oğlu barədə şəhadət edib. Allahın Oğluna iman edən kəs öz daxilində bu şəhadətə malikdir. Amma Allaha inanmayan Onu yalançı yerinə qoyub. Çünki Allahın Öz Oğlu barədə verdiyi şəhadətə inanmayıb. Bu şəhadət ondan ibarətdir ki, Allah bizə əbədi həyat verib və bu həyat Onun Oğlundadır. Oğula malik olan şəxsin həyatı var, Allahın Oğluna malik olmayan şəxsin isə həyatı yoxdur.
Bunları sizə – Allahın Oğlunun adına iman edənlərə yazdım ki, əbədi həyata malik olduğunuzu biləsiniz.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 147(146), 12-13. 14-15. 19-20**

***N:* Ey Yerusəlim, Rəbbi mədh et! Ey Sion, Allahına həmd et!**

Ey Yerusəlim, Rəbbi mədh et!
Ey Sion, Allahına həmd et!
Çünki darvazalarının cəftələrini bərkidər,
sənin əhalinə bərəkət verər.

Sərhədinə əmin-amanlıq,
sənə doyunca əla taxıl yetirər.
Kəlamını yer üzünə yollar,
Onun sözü tez yayılar.

O, Yaqub nəslinə sözlərini,
İsraillilərə qanun və hökmlərini bildirir.
Başqa millətlər üçün belə etməyib,
heç birinə hökmlərini bildirməyib.

**Alleluya!** *bax Mk 9, 7*

Buluddan bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ona qulaq asın!

**Alleluya!**

## † İncil †

*Mk 1:7-11 və ya Lk 3:23-38*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

O vaxt Yəhya belə vəz edirdi: «Məndən sonra məndən daha Qüdrətlisi gəlir. Mən əyilib Onun çarıqlarının bağını açmağa belə, layiq deyiləm. Mən sizi su ilə vəftiz etdim, amma O sizi Müqəddəs Ruhla vəftiz edəcək».

O günlərdə İsa Qalileyanın Nazaret şəhərindən gəlib Yəhya tərəfindən İordan çayında vəftiz olundu. İsa sudan çıxan kimi göylərin yarıldığını və Ruhun göyərçin kimi Öz üzərinə endiyini gördü. Göylərdən bir səda gəldi: «Sən Mənim sevimli Oğlumsan, Səndən razıyam».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

***və ya Lk 3, 23-38:***

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa Öz xidmətinə başlayanda təxminən otuz yaşında idi. İnsanların zənnincə, O bu nəsildən idi: Yusif Oğlu Eli oğlu Mattat oğlu Levi oğlu Melki oğlu Yannay oğlu Yusif oğlu Mattitya oğlu Amos oğlu Nahum oğlu Hasli oğlu Naqqay oğlu Mahat oğlu Mattitya oğlu Şimi oğlu Yoseh oğlu Yoda oğlu Yoxanan oğlu Reşa oğlu Zerubbabil oğlu Şealtiel oğlu Neri oğlu Melki oğlu Addi oğlu Kosam oğlu Elmadam oğlu Er oğlu Yeşua oğlu Eliezer oğlu Yorim oğlu Mattat oğlu Levi oğlu Şimeon oğlu Yəhuda oğlu Yusif oğlu Yonam oğlu Elyaqim oğlu Melea oğlu Menna oğlu Mattata oğlu Natan oğlu Davud oğlu Yessey oğlu Oved oğlu Boaz oğlu Salmon oğlu Naxşon oğlu Amminadav oğlu Admin oğlu Arni oğlu Xesron oğlu Peres oğlu Yəhuda oğlu Yaqub oğlu İshaq oğlu İbrahim oğlu Terah oğlu Naxor oğlu Seruq oğlu Reu oğlu Peleq oğlu Ever oğlu Şelah oğlu Qenan oğlu Arpakşad oğlu Sam oğlu Nuh oğlu Lemek oğlu Metuşelah oğlu Xanok oğlu Yered oğlu Mahalalel oğlu Qenan oğlu Enoş oğlu Şet oğlu Adəm oğlu Allah oğlu.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü – 7.1.

əgər Epifaniya Bayramı Rəbb günündə qeyd edilir

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 5:14-21*

Ey sevimlilər! Biz Məsihin hüzurunda ona görə cəsarətlə danışa bilirik ki, Onun iradəsinə uyğun nəsə dilədikdə O bizi eşidir. Bilirik ki, nə diləyiriksə, O bizi eşidir; beləcə də bilirik ki, Ondan dilədiklərimizi alırıq. Əgər bir kəs qardaşının ölümə aparmayan günah etdiyini görsə, qoy Allahdan onun sağ qalmasını diləsin və beləcə ona – ölümə aparmayan günah edən kəsə həyat versin. Ölümə aparan günah da var. Demirəm ki, bu barədə Allahdan istəsin. Hər cür haqsızlıq günahdır, amma ölümə aparmayan günah da var. Bilirik ki, Allahdan doğulan hər kəs günahını davam etdirməz. Əksinə, Allahdan doğulan Oğul onu qoruyur və şər olan ona toxuna bilmir. Bilirik ki, biz Allahdanıq, amma bütün dünya şər olanın hakimiyyəti altındadır. Bunu da bilirik ki, Allahın Oğlu gəlib bizə Haqq Olanı tanımaq üçün dərrakə verdi. Biz də Haqq Olanda, Onun Oğlu İsa Məsihdəyik. Həqiqi Allah və əbədi həyat Odur. Ey övladlar, özünüzü bütlərdən qoruyun!

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 149(148), 1-2. 3-4. 5-6a+9**

**N: Rəbb Öz xalqından zövq alar.**

Rəbbə yeni bir ilahi oxuyun,
möminlər camaatı arasında Ona həmd edin!
İsrail nəsli Yaradanına görə sevinsin,
Sion övladları Padşahına görə şad olsun!

Rəqslərlə isminə həmd edin,
dəflə, lira ilə ismini tərənnüm edin!
Çünki Rəbb Öz xalqından zövq alar,
zəfəri ilə itaətkarların üstünə yaraşıq salar.

Bu şərəfə görə qoy möminlər sevinsinlər,
yataqlarında belə, Onu tərənnüm etsinlər.
Dilləri ilə Allahı ucaltsınlar,
Rəbbin bütün möminləri bununla şərəflənsinlər.

**Alleluya!** *bax Lk 7:16bc*

Aramızda böyük bir peyğəmbər ortaya çıxdı! və Allah Öz xalqına nəzər saldı!
**Alleluya!**

## † İncil †

*Yəh 2:1-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Bunun üçüncü günü Qalileyanın Qana kəndində toy oldu. İsanın anası orada idi. İsa ilə şagirdləri də toya çağırılmışdı. Şərab qurtaranda anası İsaya dedi: «Şərabları qalmadı». İsa dedi: «Ana, məndən nə istəyirsən? Mənim vaxtım hələ çatmayıb». Anası xidmətçilərə dedi: «Sizə nə desə, edin». Yəhudilərin paklanma mərasimi üçün orada hər biri iki-üç ölçü su tuta bilən altı daş küp var idi. İsa xidmətçilərə dedi: «Küpləri su ilə doldurun». Onları ağzına qədər doldurdular. O, xidmətçilərə dedi: «İndi bir az götürüb toyağasına aparın». Onlar da apardı. Toyağası şəraba çevrilmiş suyun dadına baxdı. O bunun haradan gətirildiyini bilmirdi, bunu yalnız suyu götürən xidmətçilər bilirdi. Toyağası bəyi çağırıb ona dedi: «Hər kəs əvvəlcə əla şərabı, çox içiləndən sonra isə adi şərabı təqdim edir. Amma sən əla şərabı indiyə saxlamısan». İsa Qalileyanın Qana kəndində bu ilk əlamətini göstərdi və izzətini üzə çıxardı. Şagirdləri də Ona iman etdi. Bundan sonra anası, qardaşları və şagirdləri ilə birgə Kefernahuma gedib orada bir neçə gün qaldı.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü - 7.1. ya Epifaniyadan Bazar ertəsi günü

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 3:22 – 4:6*

Ey sevimlilər! Allahdan nə diləyiriksə, alırıq. Ona görə ki Onun əmrlərinə riayət edirik və önündə Ona məqbul olan işlər görürük. Onun əmri də budur ki, biz Onun Oğlu İsa Məsihin adına iman edək və Onun bizə əmr etdiyi kimi bir-birimizi sevək. Onun əmrlərinə riayət edən şəxs Allahda, Allah da onda qalır. Onun bizdə qaldığını bu yolla, bizə verdiyi Ruh vasitəsilə bilirik.
Ey sevimlilər, hər ruha inanmayın; ruhların Allahdan olub-olmadığını bilmək üçün onları sınaqdan keçirin. Çünki dünyada çoxlu yalançı peyğəmbər meydana çıxıb. Allahın Ruhunu bundan tanıya bilərsiniz: İsa Məsihin cismən gəldiyini iqrar edən hər ruh Allahdandır, İsanı iqrar etməyən hər ruhsa Allahdan deyil. Bu, «Məsih əleyhdarı»nın ruhudur ki, bu ruhun gələcəyini eşitmisiniz və indi də artıq dünyadadır. Sizsə, ey övladlar, Allahdansınız və yalançı peyğəmbərlərə qalib gəlmisiniz. Çünki sizdə olan Ruh dünyada olandan üstündür. Onlar dünyadandır, buna görə də dünyəvi mövqedən danışırlar və dünya onlara qulaq asır. Bizsə Allahdanıq. Allahı tanıyan bizə qulaq asır, Allahdan olmayansa bizə qulaq asmır. Həqiqət ruhunu və aldatma ruhunu bundan tanıyırıq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 2, 7-8. 10-11**

**N: Ata Oğluna bütün səltənətləri verdi.**

Rəbbin fərmanını elan edəcəyəm.
Rəbb mənə dedi: «Sən Mənim oğlumsan,
Mən bu gün sənə Ata oldum.
Məndən istə, onda irs olaraq millətləri,
mülk olaraq yer üzünün qurtaracağınadək hər yeri
Sənə verərəm.

İndi, ey şahlar, müdrik olun!
Ey dünya hakimləri, ibrət alın!
Rəbdən qorxub Ona xidmət edin,
həm titrəyin, həm sevinin.

**Alleluya!** *Mt 4:23*

İsa bütün Qalileyanı gəzir, onların sinaqoqlarında öyrədir, Səmavi Padşahlığın Müjdəsini vəz edir, xalq arasında hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa verirdi.

**Alleluya!**

## † İncil †

Mt 4:12-17. 23-25

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa Yəhyanın həbs olunduğunu eşitdikdə Qalileyaya qayıtdı. Nazaretdən çıxıb Zevulun və Naftali bölgəsində, Qalileya gölü kənarında yerləşən Kefernahumda məskən saldı. Bu, Yeşaya peyğəmbər vasitəsilə söylənən həmin söz yerinə yetsin deyə baş verdi: «Zevulun və Naftali bölgələri, dənizkənarı yol, İordan çayının o biri tayı, müxtəlif millətlər yaşayan Qalileya – Zülmətdə yaşayan xalq möhtəşəm bir işıq gördü. Ölüm kölgəsi diyarında məskunlaşanların üzərinə Nur doğdu».

O vaxtdan İsa vəz edib belə deməyə başladı: «Tövbə edin! Çünki Səmavi Padşahlıq yaxınlaşıb».

İsa bütün Qalileyanı gəzir, onların sinaqoqlarında öyrədir, Səmavi Padşahlığın Müjdəsini vəz edir, xalq arasında hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa verirdi. Onun haqqındakı xəbər bütün Suriyaya yayıldı. Ona görə də İsanın yanına hər cür xəstəlik və iztirab çəkənləri, cinlərə tutulmuşları, epileptikləri və iflicləri gətirdilər. O da onlara şəfa verdi. Qalileyadan, Dekapolis bölgəsindən, Yerusəlimdən, Yəhudeyadan və İordan çayının o biri tayından böyük izdihamlar İsanın ardınca gedirdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü - 8.1. ya Epifaniyadan Çərşənbə axşamı günü

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 4:7-10*

Ey sevimlilər, bir-birimizi sevək, çünki məhəbbət Allahdandır. Sevən hər kəs də Allahdan doğulub və Allahı tanıyır. Sevməyən kəs Allahı tanımır, çünki Allah məhəbbətdir. Allahın bizə olan məhəbbəti belə zahir oldu: Allah Öz vahid Oğlunu dünyaya göndərdi ki, biz Onun vasitəsilə yaşayaq. Məhəbbət bizim Allahı sevməyimizlə bağlı deyil, amma bundan ibarətdir: O bizi sevdi və Öz Oğlunu bizim günahlarımıza görə kəffarə qurbanı olaraq göndərdi.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 72(71), 1-2. 3-4b. 7-8**

**N: Allahın qarşısında bütün millətlər təzim edin!**

Ey Allah, padşaha ədalət ver,
şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə,
məzlumlara ədalətlə hakimlik etsin.

Xalqın firavanlığı dağlardan aşsın,
salehlər təpələri dolaşsın.
Padşah xalq arasında olan məzlumları qorusun,
fəqirləri xilas etsin.

Bu padşahın ömrü boyu qoy salehlər çiçək açsın,
göydə ay durduqca qoy firavanlıq artsın.
Dənizdən-dənizə qədər,
Fəratdan yer üzünün qurtaracağınadək hər yerdə hökmranlıq etsin.

**Alleluya!** *bax Lk 4:18*

Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə Müjdəni bildirmək üçün
O Məni məsh etdi. Əsirlərə azadlıq bəyan etmək üçün Məni göndərdi.
**Alleluya!**

## † İncil †

*Mk 6:34-44*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa sahilə düşəndə böyük bir izdiham gördü və onlara rəhmi gəldi. Çünki onlar çobansız qoyunlara bənzəyirdi. İsa onlara çox şeylər haqqında təlim öyrətməyə başladı. Vaxt keçirdi. Şagirdləri gəlib İsaya dedilər: «Bura çöllükdür, artıq gecdir. Camaatı burax, qoy gedib ətrafdakı kənd və obalardan özlərinə bir şey alıb yesinlər». Amma İsa onlara cavab verdi: «Onlara yeməyi siz verin». Şagirdlər İsaya dedilər: «Bəlkə gedib iki yüz dinarlıq çörək alaq və onlara verək ki, yesinlər?» Amma İsa onlara dedi: «Gedin baxın, neçə çörəyiniz var?» Onlar da baxıb dedilər: «Beş çörəyimiz və iki balığımız var». İsa onlara əmr etdi ki, camaatı dəstə-dəstə göy otların üstündə oturtsunlar. Camaat yüz-yüz, əlli-əlli dəstə şəklində oturdu. İsa beş çörəyi və iki balığı götürüb göyə baxaraq şükür duası etdi. Sonra çörəyi bölüb şagirdlərinə verdi ki, camaata paylasınlar. İki balığı da hamıya bölüşdürdü. Hamı yeyib-doydu. Artıq qalan çörək və balıq hissələrini yığdılar, on iki zənbil doldu. Çörəkləri yeyən kişilərin sayı beş min nəfər idi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü - 9.1.
# ya Epifaniyadan Çərşənbə günü

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 4:11-18*

Ey sevimlilər, Allah bizi bu cür sevdiyi üçün biz də gərək bir-birimizi sevək. Allahı heç kim heç zaman görməyib. Əgər biz bir-birimizi sevsək, Allah bizdə qalır və Onun məhəbbəti bizdə kamil olur. Bizim Onda, Onun da bizdə qaldığını bundan bilirik ki, O bizə Öz Ruhundan verib. Biz görüb şahidlik edirik ki, Ata Oğlunu dünyanın Xilaskarı olaraq göndərdi. Kim iqrar edir ki, İsa Allahın Oğludur, Allah onda, o da Allahda qalır. Biz Allahın bizə olan məhəbbətini anlayıb buna inandıq. Allah məhəbbətdir. Kim məhəbbətdə qalarsa, Allahda qalar, Allah da onda qalar. Məhəbbət bizdə ona görə kamil oldu ki, qiyamət günündə cəsarətimiz olsun. Çünki Məsih necədirsə, biz də bu dünyada eləyik. Məhəbbətdə qorxu yoxdur, əksinə, kamil məhəbbət qorxunu qovar. Çünki qorxu cəzaya aiddir, qorxan insan məhəbbətdə kamil deyil.

Bu Allahın Kəlamıdır. *  **M: Allaha şükürlər olsun.**

**Zəbur 72(71), 1-2. 10-11. 12-13.**

**N: Ya Rəbb, millətlərin hamısı hüzuruna gəlib səcdə edəcək.**

Ey Allah, padşaha ədalət ver,
şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə,
məzlumlara ədalətlə hakimlik etsin.

Tarşişin və adaların padşahları ona xərac gətirsin,
Səba və Seva padşahları ona bəxşiş versin.
Qarşısında bütün padşahlar təzim etsin,
qoy bütün millətlər ona xidmət etsin!

Çünki o imdad deyib çağıran fəqirləri,
məzlumları, köməksizləri qurtarır.
Yoxsula, fəqirə rəhm edir,
fəqirlərin canlarını azad edir.

**Alleluya!** *bax 1Tim 3:16*

Ey Məsih, Sənə həmd olsun! Millətlərə vəz olundun,
dünyada Sənə iman edildi. Sənə həmd olsun!
**Alleluya!**

## † İncil †

*Mk 6:45-52*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bundan dərhal sonra İsa camaatı evlərinə göndərərkən şagirdlərini də məcbur etdi ki, qayığa minib Özündən əvvəl o biri sahilə – Bet-Saydaya keçsinlər. İsa camaatı yola salandan sonra dua etmək üçün dağa çıxdı. Axşam olanda qayıq gölün ortasında idi. Amma İsa quruda tək dayanmışdı. O gördü ki, şagirdləri güclə avar çəkir, çünki külək onlara qarşı əsirdi. Gecənin dördüncü növbəsi İsa gölün üstü ilə yeriyərək onların yanına gəldi və onları keçmək istədi. Şagirdlərsə İsanın gölün üstü ilə yeridiyini görəndə Onu bir kabus bilib qışqırdılar. Çünki hamı Onu görüb lərzəyə düşmüşdü. Lakin bu anda İsa onlara müraciət edib dedi: «Cəsarətli olun, Mənəm, qorxmayın!» Qayığa minib onlara qoşuldu. Külək də sakitləşdi. Hamı tamamilə mat qaldı. Çünki inadkar ürəkli olduqlarına görə çörəklə bağlı işi hələ də başa düşməmişdilər.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü - 10.1. ya Epifaniyadan Cümə axşamı günü

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 4:19 - 5:4*

Ey sevimlilər, biz sevirik, çünki öncə O bizi sevdi. Kim «mən Allahı sevirəm» deyir, amma öz qardaşına nifrət edirsə, yalançıdır. Axı gördüyü qardaşını sevməyən görmədiyi Allahı sevə bilməz. Bizim Ondan aldığımız əmr budur ki, Allahı sevən gərək öz qardaşını da sevsin.
İsanın Məsih olduğuna inanan hər kəs Allahdan doğulub. Doğanı sevən ondan doğulanı da sevir. Biz Allahın övladlarını sevdiyimizi bundan anlayırıq ki, Allahı sevib Onun əmrlərinə əməl edirik. Çünki Allah məhəbbəti Onun əmrlərinə riayət etməyimizi tələb edir. Onun əmrləri isə ağır deyil. Çünki Allahdan doğulan hər kəs dünyaya qalib gəlir. Bizə dünya üzərində zəfər qazandıran öz imanımızdır.

Bu Allahın Kəlamıdır. *  **M: Allaha şükürlər olsun.**

**Zəbur 72(71), 1-2. 14+15bc. 17**

**N: Ya Rəbb, millətlərin hamısı hüzuruna gəlib səcdə edəcək.**

Ey Allah, padşaha ədalət ver,
şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə,
məzlumlara ədalətlə hakimlik etsin.

Onları hədə-qorxudan, zorakılıqdan qurtarır,
Onun gözündə bunların qanı qiymətlidir.
Qoy onun üçün durmadan dua edilsin,
hər gün ona xeyir-dua verilsin.

Qoy padşahın adı əbədi qalsın,
günəşin ömrü tək adı var olsun.
Onun vasitəsilə insanlar xeyir-dua alsın,
Onu bütün millətlər bəxtiyar adlandırsın!

**Alleluya!** *bax Lk 4:18*

Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə Müjdəni bildirmək üçün
O Məni məsh etdi. Əsirlərə azadlıq bəyan etmək üçün Məni göndərdi.
**Alleluya!**

## † İncil †

*Lk 4:14-22a*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa Ruhun qüdrəti ilə Qalileyaya qayıtdı. Onun haqqında xəbər bütün bölgəyə yayıldı. İsa oranın sinaqoqlarında təlim öyrətməyə başladı. Hamı Onu izzətləndirirdi.

İsa böyüdüyü Nazaret şəhərinə gəldi və adətinə görə Şənbə günü sinaqoqa getdi. O, Müqəddəs Yazılardan oxumaq üçün ayağa qalxdı. Ona Yeşaya peyğəmbərin kitabını verdilər. İsa tumarı açıb bu sözlər yazılan hissəni tapdı: «Rəbbin Ruhu üzərimdədir,

çünki fəqirlərə Müjdəni bildirmək üçün O Məni məsh etdi. Əsirlərə azadlıq, korlara gözlərinin açılmasını elan etmək üçün, məzlumları sərbəstliyə buraxmaq üçün, Rəbbin lütf ilini bəyan etmək üçün Məni göndərdi».

Sonra İsa tumarı bağladı və xidmətçiyə verib oturdu. Sinaqoqda oturanların hamısı Ona diqqətlə baxırdı. İsa onlara «eşitdiyiniz bu Müqəddəs Yazı bu gün yerinə yetdi» deyə danışmağa başladı. Bu vaxt hamı Onun haqqında yaxşı sözlər deyirdi və Onun ağzından çıxan lütf dolu kəlmələrə heyrət edirdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü - 11.1.
# ya Epifaniyadan Cümə günü

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 5:5-13*

Ey sevimlilər! Dünyaya qalib gələn kimdir? Əlbəttə ki, İsanın Allahın Oğlu olmasına inanan! Su və qanla gələn Şəxs həmin İsa Məsihdir. O yalnız su ilə deyil, su və qanla gəldi. Buna şəhadət edən Ruhdur, çünki Ruh həqiqətdir. Bəli, üç şahid var: Ruh, su və qan. Bunların üçü də bir-birinə uyğun gəlir. Biz insanların şəhadətini qəbul edirik, amma Allahın şəhadəti bundan üstündür. Çünki bu, Allahın şəhadətidir; O Öz Oğlu barədə şəhadət edib. Allahın Oğluna iman edən kəs öz daxilində bu şəhadətə malikdir. Amma Allaha inanmayan Onu yalançı yerinə qoyub. Çünki Allahın Öz Oğlu barədə verdiyi şəhadətə inanmayıb. Bu şəhadət ondan ibarətdir ki, Allah bizə əbədi həyat verib və bu həyat Onun Oğlundadır. Oğula malik olan şəxsin həyatı var, Allahın Oğluna malik olmayan şəxsin isə həyatı yoxdur.
Bunları sizə – Allahın Oğlunun adına iman edənlərə yazdım ki, əbədi həyata malik olduğunuzu biləsiniz.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Məzmur 147b, 12-13. 14-15. 19-20**

**N: Ey Yerusəlim, Rəbbi mədh et! Ey Sion, Allahına həmd et!**

Ey Yerusəlim, Rəbbi mədh et!
Ey Sion, Allahına həmd et!
Çünki darvazalarının cəftələrini bərkidər,
sənin əhalinə bərəkət verər.

Sərhədinə əmin-amanlıq,
sənə doyunca əla taxıl yetirər.
Kəlamını yer üzünə yollar,
Onun sözü tez yayılar.

O, Yaqub nəslinə sözlərini,
İsraillilərə qanun və hökmlərini bildirir.
Başqa millətlər üçün belə etməyib,
heç birinə hökmlərini bildirməyib.

**Alleluya** *Mt 4:23*

İsa bütün Qalileyanı gəzir, onların sinaqoqlarında öyrədir,
Səmavi Padşahlığın Müjdəsini vəz edir, xalq arasında hər cür xəstəliyə
və hər cür naxoşluğa şəfa verirdi.

**Alleluya**

*Lk 5:12-16*

**† İncil †**

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bir gün İsa şəhərlərin birində olarkən bütün bədəni cüzama tutulmuş bir kişi ilə rastlaşdı. Bu adam İsanı görüb üzüstə yerə qapanaraq yalvardı: «Ya Rəbb, əgər istəsən, məni pak edə bilərsən». İsa əlini uzadıb ona toxundu və dedi: «İstəyirəm, pak ol!» Dərhal bu adam cüzamdan sağaldı. İsa ona tapşırdı ki, heç kəsə bir söz söyləməsin və dedi:
«Amma get, özünü kahinə göstər. Hər kəsə şəhadət olsun deyə sənin cüzamdan paklandığın üçün Musanın buyurduğuna əsasən təqdimlər apar». Amma indi İsa barəsində xəbər daha çox yayılırdı. Çoxlu camaat axışıb İsanın yanına gəlirdi ki, Ona qulaq assın və xəstəliklərdən şəfa tapsın. Amma İsa kimsəsiz yerlərə çəkilib dua edirdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad dövrü - 12.1. ya Epifaniyadan Şənbə günü

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 5:14-21*

Ey sevimlilər! Biz Allahın hüzurunda ona görə cəsarətlə danışa bilirik ki, Onun iradəsinə uyğun nəsə dilədikdə O bizi eşidir. Bilirik ki, nə diləyiriksə, O bizi eşidir; beləcə də bilirik ki, Ondan dilədiklərimizi alırıq. Əgər bir kəs qardaşının ölümə aparmayan günah etdiyini görsə, qoy Allahdan onun sağ qalmasını diləsin və beləcə ona – ölümə aparmayan günah edən kəsə həyat versin. Ölümə aparan günah da var. Demirəm ki, bu barədə Allahdan istəsin. Hər cür haqsızlıq günahdır, amma ölümə aparmayan günah da var. Bilirik ki, Allahdan doğulan hər kəs günahını davam etdirməz. Əksinə, Allahdan doğulan Oğul onu qoruyur və şər olan ona toxuna bilmir. Bilirik ki, biz Allahdanıq, amma bütün dünya şər olanın hakimiyyəti altındadır. Bunu da bilirik ki, Allahın Oğlu gəlib bizə Haqq Olanı tanımaq üçün dərrakə verdi. Biz də Haqq Olanda, Onun Oğlu İsa Məsihdəyik. Həqiqi Allah və əbədi həyat Odur. Ey övladlar, özünüzü bütlərdən qoruyun!

Bu Allahın Kəlamıdır. *  **M: Allaha şükürlər olsun.**

**Zəbur 149(148), 1-2. 3-4. 5-6a+9**

**N: Rəbb Öz xalqından zövq alar.**

Rəbbə yeni bir ilahi oxuyun,
möminlər camaatı arasında Ona həmd edin!
İsrail nəsli Yaradanına görə sevinsin,
Sion övladları Padşahına görə şad olsun!

Rəqslərlə isminə həmd edin,
dəflə, lira ilə ismini tərənnüm edin!
Çünki Rəbb Öz xalqından zövq alar,
zəfəri ilə itaətkarların üstünə yaraşıq salar.

Bu şərəfə görə qoy möminlər sevinsinlər,
yataqlarında belə, Onu tərənnüm etsinlər.
Dilləri ilə Allahı ucaltsınlar,
Rəbbin bütün möminləri bununla şərəflənsinlər.

**Alleluya!** *Mt 4:16*

Zülmətdə yaşayan xalq möhtəşəm bir işıq gördü.
Ölüm kölgəsi diyarında məskunlaşanların üzərinə Nur doğdu.
**Alleluya!**

## † İncil †

*Yəh 3:22-30*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bundan sonra İsa və Onun şagirdləri Yəhudeya diyarına gəldilər. İsa bir müddət onlarla orada qalıb vəftiz edirdi. Yəhya da Şalim yaxınlığındakı Aynonda vəftiz edirdi, çünki orada çoxlu su var idi. Adamlar da gəlib vəftiz olunurdu. Yəhya hələ zindana salınmamışdı.

Bu zaman Yəhyanın şagirdləri ilə bir Yəhudi arasında paklanma barədə mübahisə düşdü. Şagirdləri Yəhyanın yanına gəlib dedilər:
«Rabbi, İordanın o tayında sənin yanında olan və barəsində şəhadət etdiyin Şəxs indi Özü vəftiz edir və hamı Onun yanına gəlir».

Yəhya cavabında dedi: «İnsana göydən verilməsə, o heç nə ala bilməz. "Mən Məsih deyiləm, ancaq Ondan əvvəl göndərilmişəm" sözümə özünüz şahidsiniz. Gəlin kimindirsə, bəy odur. Amma bəyi gözləyərək ona qulaq asan sağdışı bəyin səsini eşidib çox sevinir. Mənim sevincim beləcə tam oldu. İndi Ona böyümək, mənə kiçilmək gərəkdir».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# İsa Məsihin Vəftiz Bayramı – Epifaniyadan sonra Rəbb günü

## A ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 42:1-4. 6-7*

Budur, Mənim saxladığım, seçdiyim qulum! Könlüm ondan razıdır! Mən Öz Ruhumu onun üzərinə qoymuşam. O, millətlərə ədalət gətirəcək. Çığırmayacaq, səsini qaldırmayacaq, küçələrdə heç kim onun səsini eşitməyəcək. Əzilmiş qamışı qırmayacaq, tüstülənən piltəni söndürməyəcək. O, ədaləti sədaqətlə yayacaq. O, yer üzündə ədaləti quranadək ümidini, cəsarətini itirməyəcək, uzaq diyarlar onun qanununa etibar edəcək. «Mən Rəbb salehliyimlə səni çağırdım, səni əlindən tutacağam, səni qoruyacağam, səni xalqım üçün əhd edəcəyəm, millətlərə nur edəcəyəm ki, korların gözlərini açasan, zindandan dustaqları, zülmətdə, həbsxanada oturanları azad edəsən.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 29(28), 1-10**

**N: Rəbb Öz xalqına firavanlıq və bərəkət verir.**

Ey ilahi varlıqlar, Rəbbə verin –
İzzəti, qüdrəti Rəbbə verin!
Adına layiq olan izzəti Rəbbə verin,
müqəddəslik zinəti ilə Rəbbə səcdə edin!

Rəbbin səsi suların üzərindədir,
Rəbb ümman suların üzərindədir.
Rəbbin səsi qüdrətlidir,
Rəbbin səsi əzəmətlidir.

Ehtişam Allahı gurlayar,
məbədində hamı deyər:
«Ehtişamlısan!»
Rəbb daşan sular üstündəki taxtında oturub,
O, əbədi Padşahdır, taxtında oturub.

**Həvarilərin işləri kitabından sözlər** *Həv 10:34-38*

O günlərdə Peter sözə başlayıb dedi: «İndi bildim ki, həqiqətən, Allah tərəfkeşlik etmir. Milliyətindən asılı olmayaraq kim ki Ondan qorxub əməlisaleh olarsa, Ona məqbuldur. O, İsrail övladlarına Öz kəlamını göndərdi və hamının Sahibi olan İsa Məsih vasitəsilə barışdırma Müjdəsini yaydı. Bilirsiniz ki, Yəhyanın vəftiz üçün çağırışından sonra Qalileyadan başlayaraq bütün Yəhudeyada nələr baş verdi. Allah Nazaretli İsanı Müqəddəs Ruhla və qüdrətlə məsh etdi. İsa xeyirxahlıq edərək hər yanı gəzib iblisin təzyiqinə məruz qalanların hamısını sağaltdı. Çünki Allah Ona yar idi.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** **Mk 9:7**

Buluddan bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ona qulaq asın!»

**Alleluya!**

**† İncil †**

*Mt 3:13-17*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O vaxt İsa Yəhya tərəfindən vəftiz olmaq üçün Qalileyadan İordan çayına, Yəhyanın yanına gəldi. Yəhya Ona mane olmaq istəyərək dedi: «Sən Məni vəftiz etməlisən, Sən niyə mənim yanıma gəlirsən?» İsa ona cavab verdi: «Hələlik buna razı ol. Çünki biz salehlik işini beləcə yerinə yetirməliyik». Onda Yəhya razı oldu. İsa vəftiz olunan kimi sudan çıxdı. O vaxt göylər yarıldı və Allahın Ruhunun göyərçin kimi endiyini və Öz üzərinə qonduğunu gördü. Göylərdən bir səda gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# İsa Məsihin Vəftiz Bayramı – Epifaniyadan sonra Rəbb günü

**B ili**

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 55:1-11*

Ey bütün susamışlar, gəlin su başına! Ey pulu olmayanlar, gəlin, alın, yeyin! Gəlin, şərabı və südü pulsuz, havayı alın! Nə üçün pulunuzu çörək olmayan şeylərə, qazandığınızı sizi doydurmayan şeylərə xərcləyirsiniz? Məni diqqətlə dinləyin ki, yaxşı şeylər yeyəsiniz, nemətlərdən dadasınız. Qulaq asın, Mənim yanıma gəlin, dinləyin ki, sağ qalasınız. Mən sizinlə əbədi əhd, Davuda vəd etdiyim sadiq məhəbbət əhdi kəsəcəyəm. Budur, onu ümmətlərə şahid, xalqlara başçı və hökmdar etdim. Tanımadığınız millətləri çağıracaqsınız. Sizi tanımayan millətlər qaça-qaça yanınıza gələcək. Allahınız Rəbbə görə, İsrailin Müqəddəsindən ötrü onlar gələcək, çünki Rəbb sizi ucaltdı. Tapmaq fürsəti olarkən Rəbbi axtarın, O yaxın ikən Onu çağırın. Qoy pis adam öz yolunu, şər adam öz fikirlərini atsın. Qoy Rəbbə sarı dönsün ki, Onda mərhəmət tapsın. Qoy Allahımıza tərəf dönsün, çünki Onun əfvi boldur. «Çünki Mənim fikirlərim sizin fikirləriniz deyil, sizin yollarınız Mənim yollarım deyil» Rəbb belə bəyan edir. «Çünki göylər yer üzündən nə qədər yüksəkdirsə, yollarım da sizin yollarınızdan, fikirlərim də sizin fikirlərinizdən o qədər yüksəkdir. Yağış və qar necə göylərdən yağıb oraya qayıtmırsa, ancaq torpağı sulayıb yeri məhsuldar edirsə, əkinçiyə toxum, yeyənə çörək verirsə, ağzımdan çıxan kəlmə də belədir: Boş yerə yanıma qayıtmaz, ancaq istədiyimi yerinə yetirər, Onu göndərdiyim iş icra olunsun deyə həyata keçirər.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**İlahi Yeş 12, 2-3. 4bd. 5-6**

**N: Sevinclə xilas mənbələrindən su çəkək.**

Allah xilasımdır, Ona güvənəcəyəm və qorxmayacağam,
çünki Rəbb Allahımız qüvvətim, məzmurumdur,
O mənə xilas verdi!»
Sevinclə xilas mənbələrindən
su çəkəcəksiniz.

«Rəbbə şükür edin, Onun adını çağırın,
xalqlar arasında Onun işlərini bəyan edin,
Onun adının ucalığını elan edin.

**N: Sevinclə xilas mənbələrindən su çəkək.**

Rəbbi tərənnüm edin,
çünki O, möhtəşəm işlər gördü,
qoy bütün dünya bunu bilsin!
Ey Sion sakinləri, səsinizi ucaldın,
sevinclə çığırın,
çünki aranızdakı İsrailin Müqəddəsi böyükdür».

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1Yəh 5:1-9*

İsanın Məsih olduğuna inanan hər kəs Allahdan doğulub. Doğanı sevən ondan doğulanı da sevir. Biz Allahın övladlarını sevdiyimizi bundan anlayırıq ki, Allahı sevib Onun əmrlərinə əməl edirik. Çünki Allah məhəbbəti Onun əmrlərinə riayət etməyimizi tələb edir. Onun əmrləri isə ağır deyil. Çünki Allahdan doğulan hər kəs dünyaya qalib gəlir. Bizə dünya üzərində zəfər qazandıran öz imanımızdır. Dünyaya qalib gələn kimdir? Əlbəttə ki, İsanın Allahın Oğlu olmasına inanan! Su və qanla gələn Şəxs həmin İsa Məsihdir. O yalnız su ilə deyil, su və qanla gəldi. Buna şəhadət edən Ruhdur, çünki Ruh həqiqətdir. Bəli, üç şahid var: Ruh, su və qan. Bunların üçü də bir-birinə uyğun gəlir. Biz insanların şəhadətini qəbul edirik, amma Allahın şəhadəti bundan üstündür. Çünki bu, Allahın şəhadətidir; O Öz Oğlu barədə şəhadət edib.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax Yəh 1:29*

Yəhya İsanın ona tərəf gəldiyini görüb dedi:
«Dünyanın günahını aradan götürən Allah Quzusu budur!»

**Alleluya!**

## † İncil †

*Mk 1:7-11*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Yəhya belə vəz edirdi: «Məndən sonra məndən daha Qüdrətlisi gəlir.
Mən əyilib Onun çarıqlarının bağını açmağa belə, layiq deyiləm.
Mən sizi su ilə vəftiz etdim, amma O sizi Müqəddəs Ruhla vəftiz edəcək».

O günlərdə İsa Qalileyanın Nazaret şəhərindən gəlib Yəhya tərəfindən İordan çayında vəftiz olundu. İsa sudan çıxan kimi göylərin yarıldığını və Ruhun göyərçin kimi Öz üzərinə endiyini gördü. Göylərdən bir səda gəldi: «Sən Mənim sevimli Oğlumsan, Səndən razıyam».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# İsa Məsihin Vəftiz Bayramı – Epifaniyadan sonra Rəbb günü

## C ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 40:1-5. 9-11*

Allahınız deyir: «Təsəlli verin xalqıma, təsəlli verin! Yerusəlim sakinlərinə təskinlik verən sözlər söyləyin! Əsirlik dövrünün qurtarmasını, təqsirlərinin əvəzinin verilməsini, bütün günahlarına görə Rəbbin əlindən ikiqat cəza aldıqlarını onlara bəyan edin».

Nida edənin səsi gəlir: «Səhrada Rəbbin yolunu hazırlayın, çöldə Allahımızın keçəcəyi yerləri hamar edin. Hər dərə yüksəldiləcək, hər dağ və təpə aşağı endiriləcək, yoldakı əyriliklər düzələcək, kələ-kötür yerlər hamar ediləcək. Rəbbin əzəməti aşkar olunacaq, bütün bəşər bunu birlikdə görəcək». Bu sözlər Rəbbin ağzından çıxıb.

Ey Siona müjdə gətirən, yüksək dağa çıx! Ey Yerusəlimə xoş xəbər gətirən, ucalt səsini, car çək, qaldır səsini, qorxma. Yəhuda şəhərlərinə de: «Budur Allahınız!» Budur, Xudavənd Rəbb Öz qüvvəsi ilə gəlir, O, qüdrətlə hökm edəcək, mükafatı Onunladır, ənamı önündədir. O Öz sürüsünü çoban kimi otaracaq, quzuları qucağına alacaq, sinəsində gəzdirəcək, sağmal heyvanların qayğısını çəkib otaracaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 104(103), 1b-2. 3-4. 24-25. 27-28. 29-30**

**N: Rəbbə alqış et, ey könlüm, çünki O böyükdür!**

Ya Rəbb Allahım, Sən nə qədər böyüksən,
ehtişamı, əzəməti geyinmisən!
Nura libas kimi bürünən,
göyləri çadır tək açansan!

Yuxarı otaqlarını suların üstündə quran,
buludları Özünə araba edən,
yel qanadları üstünə minib gəzən,
küləyi Özünə elçi edən,
yanar odu Özünə xidmətçi edən Sənsən!

Ya Rəbb, əməllərin çoxdur!
Hər birini müdrikliklə etmisən,
yaratdıqların yer üzünü doldurub.
Böyük, dərin dənizlərin var,
orada da saysız məxluqlar –
həm kiçik, həm də böyük canlılar qaynaşar.

**N: Rəbbə alqış et, ey könlüm, çünki O böyükdür!**

Bunların hamısı gözləyir ki,
Sən vaxtlı-vaxtında onları yemləyəsən.
Sən yem verərkən onlar yem yığırlar,
açıq əlinin nemətindən doyurlar.

Amma üzünü gizlədərkən vəlvələyə düşürlər,
Sən onların nəfəsini kəsərkən ölüb torpağa qarışırlar,
Ruhunu göndərərkən onlar yaranır,
Yer üzünə yeni həyat verirsən.

**Müqəddəs Paulun Titə məktubundan sözlər** *Tit 2:11-14. 3:4-7*

Allahın bütün insanlara xilas gətirən lütfü zühur etdi. Bu lütf bizə allahsızlığı və dünyəvi ehtirasları rədd edib, bu dövrdə ağıllı-kamallı, saleh və mömінliyə uyğun bir ömür sürməyi öyrədir. Bu ərəfədə bəxtiyarlıq gətirən ümidimizin gerçəkləşməsini, ulu Allah və  Xilaskarımız İsa Məsihin izzətinin zühurunu gözləyək. O Özünü bizim üçün fəda etdi ki, bizi hər cür qanunsuzluqdan satın alsın, təmizləyib Özünə məxsus və yaxşı işlərə səy göstərən bir xalq yaratsın.

Amma Xilaskarımız Allah xeyirxahlığını və insana olan sevgisini açıq göstərdiyi zaman bizim salehliklə etdiyimiz əməllərlə deyil, Öz mərhəmətinə görə bizi xilas etdi. Bunu bizi yumaqla, yəni Müqəddəs Ruhun bizi yenidən doğuzdurub təzələməsi ilə etdi. Allah Xilaskarımız İsa Məsih vasitəsilə üzərimizə bol-bol Müqəddəs Ruhu tökdü ki, Onun lütfü ilə saleh sayılıb ümidimiz olan əbədi həyatın varisi olaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax Lk 3:16*

Yəhya deyir: «Məndən daha Qüdrətlisi gəlir.
O sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək.

**Alleluya!**

## † İncil †

*Lk 3-15-15. 21-22*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Xalq ümidlə gözləyirdi və hamı ürəyində Yəhya haqqında öz-özündən soruşurdu: «Görəsən bu, Məsihdirmi?» Yəhya onların hamısına belə cavab verdi: «Mən sizi su ilə vəftiz edirəm, amma məndən daha Qüdrətlisi gəlir. Mən Onun çarıqlarının bağını açmağa belə, layiq deyiləm. O sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək.

Bütün xalq vəftiz olunanda İsa da vəftiz olundu. O dua edərkən göy yarıldı, Müqəddəs Ruh bədəncə göyərçin şəklində Onun üzərinə endi. Göydən bir səda gəldi: «Sən Mənim sevimli Oğlumsan, Səndən razıyam».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**



# Advent † Milad oxunuşları

*(Müqəddəs Messa üçün)*